Feyruz Bağırov

Müsəlmanın maraq dünyası



Naxçıvan – 2014

FEYRUZ BAĞIROV

MÜSƏLMANIN MARAQ DÜNYASI

“Bir saat təfəkkür etmək 70 illik ibadətdən yaxşıdır.” (Hz. Məhəmməd)

“Əbədi aləmdə kimsəsiz qalmamaq üçün bu dünyada kimsəsizlərin kimsəsi olmaq ən gözəl işdir.” (Feyruz Abdulla oğlu)

*Kitab dünyadakı maraqlı hadisə və faktlar əsasında yazılaraq və İslam mənəviyyatını özündə əks etdirməklə geniş oxucular üçün **maraqlı vəsaitdir.***

NAXÇIVAN — 2014

MÜNDƏRİCAT

Kitaba ön söz 4

Allah (c.c.) haradadır? 6

Altı gündə yaradılış 8

Müsəlman kimdir? 11

Peyğəmbərlər haqqında nə bilirik? 17

Cinlərin bilinməyən sirləri 23

Müqəddəslik nədir? 25

Salamlaşma necə olur 28

Səni Yaradana ibadət və dua et! 30

İslam əxlaqında səbir etmək 34

Müsəlmanın qurbanla bağışlanması 36

Yuxugörmə və ölümdən sonra yaşamaq 40

Müsəlmanın gündəlik 24 saatı 44

Hz. Peyğəmbərinin (s) elm və təbiətə baxışları 48

İslamda ekologiya və xalq təbabəti 51

Allaha (c.c.) imanlı elm adamları 54

Hindistanda islam dini necə yayıldı? 57

Dinlər və dindarlar haqqında nə bilirik? 60

Xeyirli sözlər 65

Bilib bilmədiklərimiz 80

20-ci əsr Naxçıvan xalqının taleyi 100

Həyatın qəribəlikləri 105

İstifadə olunan qaynaqlar: 109

ÖN SÖZ

“Bilik can quşuna qanaddır, inan,
Ruhunu göylərə odur qaldıran.
Bilikdir ürəyə bu dünyada can,
Baş biliksiz olsa, olar bədgüman.”

(Əhvədi Marağalı)

Feyruz Bağırovun özünə və yaradıcılığına çoxdan bələdəm. Naxçıvanda dindar ziyalılar arasında özünün səmimi insanlığı və elmi yazılarına görə çoxlarına tanışdır bu şəxs. O, uzun illərdir ki, təhsil və mədəniyyət işçisi kimi yaradıcılığını xalqa çatdırmaq əzmlə müxtəlif qəzet və jurnal səhifələrində maraqlı mövzulu yazıların müəllifidir.

Feyruz müəllim bir neçə elmi, tarixi və dini-fəlsəfi kitablar yazmışdır. Bir neçə ixtisaslara malik olan müəllif kitablarında müxtəlif elmləri təbliğ etməklə yanaşı, əsasən o, mənəviyyatı həmişə önə çəkmək istəmişdir. Belə ki, Feyruz müəllimdə Vətən sevgisi, xalqına məhəbbət, tarixi memarlıq və təbii abidələrə maraq olsa belə, Allah *(c.c.)* sevgisi onun qəlbində yer salmışdır.

Müqəddəs Qurani-kərimin *Fatir (35)* surəsi 28-ci ayəsində Allah *(c.c.)* müsəlmanlara buyurur ki; *“... Allahdan Öz qulları arasında ancaq alimlər qorxarlar.”*

Yaşının ahıl vaxtları çatsa belə, Feyruz müəllim həmişə Allah sevgisi ilə yaşayaraq, özünü kimsəsizlərə həyan durmaq istəyindədir. Müəllifin dəyərli və nəsihətli sözlərindən biri də belədir: *“Əbədi aləmdə kimsəsiz qalmamaq üçün bu dünyada kimsəsizlərin kimsəsi olmaq ən gözəl işdir.”*

Qurani-kərimin *Muzzəmmil (73)* surəsi 20-ci ayəsində deyilir; *“(Dünyada) özünüz üçün qabaqcadan nə yaxşı işləri görsəniz, Allah yanında onun daha xeyirlisi və daha böyük mükafatla əvəz olunduğunu görəcəksiniz...”*

Böyük zəhmət və axtarışlardan sonra qələmə aldığı “Müsəlmanın maraq dünyası”, müəllifin sayca onuncu kitabıdır. O, bu kitabında oxucuları mənəviyyat və İslam dininə bağlanmağı arzulayır. Belə ki, kitabdakı *“Allah (c.c.) haradadır ?”, “Müsəlman kimdir ?”, “Müqəddəslik nədir ?”* və başqa bölmələrində insanlara mənəvi dəyərləri sevdirir.

Kitabdakı maraqlı mövzulardan biri də, təbiət və ekologiya mənəviyyatı haqqındadır ki, müəllif burada oxucuları təbiətlə bağlı sevgilərini arzulayır. Həmin mövzu ilə əlaqədar müəllif kitabında maraqlı faktlara əsasən, İslam Peyğəmbərinin *(s)* təbiəti sevməsi və onun gözəlliklərinin qorunmasından söz açır.

Kitabda maraqlı bölmələrdən biri də *"Yuxugörmə və ölümdən sonra yaşamaq"*dır ki, müəllif insanların dünyadakı fizioloji yerdəyişməsini bildirir. Müəllif elmi-fəlsəfi dəlillərə əsaslanaraq, yalnız insanın ölümündən sonra maddənin həqiqiliyini görə bilməsini izah edir. Bölmə kamil insanlar üçün demək olar ki, maraqlı bilgi mənbəyidir. Bundan başqa müəllif, kitabın *"Bilib-bilmədiklərimiz"* bölməsində oxucunu dünyadakı daha maraqlı faktları öyrənməyə çağırır.

Mən bu yeni kitabda hörmətli qələm yoldaşım və din qardaşım Feyruz müəllimin yaradıcılığının bəzi məqamlarını, oxuculara bildirmək istədim. Əsas sözü isə dəyərli oxucuların ixtiyarına verirəm.

İstedadlı dindar-ziyalı *Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən "Əmək Veteranı"* fəxri adını almış Feyruz Abdulla oğlu Bağırova yazdığı *"Müsəlmanın maraq dünyası"* adlı yeni kitabına görə, onu təbrik edib və Allahdan *(c.c.)* uğurlar arzulayıram.

Vəli Qaraxan (Vəliyev), Azərbaycan Respublikası Yazıçılar Birliyinin üzvü, şair.

“Allah ürəklərdə olanı biləndir.”

(Quran, Maidə surəsi ayə 7)

Allah (c.c.) haradadır ?

Allahın *(c.c.)* hər an hər yerdə olduğunu, hər an onları gördüyünü və eşitdiyini, hər şeyə şahid olduğunu və onlara şah damarından daha yaxın olduğunu, hər dua edənin duasını eşitdiyini dərk edər. Allah *(c.c.)* zamandan və məkandan asılı deyil. Allahın *(c.c.)* Zatı başqadır və təcəlliləri ilə də hər yerdədir.

Allah *(c.c.)* hər insana bir yoxdan can vermiş və dünyanı onun üçün ən gözəl və ən uyğun şəkildə yaratmışdır. Allah *(c.c.)*, insan harada olursa olsun onunladır və onu görür, eşidir habelə günahlarını bağışlayır. Çünki Allah *(c.c.)* insanı sevərək yaratmış və bütün məxluqatdan da üstün etmişdir. Hər işdə daima Allaha *(c.c.)* üz tutan, yalnız Rəbbimizi vəkil tutan bir insanın tək dostu və yardımçısı Allahdır *(c.c.)*.

Bir gün Naxçıvan “Zaviyə” məscidindəki mədrəsədə təhsil alan şagirdlərinə Molla Talıb belə dedi; *“Uşaqlar, sabah məscidə gələrkən hərəniz bir kök xoruzun başın kəsib və zənbildə gətirsin. Xoruzu elə yerdə kəsin ki, heç kəs görməsin.”* Uşaqlar bundan sevinərək bir-birinin üzünə baxıb gülümsədilər. Maraqlıdır ki, yalnız az danışan “lal” ləqəbli Əli adlı uşaq heç də sevinməyərək başını aşağı saldı. Uşaqlar evlərinə dağılışarkən bir-birlərinə evlərindəki xoruz-toyuqdan şirin-şirin söhbət edib və həyətlərindəki xoruzlara tərifli sözlər dedilər.

Ertəsi günü səhər həmişə olduğu kimi mədrəsəyə tələsən uşaqlar bu dəfə qoltuqlarında başı kəsilmiş, tükü yolunmuş kök xoruz əti ilə gəldilər. Həmişə olduğu kimi bu gün də dərsə gecikən “lal” Əli mədrəsədəki sinfə girərkən əliboş halda içəri keçdi. Dərs başlandığı üçün uşaqların müəllimi Molla Talıb da bu gün dərsə gecikmişdir.

Uşaqlar gətirdikləri başı kəsilmiş xoruzlarından həvəslə danışa-danışa sinfə daxil olan “lal” Əlini suala tutdular; *“Əli bəs sən niyə xoruz kəsdirib ətini gətirməmişsən?”* Elə bu vaxt sinfə daxil olan Molla Talıb uşaqlarla salamlaşdıqdan sonra keçib yerində əyləşdi. O, sinfə göz gəzdirib başını yerə dikən “lal” Əliyə diqqətlə baxdı və sonra uşaqlara belə dedi; *“Uşaqlar yəqin ki, dünən sizə dediyim işi yerinə yetirmişsiniz. Görürəm hərənizin heybəsində başı kəsilmiş xoruz əti vardır.”* Uşaqlar bir ağızdan uca səslə: *“Bəli, hörmətli müəllim. Biz hər birimiz ən yaxşı və kök bir xoruzumuzun başın kəsdirib, tükün yoldurub və ətini də gətirmişik.”*

Molla Talıb gülərək uşaqları dinlədikcə gözlərini dikmişdi "lal" Əliyə. Sonra o, "lal" Əliyə belə dedi: *"Oğlum Əli, görürəm sən heç dinmirsən, özün də əliboş gəlimisən. Yəqin ki, sizin həyətinizdə toyuq-cücə yoxdur eləmi?"* Əli utana-utana ayağa qalxıb dedi: *"Müəllim niyə ki, Allaha (c.c.) şükürlər olsun. Bizim də toyuq-cücəmiz vardır. Hətta beş-altı iri xoruzumuz belə vardır ki, hər gün namaz vaxtlarında səs-səsə verib ucadan banlayırlar."*

Molla Talıb gülümsəyərək sözünə davam etdi: *"Yaxşı onda ki, deyirsən sizin də xoruzunuz vardırsa, nə üçün mənim sözümü yerə salıb sən də uşaqlar kimi başı kəsilmiş xoruz gətirmədin?"* Əli bir uşaqlara baxdı və bir də müəllimi Molla Talıba. Utana-utana yavaş səslə dedi: *"Müəllim axı siz bir söz dediniz mən həmin sözə görə çox fikirləşdim bir qərara gələ bilmədim. Ona görə də xoruzu tutdum və hara apardımsa qorxaraq onun başını kəsdirə bilmədim."*

Sinifdəki uşaqlar Əlinin bu sözlərindən maraqlanaraq gah müəllimə baxdılar və gah da "lal" Əliyə. Molla Talıb gülümsəyərək uşaqların təəccübünü aradan götürmək üçün bilərəkdən Əlidən soruşdu: *"Oğul Əli, mən sizə demədimmi hərəniz bir xoruzun başın kəsdirin və elə edin ki, sizi görüb bilməsinlər."* Əlinin gözləri güldü və dayana bilməyərək dedi: *"Müəllim elə mən də sizin dediyiniz həmin sözləri ürəyimdə təkrarladım və hara getdim, gizlin yer tapa bilmədim. Axı xoruzun başını harada kəssəydik, orada Allah (c.c.) bizi görərdi."*

Molla Talıb ucadan şaqqanaq çəkərək güldü və sağ əlini yuxarı qaldırıb *"Əhsən sənə Əli! Sən doğrudan da Allahı (c.c.) dərk etmişsən ki, bütün aləmləri Yaradan Allahdan (c.c.) heç yerdə gizlənmək mümkün deyil."* Uşaqlar Molla Talıbın dediyi sözləri indi anlasalar da, yoldaşları Əlinin onlardan üstün olmasını bildilər.

Molla Talıb Uşaqlara belə dedi: *"Uşaqlar, evinizə gedərkən gətirdiyiniz xoruz ətini aparın. Bilmək lazımdır ki, Allah (c.c.) həmişə bizimlədir. Hətta burada bizi görür, danışığımızı eşidir. Allahdan (c.c.) qorxmaq lazımdır. Həmişə Ona dua edib günah işlərimizin bağışlanmasını istəməliyik."*

Molla Talıb Əliyə yaxınlaşaraq onun başını sığalladı və dedi: *"Allah (c.c.) insanı sevərək gözəl biçimdə yaratmış göndərdiyi müqəddəs kitablarında da elmə və elmli olmağa üstünlük vermişdir. Elmli olmaq üçün müqəddəs Qurani-kərimi diqqətlə və düşünərək oxumaq gərəkdir. Bildiklərinizi də bilməyənlərə öyrədib savab qazanmalısınız. Allah (c.c.) həmişə bizimlədir."*

> *"Məşriq də, məğrib də Allahındır! Hansı səmtə yönəlsəniz, Allahın üzü orada olar..."*
>
> (Bəqərə surəsi, 115)

"Kainatda hər şey idealdır."

(Harun Yəhya)

Altı gündə yaradılış

Yaşadığımız kainatın yaşı bir çox tədqiqatın mövzusudur. Bu mövzu ilə bağlı ən dolğun məlumat isə Allahın *(c.c.)* 1400 il əvvəl nazil etdiyi Qurani-kərimdə bildirilmişdir. Müasir dövrümüzdə aparılan tədqiqatların nəticələrinin Quranda Rəbbimizin altı gündə yaradılış haqqında verilmiş məlumatlara uyğunluq təşkil etməsi Quranın möcüzələrindən biridir.

Müasir elmlə Quran arasındakı uyğunluğun başqa bir nümunəsi isə kainatın yaşıdır ki, kosmoloqlar bunu 16-17 milyard il olmasını deyirlər. Qurani-kərimdə isə bütün aləmlərin altı gündə yaranması bildirilir. İlk baxışda fərqli görünən bu zaman müddəti arasında, əslində çox təəccüblü oxşayış vardır. Kainatın yaradılması ilə məlum məsələ olan hər iki anlayış dopdoğrudur. Yəni Qurani-kərimdə bildirilən altı gün məsələsi, bizim zamanla elə 16-17 milyard ilə bərabər gəlir.

1915-ci ildə Eynşteyn zamanın nisbi olduğunu, məkana, səyahət edən şəxsin sürətinə və o andakı yerin cazibə qüvvəsinə görə zamanın axım sürətinin də dəyişdiyini irəli sürmüşdür. Zamanın axım əmsalındakı bu fərqləri nəzərə aldıqda Quranda 7 müxtəlif ayədə bildirilən kainatın yaradılış müddətinin elm adamlarının hesablamaları ilə uyğunluğu görünür.

Allahın *(c.c.)* kitabında bildirilən altı günlük müddəti 6 dövr kimi düşünməliyik. Çünki zamanın nisbiliyini nəzərə alsaq, gün bugünkü şərtlərlə Yer kürəsindəki 24 saatlıq zaman kəsiyini ifadə edir. Ancaq kainatın başqa bir yerində, başqa zamanda və şəraitdə gün daha uzunmüddətli zaman kəsiyidir. Belə ki, bu ayələrdə *(Səcdə surəsi (4), Yunus surəsində (3), Hud surəsi (7), Furqan surəsi (59), Hədid surəsi (4), Qaf surəsi (38), Əraf surəsi (54)* işlədilən altı gün *(sittəti əyy)* ifadəsindəki "əyy" sözü günlər və ya müddət mənasını bildirir.

Kainatın ilk dövrlərində zaman bu günkü alışdığımız axım sürətindən daha sürətlə axmışdır. Bunun da səbəbi belədir ki, *"Big Bəng"* anında *(kainatın ilk yaradılışı)* kainat çox kiçik bir nöqtəyə sıxışdırılmışdır. Bu böyük partlayış anından bəri kainatın genişlənməsi və həmçinin böyüməsi kainatın sərhədlərini milyardlarla il artırdı. Belə ki, *"Big Bəng"*dən *(Böyük partlayışdan)* sonra aləmlərin *(kosmosun)* genişlənməsinin universal saata da mühüm təsiri olmuşdur.

"Big Bəng" anındakı enerji universal zamanın axım sürətini milyon dəfə (10^{12}) qat zəiflətmişdir. Aləmlər *(kainat)* yaradıldıqda universal zamanın axım əmsalı dövrümüzdəki zaman anlayışı ilə müqayisədə milyon dəfə milyon qat böyük idi ki, yəni zaman daha sürətlə keçirdi. Ona görə də, Yerdə milyon dəfə milyon dəqiqə keçdikdə kainatda *(kosmosda)* sadəcə bir dəqiqə müddət olur.

Zamanın nisbiliyi nəzərə alınaraq hesablandıqda altı günlük zaman kəsiyi 6 milyon dəfə milyon (trilyon) gün edir. Çünki universal zaman Yerdəki zamandan milyon dəfə milyon qat sürətlə axır. 6 trilyon gün təxminən 16,427 milyarda uyğun gəlir. Bu rəqəm dövrümüzdə aləmlərin (kainatın) təxmini yaşı sayılır. Bunun isə riyazi hesabı belədir; 6.000.000.000.000 gün/365.25=16.427.104.723 milyard.

Digər tərəfdən, yaradılışın altı gününün hər biri bizim zaman anlayışımızla bir-birlərindən fərqli zamanlara uyğun gəlir. Bunun isə səbəbi, zamanın axım əmsalının kainatın genişlənməsi ilə tərs mütənasib olmaqla azalmış. *"Big Bəng"*dən etibarən kainatın böyüklüyü iki dəfə artdıqca zamanın axma əmsalı yarım dəfə azalmışdır.

Kainat böyüdükcə kainatın böyümə sürəti də getdikcə artan şəkildə yavaşlamışdır. Bu genişlənmə sürəti *"Fiziki kosmologiyanın əsasları"* adlı dərsliklərdə izah edilən, dünyanın hər yerində məlum olan bir həqiqətdir. Yaradılışın hər gününü Yerdəki zamanla hesabladıqda qarşımıza aşağıdakı ədədlər çıxır:

Zamanın başladığı andan etibarən yaradılışın 1-ci günü *(I dövr)* 24 saat davam etmişdir. Ancaq bu müddət Yerdəki zamanla 8 milyard ilə bərabərdir.

Yaradılışın 2-ci günü *(II dövr)* 24 saat davam etmişdir. Bizim zamanla bu, əvvəlki günün, yarısı qədərdir, yəni 4 milyard ildir.

Yaradılışın 3-cü günü *(III dövr)* isə əvvəlki günün, yəni 2-ci günün yarısı qədər- 2 milyard ildir.

Yaradılışın 4-cü günü *(IV dövr)* 1 milyard ildir.

Yaradılışın 5-ci günü *(V dövr)* 500 milyon ildir.

Yaradılışın 6-cı günü *(VI dövr)* 250 milyon il davam etmişdir.

Yaradılışın altıncı dövrü Yerdəki zamana uyğun hesablanıb toplandıqda, 15 milyard 750 milyon il edir. Bu isə XXI əsrdə elmin ortaya qoyduğu faktlardır. Elm 1400 il əvvəl Qurani-kərimdə xəbər verilmiş həqiqəti təsdiq edir. Bu isə Allahın *(c.c.)* sözü olduğuna bir dəlildir. *("Düşünən insan" jurnalı 2012 № 5).*

“Həqiqətən, Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan Allahdır...”

(Əraf surəsi, 54)

"Allah səbirli insanları çox sevir."

(Harun Yəhya)

Müsəlman kimdir ?

"Müsəlman, müsəlmanların əlindən və dilindən inanmış olduğu kimsədir." (Buxari, "İman" (4))

"Möminlər yalnız o kəslərdir ki, Allah adı çəkiləndə ürəkləri qorxudan titrəyər, Allahın ayələri oxunduğu zaman imanları artırar və onlar ancaq öz Rəbbinə təvəkkül edərlər."

(Ənfal surəsi, 2)

İnsanın başına gələnlərdən ötrü səbirli olması çox vacib bir müsəlman xüsusiyyətidir. *Hz. Əyyub (ə)* Peyğəmbər də çox əziyyətli bir xəstəliklə sınanmışdır. Amma Peyğəmbər xəstəliyinin sağalması üçün ancaq Allahdan *(c.c.)* kömək və şəfa istəmişdir. *(H.Yəhya, "Dinimizi öyrənək" İstanbul-2009).* Bu barədə Qurani-kərimin *Sad* surəsində *(41-44)* bildirilir ki; *"... Biz onu səbir edən gördük. Nə gözəl bəndədir! O, daim Allaha sığınan bir kimsə idi."*

Müsəlman sözü ərəbcə "müslim" sözündən götürülərək, yəni özünü Allaha *(c.c.)* təslim edən, tabe edən deməkdir. Müsəlman olan şəxs gərəkdir ki, qəlbən Allaha *(c.c.)* və Onun sonuncu elçisi olmuş *Hz. Məhəmməd (s)* Peyğəmbərə şəhadət gətirsin. Müsəlman olan şəxs Allahı *(c.c.)*, Onun müqəddəs *Kitablarını* və *Peyğəmbərlərini* də tanıyıb şəkk-şübhə etməməlidir. *("İslam" (qısqa məlumat kitabı) Bakı-1989).*

Bəşərin sonuncu Peyğəmbərinin *İslam təlimlərini* yerinə yetirən şəxs şübhəsiz ki, mənsub olduğu dövlətin də qanunlarına əməl etməlidir. İman, etiqad və əməl; bunların üçündən biri qəbul olunmazsa onda namaz da qəbul olunmaz. Möminlər iki qisimdirlər; Müttəqilər- Allahın *(c.c.)* birliyini qəlbən qəbul edib iman və əməlləri düz olanlar. Münafiqlər- Allahın *(c.c.)* birliyini qəbul etsələr də daxilən şəkk edənlər.

Möminlər bu zikrləri hər vaxt və tez-tez desələr daha yaxşı olar: *Bismillah- Allahın adı və izni ilə. Əlhəmdulillah- Həmd-Səna, hamısı Allaha məxsusdur. BərəkAllah- Allah mübarək etsin, bərəkətli olsun. MaşAllah- Allah qorusun, Allah saxlasın. İnşAllah- Allah qismət edərsə. SübhənAllah- Allah ən mükəmməldir, Onda qüsur və eyib yoxdur.*

621-ci ilin Rəcəb ayında *Hz. Məhəmməd (s)* Peyğəmbər Merac vaxtı Allahdan *(c.c.)* müsəlmanların gündə beş vaxt fərz (vacib) namaz qılmaları bildirilmişdir.

> *"... Günəş doğmamışdan və batmamışdan əvvəl Rəbbinə şükür edib şəninə tərifl ər de (namazlarını qıl), gecənin bir vədəsində və günorta radələrində də Rəbbini öyüb təqdis et (namazlarını qıl) ki, razı olasan !"*
>
> (Taha surəsi, 130)

Namazı qılmaq qaydası, rükətlərin sayı, oxunan dualar, namazın ardıcıllığı Mədinədə öyrədilmişdir. Quran müsəlmanları vacib namazlara dəqiq riayət etməyə çağırmış *(Bəqərə 2/238)*, səfər zamanı, piyada və ya minik üstündə *(Bəqərə 2/239)*, hər hansı bir təhlükə zamanı *(Nisa 4/101-102)*, arxayınlıq olanda *(Nisa 4/103)* namazı necə qılmaq barəsində bildirilmişdir. Vacib və hər gün qılınan namazlar aşağıdakı kimidir;

Sübh namazı, (2 rükət): *"... Sübh namazını da qıl !" (İsra 17/78; Hud 11/114; Rum 30/17).*

Zöhr namazı, (4 rükət): *"... Günortadan (gün batmağa meyl edəndən) gücənin qaranlığınadək (günorta, ikindi, axşam və gecə) namaz qıl !" (İsra 17/78; Hud 11/114; Rum 30/18).*

Əsr namazı, (4 rükət): *"Namazlara, (xüsusi ilə) orta namaza riayət edin və Allaha itaət üçün ayağa qalxın." (Bəqərə 2/238; İsra 17/78; Hud 11/114; Rum 30/18).*

Məğrib (Şam) namazı, (3 rükət):*"Elə isə axşam-səhər Allahı təqdis edib şəninə tərifl ər deyin (axşam gecə və sübh namazlarını qılın)." (Rum 30/17; İsra 17/78; Hud 11/114).*

İşa (Gecə) namazı, (4 rükət): *"... Gecənin qaranlığınadək (günorta, ikindi, axşam və gecə) namaz qıl..." (İsra 17/78; Hud 11/114; Rum 30/17).*

Hər namaz öz vaxtında qılınmalıdır: *"... Çünki namaz möminlərə müəyyən vaxtlarda fərz edilmişdir." (Nisa 4/103)* Həmçinin *"əl- Muzzəmmil"* surəsinin 20-ci ayəsinin təfsiri gecənin bir hissəsi (üçdə ikisini, yarısını və ya üçdə birini) qılınan namazı rüsxət verərək, gün ərzində beş vaxt namazın əmr olunduğu bildirir:

"... O sizin bunu (gecə vaxtlarını) ölçüb saya bilməyəcəyinizi (yaxud gecəni oyaq qalıb ibadət edə bilməyəcəyinizi) bildiyi üçün sizi əfv etdi (gecə durub namaz qılmağı vacib etmədi) ..."

(əl- Muzzəmmil surəsi, 20).

Mömin, namaza qarşı səhlənkar olmamalı və namazında riyakarlıqdan uzaq olmalıdır. Namaz ibadətinə başlayan, vacibdir ki, *"Əzan"* və sonra isə *"İqamə"* duasını oxusun. Hər namazı niyyətlə başlayıb və salam duası ilə bitirərlər.

Namazdan əvvəl və sonunda müstəhəb dualar vardır ki, oxunsa daha da gözəl olar və s. Hicrətin birinci *(M. 623-cü)* ilindən Mədinə məscidində ilk dəfə olaraq *Hz. Rəsulullahın (s)* məsləhəti ilə, *Hz. Bilal Həbəşi (r)* tərəfindən-*"Allahu Əkbər, lə İlahə İlləllah"* deməklə əzan verib və müsəlmanları namaza çağırmışdır.

"Vay halına o namaz qılanların ki, onlar öz namazlarından qafildirlər. Onlar (namazlarında) riyakarlıq edər."

(Maun surəsi, 4-6).

Namaz, hər bir həddi-buluğa çatan, ağılı başında olan müsəlmana vacibdir. Uşağa namaz vacib olmasa da, böyüyü ona namaz ibadətini öyrətməlidir. *Əmir ibn Şuayb(r), Hz. Rəsulullahın (s)* uşaqlar haqqında namaz ibadətini belə dediyini rəvayət edirdi ki; *"Övladlarınızın yeddi yaşı olanda, onlara namaz qılmağı öyrədin. On yaşında isə namaz qılmasalar onları kötəkləyin. On yaşından sonra oğlanlarla qız uşaqlarının yataqlarını ayırın" (bax; Əbu Davud, 2/162 № 491; Səhih əl-Cami əs-Səğir, № 5868).*

Hər namazdan əvvəl mömin, təmiz su ilə dəstəmaz və ya su olmazsa təmiz torpaqla təyəmmüm edərək saklaşmalıdır. *(Dəstəmaz və ya təyəmmüm qaydası, cənabət qüslü edən üçün rüsxətlidir).* Dəstəmaz alan şəxs niyyət edib, *"Bismillah"* və *"Dəstəmaz alıram qürbətən iləllah"* deyilərək əvvəl əl-üz yuyular, sonra ağıza və buruna 3 dəfə su çəkilər.

Bundan sonra sol əl ilə sağ qol və sağ əllə də sol qol dirsəyədək yuyular. Sağ əl ili başın ortasından alınadək çəkib "məsh" edilməli və bundan sonrada, sağ əl ilə sol ayağa, sol əl ilə də sağ ayağa "məsh" çəkilir. *(Dəstəmaz vaxtı hər hərəkətdə salavatla zikr olunma müstəhəbdir).* Təmiz pak su olmadıqda təmiz torpaqla təyəmmüm etmək üçün niyyətdən sonra əllərin içərisi qoşalanaraq torpağa vurulur, alına və sonra isə əllərin üstünə "məsh" çəkilir. *(Təyəmmüm vaxtı hər hərəkətdə salavatla zikr olunma müstəhəbdir).*

> *"Namazın açarı bil, dəstəmazdır, nə qədər pak olsan yenə də azdır."*
>
> (Nəriman Dizəli)

İslam dinində vacib (fərz) namazlardan başqa rüsxətli (nafilə) və müstəhəb namazlar da vardır ki, onlar; *Cümə namazı- (2 rükətdir)* Cümə günü camaatla birlikdə qılınar. İslam dinində həftəlik ibadət günü olaraq seçilmiş və bu günün (Cümənin) bir bayram olduğu hədislərdə bildirilmişdir. *(bax; Bəyhaki, III 243).*

Hz. Peyğəmbər (s) Cümə günü haqqında; *"Üzərinə günəşin doğduğu ən xeyirli gün, Cümə günüdür. Çünki, Hz. Adəm (ə) həmin gün torpaqdan yaradılıb, həmin gün Cənnətə ayaq basıb və həmin gündə də Cənnətdən çıxarılmışdır. Qiyam-qiyamət də Cümə günündə başlanacaqdır." (Müslim, "Cümə" 18; Kütübi-Sittə, "Cümə" 4569).* buyurmuşdur.

Cümə gününün ən öndəmi Cümə namazıdır ki, fərz (vacib) qılınmalıdır. Belə ki, *Hz. Peyğəmbər (s)* ilk Cümə namazını, hicrət zamanı *Ranüna* vadisində qılmışdır. Cümə günü namazdan əvvəl "Cümə qüslü" almaq, taraş olunub təmizlik etmək və namaza təzə paltar geyinib ətirlənmək gərəkdir. Cümə namazı fərz olduğundan məscidlərdə cəm halında qılınmalıdır. Cümə və bayram namazları tək başına qılınmaz.

Cümə namazı, ağlı başında olan və həddi-buluğa çatmış sağlam bədənli oğlan və kişi müsəlmanlara fərz ibadətlərindəndir. Qadın, qız və yolçu-müsafirlərə isə fərz buyurulmamışdır. Ancaq, məscidlərdə Cümə namazını qılmaları halında, ayrıca başqa namazlar kimi qılınması mümkündür. Cümə namazındakı edilən dualar şübhəsiz qəbul olunar. *(Tac, I 290; Türkiye Diyanet İşleri Bakanlığı, "Hicri 1431-32 yıl takvimi", Saray Matbaa. Ltd. Şti.).*

> *"Ey iman gətirənlər! Cümə günü namaza çağırıldığınız zaman Allahı zikr etməyə tələsin və alış-verişi buraxın. Bilsəniz, bu sizin üçün nə qədər xeyirlidir!"*
>
> (Cümə surəsi, 9)

Bayram namazı- (2 rükətdir) İsmayıl qurbanı və Fitr (Ramazan) bayramı günündə camaatla birlikdə qılınar və tərkibinin sayına görə gündəlik namazlardan seçilir Birinci rükətdə 7 təkbir *(Allahu Əkbər)* 5 qunut və ikinci rükətdə isə 5 təkbir 4 qunut tutular, 2 ruku və 2 səcdə ilə salamla tamamlanar. Namazdan sonra bayram xütbəsi oxunar. *(Bu namazda hətta, heyz halında olan qadınlar da, iştirak edə bilərlər). Ayət namazı- (2 rükətdir)* Təbii hadisələr zamanı hər kəs və ya cəm halında qılınar. Namazın hər rükətində 5 dəfə qunut tutularaq və rukulardan sonra səcdə olunar.

Cənazə namazı- əslində ölüyə oxunulan duadır ki, ayaq üstə cəm və tək halda meyitin qabağında dayanıb və Allahdan *(c.c.)* bağışlanma duası edilər. Namazın qunut, ruku və səcdəsi yoxdur. *Vəhşət namazı-* 2 rükətli müstəhəb namaz ölünün Ruhuna qəbir əzabına qarşı *(basdırılan günü),* şam namazı ilə gecə *(işa)* namazları arasında qılınar. 1-ci rükətdə *Fatihə* surəsindən sonra 1 dəfə *"Ayətəl-kürsü"* duası və 2-ci rükətdə isə *Fatihə* surəsindən sonra 10 dəfə *Qədr* surəsi oxunub və qunut tutular. Mərhumun Ruhuna Qurandan *Yasin* surəsi oxuyub və Allahdan günahlarının bağışlanmasına dua edilər.

Təvaf namazı- Kəbəyə Həcc və Ümrə ziyarəti vaxtı Beytül-hərami təvaf etdikdən sonra (tək və cəm halda) qılınan 2 rükətli namazdır. *Nafilə namazı-* müstəhəbdir ki, vacib namazlardan sonra 3 dəfə *"əssəlat"* deməklə qılınar.

Hacət namazı- 2 rükətli müstəhəb namazıdır ki, hər çətinlikdən qurtarılmaq üçün qılınar. *"Əssəlat"* ilə başlanan namazın 1-ci və 2-ci rükətlərində *Fatihə* surəsində sonra *Ənam* surəsindəki 161-163- cü ayələr və ya *Əla* surəsindəki 15-19- cu ayələr oxunar.

Təravih namazı- Ramazan ayında xiftən (axşam) namazından sonra qılınan 2 rükətli müstəhəb namazdır.

Sübh namazı vaxtı Əzandan sonra *"Allahu Əkbər!"* deməklə aşağıdakı ardıcıllıqla namaz ibadətinin nümunəsi belədir;

I rükət; 1. Niyyət, 2. Təkbir, 3. Həmd-surə, 4. Rüku, 5. Səcdə (2 dəfə).

II rükət; 6. Həmd-surə, 7. Qunut, 8. Rüku, 9. Səcdə (2 dəfə), 10. Təşəhhüd, 11. Salamlar.

Namaz ibadətinin aşağıdakı kimi digər müstəhəb əməlləri də vardır; *Qunut,* ikinci rükətdə qiraətdən sonra, rükudan qabaq əllər çiyin səviyyəsində üzü yuxarı qoşalanaraq və *(yaxutta 3 dəfə salavat)* dua oxunmalıdır.

Təsbehlə təqib,- ən azı 34 dəfə *"Allahu Əkbər"*, 33 dəfə *"Sübhan Allah"* və 33 dəfə də *"Əl-həmdu Lillah"* deyə-deyə Allah *(c.c.)* zikr olunur.

Namaz ibadətində daim müsafirlik edən xidmətçilər, *Yolçu namazı* deyilən ibadət ayaq üstü və ya oturaq halda ruku və səcdəsiz qılırlar.

Xəstə namazı deyilən ibadət isə uzun zaman yataq xəstələri üçündür ki, uzandıq yerdə ruku və səcdəsiz qılınır.

Vaxtı ötmüş namazlar vaxtında qılınmayan "qəza" ibadətidir ki, *"Bayram", "Cümə"* və *"Cənazə"* namazları "qəza" edilməməlidir. Cəmatlə qılınan namazın savabı, tək başına qılınan namazlardan iyirmi dəfə fəzilətlidir. *(Buxari, "Əzan" 30; Müslim, "Məsacid" 42).*

Qəza namazı bilərəkdən və mütəmadi surətdə qılınarsa qəbul olunmaz. *İmam Sadiq (r)* buyurmuşdur; *"Allahın yanında ən sevimli iş namazdır ki, bu ibadət Peyğəmbərlərin insanlara son tövsiyəsidir."*

> *"(Ya Rəsulum!) Gecənin bir vaxtı durub ancaq sənə xas olan əlavə (təhəccüd) namazı qıl..."*
>
> (İsra surəsi, 79).

Namaz insanı alçaldıcı və qüsurlu əməllərdən saxlayan və ona, hər hansı saleh əməli başa çatdırmaqda kömək edən imanın meyarıdır. Namaz- kifayət qədər səy tələb edən bir hökmdür.

Məsciddə c*amaat namazında İm bilməyərək xəta etməsini bildirmək üçün, lazımdır ki, kişilər "SübhənAllah" desin və qadınlar isə əl çalmalı. Bundan sonra İmam namazı davam etməlidir. (Nəsai, "Səhvlər", 15).*

Müsəlman ailələrində yeni doğulmuş körpələrin sağ və sol qulaqlarına əzan və iqamət duaları oxunmaqla, onlara ad qoyulur. Bu işi adətən körpənin babası və yaxud da ailə başçılarından biri edir. Hz. Məhəmməd (s) Peyğəmbər körpə nəvəsi Həsənin sağ qulağına əzan və sol qulağına da iqamət dualarını oxuyaraq ona ad qoymuşdur. (Əbu Davud, "Ədəb", 116; Tirmizi, "Ədəhi", 17).

> *"Mən, Allaham. Məndən başqa heç bir İlah yoxdur, Mənə ibadət et və Məni anmaq üçün namaz qıl !"*
>
> *(Taha surəsi, 14)*

"Peyğəmbərlərin sayını tam olaraq bilmirik."

(Harun Yəhya)

Peyğəmbərlər haqqında nə bilirik?

Dünya həyatında Allah (c.c.) tərəfindən insanlara 124 min (elçi) Peyğəmbər seçilmişdir. Habelə Peyğəmbərlərə kitablar "Tövrat" Hz. Musaya (ə), "Zəbur" Hz. Davuda (ə), "İncil" Hz. İsaya (ə) və "Quran" isə Hz. Məhəmmədə(s) göndərilmişdir. Qurandan əvvəl göndərilən kitabların sözləri dəyişdirilmişdir. Kitabların ilk nümunələri günümüzə qədər gəlib çatmamışdır. İndiyədək gəlib çatmayan Allah (c.c.) kəlamlarından 100 səhifə, (Adəmə (ə)- 10, Şiysə (Şit) (ə)- 50, İdrisə (ə)- 30 və İbrahimə (ə)- isə 10 səhifə göndərilmişdir. (H.Yəhya, "Dinimizi öyrənək" İstanbul-2009).

Qurani-kərimdə adları çəkilən 28 sayda elçilər aşağıdakılardır; Hz. Adəm (ə), Hz. İdris (ə), Hz. Nuh (ə), Hz. Hud (Lot) (ə), Hz. Saleh (ə), Hz. İbrahim (ə), Hz. Lut (ə), Hz. İsmayıl (ə), Hz. İshaq (ə), Hz. Yaqub (İsrail) (ə), Hz. Yusif (ə), Hz. Əyyub (ə), Hz. Şuayb (ə), Hz. Musa (ə), Hz. Harun (ə), Hz. Davud (ə), Hz. Süleyman (Salomon) (ə), Hz. Yunis (Zün-nun) (ə), Hz. Zülqərneyn (ə), Hz. Loğman (Kpatilin) (ə), Hz. Üzeyir(İyezekil) (ə), Hz. İlyasin (İlyas) (ə), Hz. Əlyasa (ə), Hz. Zülkifl (İezekiyel) (ə), Hz. Zəkəriyyə (ə), Hz. Yəhya (ə), Hz. İsa (Məsih) (ə), və Hz. Məhəmməd(s).

> *"De: "Əgər yer üzündə arxayın gəzib dolaşanlar, mələklər olsaydı, sözsüz ki, onlara da bir mələk peyğəmbər göndərərdik."*
>
> *(İsra surəsi, 95)*

Fiqh təfsirçilərindən bəziləri Hz. Zülqərneyn (ə), Hz. Loğman (ə) və Hz. Üzeyir (ə) Peyğəmbərə Vəli (Övliya) də deyirlər. Dini kitablarda adı çəkilən Hz. Şit (Şiys) (ə), Hz. Yuşa (ə), Hz. Danyal (ə), Hz. Cərcis (ə), Hz. İşaya (ə), Hz. Əsbat (ə), Hz. Həbib(Aqav) (ə), Hz. Hənzələ (ə), Hz. Samuil (Uşmuil) (ə), Hz. Qilqameş (ə), Hz. Sarqan (ə), Hz. Karana (ə), Hz. Kirus (ə), Hz. Persey (ə), Hz. Edip (Oydipus) (ə), Hz. Zərdüşt (Zoroastra) (ə), Hz. Budha (Hautama Budha) (ə), Hz. Ramal (ə), Hz. Ram (ə), Hz. İmran ibn Sahim (ə), Hz. Xızır (ə), Hz. Təmlixa (ə), Hz. İyezekie (ə), Hz. Saulun (Talut) (ə), Hz. Heraklidd (ə), Hz. Sahim (ə), Hz. İmran (ə), Hz. Sinan (ə) və başqa seçilmiş möminlər də olmuşdur.

> *"Biz hər bir Peyğəmbəri yalnız öz millətinin dilində (danışan) göndərdik ki, (Allahın əmrlərini) ona izah edə bilsin..."*
>
> *(İbrahim surəsi, 4)*

Dünya həyatında müqəddəs kitablarda Allahın (c.c.) hökmü ilə bir sıra insanların qeyb aləmində qalaraq və Qiyamətdən əvvəl zühur olmaları bildirilir. Həmin adamlar Hz. İdris (ə), Hz. Xızır (ə), Hz. İlyas (ə), Hz. Üzeyir (ə), Hz. İsa (ə), Hz. Mehdi (ə), Rəqim əhlindən olan Hz. Təmlixa (ə) ilə bərabər və Culus dağındakı mağarada illərlə yatmış (onların sayını yalnız Allah bilir) dostlarıdır. Allah (c.c.) tərəfindən seçilmiş bütün Peyğəmbərlər dünya həyatında heç kəsə boyun əyməyib və Yaradanın Haqq dinini təbliğ edərək, özlərinə məxsus faydalı işlərlə məşğul olmuşlar.

Hz. Adəm (ə)- cütçülük edərək torpağı ağac xışla şumlamış və əkinçilikdə mədəni bitki növlərinin əsasını qoymuşdur.

Hz. Şiys (Şit) (ə)- toxucu (həllac) olmuş və bitki liflərindən, qamışdan və heyvan yunundan ip (sicim), həsir örtük, kətan, pambıq və yun parçaların toxunmasının əsasını qoymuşdur.

Hz. İdris (ə)- ağac və bitki tikanlarından iynə düzəldərək, dəri və parçadan münasib paltarların tikilmə əsasını qoymuşdur.

> *"Kitabda İdrisi də yad et! O, həqiqətən, büsbütün doğru danışan kimsə (siddiq)- bir Peyğəmbər idi. Biz onu yüksək bir məqama (göyün dördüncü qatına) qaldırdıq."*
>
> *(Məryəm surəsi, 56-57)*

Hz. Nuh (ə)- boyaqçısı olmuş və cinlərin köməyi ilə dülgərlik sənətini öyrənərək gəmiqayırmanın əsasını qoymuşdur.

Hz. Hud (Lot) (ə)- ilk tacir tərəzisi ilə "zərin" (zira) və ya "fərsəng" (arşın) ölçü (uzunluğu 71,12 sm) ağacının yaradıcısı olmuşdur.

Hz. Saleh (ə)- dəvəçi kimi maya dəvənin südü ilə hürküyündəki piyi, nər dəvənin isə yunu ilə dərisindən məişətdə istifadə etməyin əsasını qoymuşdur.

Hz. İbrahim (ə)- bənna olmuş və memarlıq sənətinin əsasını qoymuşdur. (Hz. Adəm (ə) Peyğəmbərdən sonra ikinci dəfə uçub-dağılmış Kəbə məscidini (evini) təmir edərək, divarlara pəncərə yerləri qoymuşdur. Həzrət, oğlu Hz. İsmayılın (ə) tapıb gətirdiyi "qara daşı" (Həcər ü-l Əsvət), binanın ön tərəfindəki künc divarına hörmüşdür. Sonra memarlıq sənəti Hz. Sinan (ə) tərəfindən öyrənilərək, Hz. Süleyman (ə) Peyğəmbərin şərəfinə Qüdsdəki möhtəşəm Əqsa məscidini tikmişdir).

Hz. Lut (ə)- Misirdən gətirilmiş papirus vərəqlərdə, aşılanmış heyvan dərisi üzərində və möhtəşəm tikili darvazaları üstündə, dövrünün qəribəliklərini yazaraq və tarixi salnaməçiliyin əsasını qoymuşdur.

Hz. İsmayıl (ə)- ovçuluqla məşğul olaraq, yoxsulların ətlə dəriyə olan tələbatını ödəməklə və ov tələləri də düzəldərdi. Həzrət, Allahın (c.c.) hikməti ilə 70 dildə danışdığından, tərcüməçiliyin əsasını qoymuşdur.

Hz. Yaqub (ə)- çoban olaraq südlük və ətlik heyvandarlıq cinslərinin, habelə uzun yunlu buynuzsuz qoyunların seçmə yolu ilə çoxaldılması əsasını qoymuşdur. (Dünya tarixindəki seçmə yolu ilə çoxalan buynuzsuz qaragöz "balbas" cinsli qoyunlar, sonradan Persiya və Qafqaza da gətirilərək və yunundan toxuculuqda istifadə olunmuşdur).

Hz. Yusif (ə)- dünya həyatında (Misirdə) ilk günəş saatını yaratmış və ildə iki dəfə taxıl əkinçiliyi mədəniyyətini tətbiq etmişdir. Həzrətin məsləhəti ilə taxılın zəmilərdən tədarükü və anbarda uzun müddətli saxlanma texnologiyası əsasları yaradılmışdır.

Hz. İshaq (ə)- Həzrəti İsmayılın (ə) atabir qardaşı olaraq, çobanlılıq etmiş və heyvan xəstəliklərinə qarşı zoobaytar müalicə tədbirləri aparmışdır. O, dünya həyatında ilk dəfə olaraq, heyvandarlıq və zoobaytarlıq elminin əsasını qoymuşdur.

Hz. Əyyub (ə)- dünya həyatında ən səbirli insan kimi əkinçilik sahəsində torpağa peyin səpməklə yüksək məhsuldarlıq əldə etmişdir. Həzrət, anbardakı taxıldan il boyunca ehtiyacı olanlara verərək və sosial yardımın əsasını qoymuşdur. Uzun sürən xəstəlikdən əziyyət çəkən Peyğəmbər, Allaha (c.c.) pənah gətirib və dua etməklə sağalmışdır.

> *"Biz (Əyyubun) duasını qəbul buyurduq, onu düçar olduğu bəladan (xəstəlikdən) qurtardıq..."*
>
> *(Ənbiya surəsi, 84).*

Hz. Şuayb (ə)- dünya həyatında əkinçiliklə məşğul olaraq ailəsini və ehtiyaclı insanları çətinliklərdən qurtarmışdır.

Hz. Musa (ə)- uşaqlıqda Firon sarayında təlim almış və oradakı haqsızlığa dözməyərək uzun illər Həzrəti Şuayb (ə) Peyğəmbərin xidmətində çobanıq etmişdir. (Tuva vadisindəki Tur dağında Allahla (c.c.) yaxından danışan Hz. Musaya (ə), müqəddəs Tövratın daş lövhələri nazil olmuşdur).

Hz. Harun (ə)- Hz. Musa (ə) Peyğəmbərin anabir qardaşı və Firon sarayında natiqlik qabiliyyətinə görə vəzir kimi Haqqın tərəfini saxlayan olmuşdur.

Hz. Davud (ə)- Allahın (c.c.) qüdrəti ilə quşların dilini bilən və gözəl səsi ilə oxuyan Həzrət, dəmirçi sobasında filizi əridərək ondan zireh, silah-sursat və məişət əşyaları düzəltmişdir. (Mələk Talutun (Saulun) (r) sərkərdəsi kimi bütpərəst hökmdar Calutu (Qoliafı) öldürərək ədalətli hökmdar olduqdan sonra Həzrətə, Allah (c.c.) tərəfindən müqəddəs Zəburun hökmləri nazil olmuşdur).

> *"Biz kitabdan (Tövratdan) sonra Zəburda da (cənnətə) torpağa yalnız Mənim saleh bəndələrimin daxil olacağını yazmışdıq."*
>
> *(Ənbiya surəsi, 105).*

Hz. Süleyman (ə)- Həzrəti Davud (ə) Peyğəmbərin oğlu olan Həzrətə, Allahın (c.c.) hikməti ilə məxluqatın dilini bilərək və ədalətli hökmdar kimi cinlərin yardımı ilə möcüzəvi işlər (nəhəng tikililər, elektrik enerjisindən istifadə və s.) bəxş edilmişdir.

Hz. Zülkifl (ə)- çörəkxanasında müxtəlif formalı dadlı çörəklər bişirərək, Allahın (c.c.) ən ülvi neməti olan çörək bişirmə texnologiyasının yaradıcısı olmuşdur.

> *"İsmayılı, İdrisi və Zülkifli də (yad et)! Onların hər biri səbir edən kimsələrdən idi."*
>
> *(Ənbiya surəsi, 85)*

Hz. İlyas (ə)- Allahın (c.c.) qüdrəti ilə tut ağaclarını əkib çoxaltmış və ipək qurdu saxlayaraq kümçülüklə (baramaçılıqla) məşğul olmuşdur. Həzrət bəslədiyi barama qurdlarının zərif lifləri ilə ipəkçilik peşəsinin əsasını qoymuşdur.

Hz. Yunis (ə)- balıqçı olan Həzrət, balıqçılıq sənətini bilməyənlərə öyrətmiş və tutduğu balıqlardan da ehtiyacı olanlara sədəqə kimi pay vermişdir. (Peyğəmbər, Allahın (c.c.) mərhəməti ilə balığın qarnından qurtulandan sonra, yediyi "Nun" qabaq bitkisini (Cucurbita) əkib becərmiş və ehtiyacı olan xəstələrə onunla şəfa yetirmişdir).

"Zün-Nunu (Yunisi) xatırla! ...Biz onun duasını qəbul buyurduq və (balığın qarnından çıxarmaqla) onu qəmdən qurtardıq..."

(Ənbiya surəsi, 87-88).

Hz. Üzeyir (ə)- bağbanlıq peşəsinin banisi kimi ilk calaq vurma yolu ilə məhsuldar meyvə və üzüm növləri yetişdirmişdir. (Ölüb dirilməyə şəkk gətirən Həzrət, oturduğu yerdə ulağı ilə bərabər ölərək və yüz ildən sonra yenidən dirilmişdir. Özündən yaşlı uşaqlarının yanında xəcalət çəkdiyini görən Allah (c.c.), günahlarını bağışlayıb və qiyamətədək qeyb aləminə çəkmişdir).

Hz. Loğman (Kpatilin) (ə)- Allah (c.c.) tərəfindən ilham verilmiş ilk Yəhudi təbibi və əczaçılıq sənətinin yaradıcısı olmuşdur. (Məcazi mənada təbib (loğman) kimi şöhrət tapan Kpatilin, tibb təhsilini qədim Yunan həkimi Hippokrat (Hippokrates) ibn Heraklidən almışdır. O, şagirdi Əflatuna (Piaton) qısqanclıq etdiyinə görə özünü zəhərləmək istəsə də, Allah (c.c.) tövbəsini qəbul edib və günahını bağışlamışdı. Peyğəmbərin ölümündən sonra təbabəti buraxan Əflatun, Sokratdan fəlsəfəni öyrənməklə şöhrət tapmışdır).

Həzrəti Loğman (ə) Peyğəmbərlə bağlı olan Şərq folklorunda maraqlı deyimlər, ata sözləri və hikmətli əhvalatlar toplanmışdır. (Onlardan biri belədir; "Həmişə olduğu kimi Həzrət, bir gün şagirdi Əflatun ilə bərabər Samirə şəhərinə gəlib çatır. Həzrət şəhərə daxil olmamış adəti üzrə şagirdini satılan malların qiymətini öyrənmək məqsədilə şəhərdəki bazara göndərir. Bir azdan şagirdi qayıdaraq Peyğəmbərə deyir ki, "Bazardakı satılan şordan tutmuş lora kimi bütün malların qiyməti yarım dinardır." Həzrət gülümsəyərək başın bulayıb və belə deyir: "Bir şəhərdə ki, lorla şorun qiyməti eynidirsə yəqin ki, bizim təbibliyimizə də ehtiyac olmayacaqdır. Yığışdır şeylərimizi gedək başqa şəhərə..."

Hz. İsa (Məsih) (ə)- dünya həyatında Allahın (c.c.) qüdrəti ilə bakirə qadın Məryəm binti İmran ibn Sahimdən atasız doğulan Peyğəmbərdir. (Xristianlar böyük günah qazanmaqla Hz. İsanı (ə) Allahın (c.c.) oğlu kimi iddia edirlər. Yəhudilərdə günah işlədərək Həzrəti, Məryəmin nişanlısı Yusifin oğlu kimi böhtan danışırlar). O, gəncliyində ovçu olub, tələyə düşən quşları sataraq və həyat dolanışığını təmin etmişdir.

Allahın (c.c.) qüdrəti ilə Həzrətə korun gözlərini açmaq, ölüləri diriltmək, cüzamlı və ruhi xəstələrə şəfa vermək və ehtiyacı olanlara, göy aləmindən (Cənnətdən) halal və dadlı yeməklərlə dolu süfrə endirmək qabiliyyəti verilmişdir. Həzrət yarasa quşunu (Latınca Microchiroptera- şəbpərə və ya gecəquşu), Allahın (c.c.) qüdrəti ilə palçıqdan düzəldərək və onu öz ruhu ilə canlandırmışdır. (Allah (c.c.) tərəfindən Həzrətə müqəddəs İncil təlimləri nazil olduqdan sonra, qiyamətdən əvvələdək qeyb aləminə çəkmişdir).

> *"Məhəbbətdən Muhəmməd oldu hasil, Muhəmmədsiz məhəbbətim nə hasil."*
>
> *(Validə Sultan).*

Hz. Məhəmməd(s)- körpəlikdən yetim qalmış, gəncliyində çobanlıq etdikdən sonra tacirlərə qoşulub uğur qazanmış və ailə qurduqdan sonra sakit həyat tərzi keçirmişdir. Allah (c.c.) tərəfindən mələk Cəbrayılın gətirdiyi müsəlmanların müqəddəs kitabı Qurani-kərimin ayələrini təbliğ edən Həzrət, bütpərəstlərə qarşı ədalətli savaş (cihad) etmişdir. (Peyğəmbərlərin sonuncusu kimi Allahın (c.c.) əhdinə əməl edən Həzrət, mübarək Ruhu ilə bərabər gedib və Allah (c.c.) dərgahında danışdıqdan sonra Yer aləminə qayıtmışdır).

Peyğəmbərlər miras olaraq dayanar və dirhəm yerinə elm verərlər. Kim o elmləri əldə etsə çox böyük bir nəsib əldə etmiş olar. Peyğəmbərlər vəfat edərkən, yaxınlarına mal-dövlət mirasını buraxmamışlar. Onların ən böyük mirasları yalnız Allahın (c.c.) İslam elmi, sözlərin ən doğrusu isə Allahın (c.c.) Quran kəlamlarıdır. (Nasirud-Din əl-Albani, "Xutbətul-Hacə" səh. 27-30).

> *"De: "Şübhəsiz, Rəbbim məni doğru yola, həqiqi dinə, batildən haqqa tapınan və müşriklərdən olmayan İbrahim dininə yönəltdi!"*
>
> *(De: "Mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi Allah üçündür! (Ənam surəsi, 161-162))*

"Münafiqlər cin-şeytan kimi bilgi sahibidirlər."

(Harun Yəhya)

Cinlərin bilinməyən sirləri

Cinlər haqqında əsrlərlə bir çox iddia irəli sürülmüşdür. Ancaq hər sahədə olduğu kimi. Cinlər haqqında da doğru məlumat alacağımız mənbə müqəddəs kitabımız Qurani-kərimdir. Quranda cinlərin yaradılışı, insanlarla münasibətləri, həyat tərzi haqqında bir çox məlumat vardır. Məlumata əsasən cinlərin oddan yaradıldığı Qurandakı Rəhman (15) və Hicr (27) surələrində belə bildirilir; "Cənnı (cini) da tüstüsüz oddan O xəlq etdi."

Quran ayələrinə nəzər saldıqda cinlərin də eynilə insanlar kimi həyatı olduğu məlum olur. Ayələrdən cinlərin də gəlib-getmiş ümmətlərindən bəhs edilir. Onların da nəsilləri, əcdadları var (Əraf surəsi, 38; Kəhf surəsi, 50) və s. Ancaq cinlər insanlardan fərqli məkan ölçüsündə yaşayır, insanları görür, eşidir və s.

Allah (c.c.) cinlərin yaradılış məqsədini "Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!" (Zariyat surəsi, 56). Ayəsi ilə bildirmişdir. Onlar da elçilər və elçilərə nazil edilən kitablar vasitəsilə xəbərdar edilib qorxudulur, dünya həyatındakı əməllər ilə sınanır, ibadət və itaət edir, nəticədə Allahdan (c.c.) qarşılıq alırlar. Allah (c.c.) Quranda belə bildirir; "Ey cin və insan tayfası! Məgər sizə öz içərinizdən ayələrimi söyləyən və bu gününüzün gəlib çatacağı barədə sizə xəbərdarlıq edən peyğəmbərlər gəlmədimi?..." (Ənam surəsi, 130).

Ayədən göründüyü kimi, cinlərlə insanların imtahanları bir-birinə çox bənzəyir. Onların da bəziləri dünya həyatının müvəqqəti bəzəyinə aldanır, xəbərdarlıq edildiyi halda, doğru yoldan uzaqlaşırlar. Ayələrdən cinlərin peyğəmbərlərin təbliğini dinlədikləri, quran oxunarkən eşidib öyrəndiklərini öz tayfalarına danışdıqları məlum olur. Allah (c.c.) Əhqaf surəsində cinlərin Hz. Məhəmmədin (s) təbliğini dinlədiklərini belə bildirir:

> *"Onu da xatırla ki, bir zaman bir dəstə cini Quranı dinləmək üçün sənin yanına göndərmişdik. Onlar onu dinləməyə hazır olduqda: "Qulaq asın!"-dedilər və (Quran oxunub) qurtardıqdan sonra qorxudanlar sifətilə öz qövmlərinin yanına qayıtdılar. Onlar dedilər: "Ey qövmümüz! Biz Musadan sonra nazil edilmiş, özündən əvvəlkiləri təsdiq edən, haqqa və düz yola yönəldən bir Kitab dinlədik!"*
>
> *(Əhqaf surəsi, 29-30)*

Allah (c.c.) bir çox Quran ayəsində cinlərə və insanlara birlikdə müraciət edir, müxtəlif nəsihətlər verir və onları cəhənnəm əzabı ilə qorxudur. "Əraf" surəsinin 38-ci ayəsində deyilir; "sizdən əvvəl gəlib-getmiş cin və insan tayfaları ilə birlikdə Cəhənnəmə girin!"

<u>İman gətirən cinlər.</u> Ayələrdə cinlərdən bir qisminin Allaha (c.c.) iman gətirib doğru yola tabe olduqlarından, bir qisminin də iman gətirməyənlərdən bəhs edilir. Müsəlman cinlər Quran oxunarkən onu dinləyirlər.

Cinlərin bəziləri Allahı (c.c.) təqdis edib şanını ucaldan, Ona heç kimi şərik qoşmayan müsəlman varlıqlardır. Qurana heyran olan cinlər, Allahın (c.c.) əmrlərini yerinə yetirirlər. Cinlər öz aralarında müxtəlif qruplara bölünmüşlər. Belə ki, bəzi qrupdan olanlar səmimi müsəlman, bəziləri isə müşrik olmuşlar. Quranın Cin surəsində (11-13) deyilir ki; "Şübhəsiz ki, aramızda əməlisaleh olanlar da var, olmayanlar da. Biz müxtəlif firqələrə ayrılmışıq. ... Doğrusu, biz hidayət yolunu göstərəni dinlədiyimiz zaman ona iman gətirdik."

Cinlər də eynilə insanlar kimi Allahın (c.c.) kitabından məsuldurlar. Onlar da əməllərinə görə sorğu-sual ediləcəklər. İman gətirənləri Allah (c.c.) gözəl mükafatla müjdələmişdir. Allaha (c.c.) iman gətirməyənlər Quranın Cin surəsində (119) cəzalanacaqları belə bildirilir; "Mən Cəhənnəmi bütün (kafir) cinlər və (münafiq) insanlarla dolduracağam !"

<u>Cinlərin görünüş və hərəkətləri.</u> Cinlər ümumiyyətlə insanları narahat etməzlər. Əl və ayaq ucları iti olan cinlərin geyimləri əsasən qırmızı və ucu şiş papaqları olur. Onlar istənilən vaxt hər hansı bir əşya və heyvan (həşərat) şəklinə çevrilə bilirlər. Cinlər insanları qorxutmasalar da, ancaq onlar insan (gözəl qadın) kimi də ola bilirlər. Cinlər işıq sürəti ilə hərəkət etdiklərindən, onların zamanı bizimkindən fərqli olub və ömürləri 1300-1400 ildir.

<u>Cinlərlə əlaqə saxlamaq.</u> İnsanlar bəzən cinləri ruh zənn edirlər. Cinlər qeybi bilməzlər. Qurani-kərimin bəzi surələrində hürufü-müqətta deyilən sirli ayələr vardır ki, onları oxuduqda cinlərlə əlaqə qurmaq mümkündür. Bu isə cinləri çox təsirləndirən bir üsuldur ki, Allahın (c.c.) izni ilə yalnız Vəlilər onlarla əlaqə saxlaya bilər. Cinlər demək olar ki, hər yerdə və hər evdə yaşayırlar. Amma onların heç kəsə zərəri olmaz. Belə ki, hər işin əvvəlində "Bismillah" deyilərsə daha yaxşı nəticə olar. İnşaAllah! ("Düşünən insan" jurnalı 2012-ci il № 7).

> *"O, yerə yıxıldıqda cinlərə bəlli oldu ki, əgər onlar qeybi bilsəydilər, alçaldıcı əzab içində qalmazdılar."*
>
> *(Səba surəsi, 14)*

> *"İslam ibadət və sevgi dinidir."*
>
> *(Harun Yəhya)*

Müqəddəslik nədir ?

> *"Alim ilə söhbət etmək ləli mərcan incidir, cahil ilə söhbət etmək sanki canın incidər."*
>
> *(Laedri)*

Müqəddəslik elə bir sözdür ki, onu hər görünən yer üçün demək olmaz. Belə ki, bəzən insanlar dini ziyarətgahları, peyğəmbər, imam və övliya (seyid) məzarlarını da müqəddəs kimi bilirlər. Lakin bütün bunlar günah işlər olmaqla bəzən insanlar dindən çıxaraq şeytanın yolu ilə gedirlər. Bilmək lazımdır ki, yalnız və yalnız müqəddəs olan dünyanı (varlığı) yaradan Allah (c.c.), Onun insanlara göndərdiyi dini bilgilər (kitab və yazılı səhifələr) habelə Qüdsdə (Əqsa) və Məkkədəki (Kəbə) məscidləridir.

Ümumiyyətlə İslam dinində sonradan yaradılmış təriqətlər, müsəlmanların birliyini parçalamaq üçün bir vasitədir ki, indinin özündə də ibadət zamanı təriqətlərə görə bir-birlərinə zidd olmuşlar. Belə ki, təriqət sahibləri heç kəs "ayranına turş demək istəmirlər." Şiə təriqətçiləri dünyanın yalnız kiçik bir ərazisində yayılsa da onlar, Allahı (c.c.), Peyğəmbəri və ilk İslamı qəbul edib şəhidlik zirvəsinə çatan möminləri yada salmırlar. Lakin onlar hər bir kəsdən üstün olaraq Kərbibəla şəhidləri ilə məsum İmamları üstün bilirlər.

Quranın əl-Kəhf (18) surəsində bildirilən mağarada qeybə çəkilmiş gəncləri və oradakı müxtəlif daşları bəzən müqəddəs bilirlər. İnsanlar (ziyarətçilər) bilməlidirlər ki, Allah (c.c.) mağarada gizlənən gənclərin sayını Hz. Peyğəmbərə (s) belə bildirməmişdir. Allah (c.c.) onların ölüb dirilməsini Yer zamanı ilə 309 il bildirmişdir. Şiə təriqətçiləri Allahın (c.c.) insanlara göndərdiyi Quranı düşünərək öyrənmək əvəzinə, torpaqdan düzəldilən möhür və təsbehi öpərək müqəddəs sayırlar. (Təsbeh möminlərin sapa düzülmüş hesablama- yaddaş muncuğudur).

Allah (c.c.) insanları düz yola çağırmaq üçün, Hz. Adəm (ə) Peyğəmbərə "Sühuf" (din səhifələri), Hz. İbrahim (ə) Peyğəmbərə (İslam mənəviyyatı üçün) "Furaqn", Hz. Musaya (ə) "Tövrat", Hz. Davuda (ə) "Zəbur", Hz. İsaya (ə) "İncil" və Hz. Məhəmməd(s) Peyğəmbərə isə "Quran" kimi müqəddəs kitablar göndərmişdir.

"Daha öncə insanları hidayət etmək üçün Furqanı da O, nazil etdi. Allahın ayələrini inkar edənlər şiddətli əzaba düçar olacaqlar!"

(Ali-İmran surəsi, 4).

İslam Peyğəmbərinə (s) enmiş Qurani-kərimin son sözləri belədir; "Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və sizin üçün din olaraq İslamı bəyənib seçdim." (Maidə surəsi ayə 3).

Müqəddəs kitabda "Quran" sözü, Allah (c.c.) tərəfindən ayələrdə 68 dəfə bildirilir ki, onlar; "Əraf" 7/204, "Yusif" 12/2, "Nəhl" 16/98, "İsra" 17/9-10-82. Bir çox ayələrdə "Kitab"- "Bəqərə" 2/1, "Furqan"- ""Furqan" 25/1, "Zikr"- "Hicr" 15/9, "Nur"- "Nisa" 4/174, "Ruh"- "Şura" 42/52, "Xuda"- "Bəqərə" 2/2, "Şəfa"- "İsra" 17/82, "Məcid"- "Buruc" 85/21-22, "Məsani"- "Zümər" 39/23, və "Ümmül-Kitab"- "Zuxruf" 43/1-4 və sairədir.

İnsan ömrü dünya həyatında çox qısadır. Bir Quran ayəsində belə deyilir; "Rəbbinin dərgahında bir gün sizin saydıqlarınızın min ili kimidir!" (Həcc surəsi ayə 47).

Allah-təala (c.c.) tərəfindən Həzrəti Məhəmməd(s) Peyğəmbərə 610-cu ildə söylədiyi dünya zamanın kosmik zamana görə nisbiliyini, yalnız 1915-ci ildə alman fiziki Albert Eynşteyn (1879-1955) tərəfindən "kəşf edilmişdir". Allah (c.c.) bizim gördüyümüz kainatı (qalaktikanı) da kosmik zaman nisbiliyi ilə 6 gündə yaratmışdır.

Müasir kosmoloqlar zaman nisbiliyini nəzərə alaraq hesablamışlar ki, 6 günlük zaman kəsiyi, 6 milyon dəfə trilyon günə uyğun gəlir. 6 trilyon günün əvəzi olan illərin sayı təxminən 16,427 milyarddır. Həmin hesablama bu cür aparılmışdır; 6 000 000 000 gün / 365,25 = 16 427 104 723 il. (H.Yəhya "Quran möcüzələri", İstanbul-2009 səh., 92).

"Həqiqətən, Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan, ... Allahdır..."

(Əraf surəsi, 54)

Bütün bu sözlərə görə insan ömrü heç bir günə də çatmayıb və tezliklə həyatdan köçməli olur. Kamil insan bu dünyada 40 yaşacan dünya və ilahi elmlərindən öyrənib Vaqif olmalı və evlənib ailə qurmalıdır. 40-dan 50 yaşacan Allahın (c.c.) qanunlarına itaət etməli, namaz qılıb və oruc tutmalıdır.

50-dən 60 yaşacan bütün bunlara əlavə olaraq; İslam mənəviyyatını kamil öyrənməli və təmkinli olub başqalarına da öyrətməlidir. 60 yaşdan sonra möminlər dünya malına (ləzzətinə) aludə olmayaraq, axirətə ciddi surətdə hazırlaşmalıdır. Mömin bəndə hər an Allahdan mərhəmət istəyərək və özünü tabutda görməlidir. (bax; "Xeyirli sözlər" bölməsinə).

İbn Kəsir demişdir ki; "Bu ayə Quranda oxunan ilk səcdə ayəsidir ki, onu ərəbcə oxuyan və ya dinləyən kimsə ayə başa çatdıqdan sonra səcdə etməlidir..." Həzrəti Məhəmməd(s) Peyğəmbər buyurmuşdur: "Adəm övladı səcdə ayəsini oxuyub səcdəyə qapandıqda, şeytan kənara çəkilib ağlayaraq deyər ki; "Vay mənim halıma! Adəm övladına səcdə etmək əmr olundu, səcdəyə qapanıb Cənnəti qazandı. Mənə isə səcdə etmək əmr olundu, boyun qaçırıb Cəhənnəm odunu qazandım."" (Ə.Musayev, "Qurani-kərim" Bakı-2010).

Müqəddəs Qurani-kərimdə 15 yerdə səcdə ayəsi vardır ki, bunlar aşağıdakılardır: "əl-Əraf" surəsi, ayə 206; "ər-Rəd" surəsi, ayə 15; "ən-Nəhl" surəsi, ayə 50; "əl-İsra" surəsi, ayə 109; "Məryəm" surəsi, ayə 58; "əl-Həcc" surəsi, ayə 18 və 77; "əl-Furqan" surəsi, ayə 60; "ən-Nəml" surəsi, ayə 26; "əs-Səcdə" surəsi, ayə 15; "Sad" surəsi, ayə 24; "Fussilət" surəsi, ayə 38; "ən-Nəcm" surəsi, ayə 62; "əl-İnşiqaq" surəsi, ayə 21; "əl-Ələq" surəsi, ayə 19.

Səcdə etdikdə aşağıdakı duanı oxumaq olar; "Allahım! Sənə səcdə etdim, Sənə iman gətirdim, Sənə təslim oldum! Üzüm onu yaradana, ona surət verənə, onda göz və qulaq açana səcdə etdi. Yaradanların ən gözəli olan Allah nə qədər xeyirxahdır!"

> *"Neçə insanlar gördüm, üzərində geyim yox, neçə geyimlər gördüm, içində insan yox."*
>
> *(Sədi Şirazi)*

> *"Rəbbinin hüzurunda olan (mələklər) Ona ibadət etməkdə təkəbbürlük göstərmir, Onu tərifləyir və yalnız Ona səcdə edirlər."*
>
> *(Əraf surəsi, 206)*

"Möminlər qarşılaşanda bir-birlərinə salam verərlər."

(Harun Yəhya).

Salamlaşma necə olur

Həzrəti Məhəmməd(s) bir gün "Məscid əl-Həram" da Şeytanla rastlaşdı. Peyğəmbər(s) ona yaxınlaşıb buyurdu: "Ey məlun! Niyə narahatsan?" Şeytan dedi: "Sənin və ümmətinin əlindən narahatam." Peyğəmbər(s) buyurdu: "Niyə mənim əlimdən narahatsan?" Şeytan dedi: "İnsanları azdırmaq üçün bütün səy və imkanlarımdan istifadə edirəm. Lakin sən qiyamətdə onlara şəfqətli olacaqsan. Nəticədə bütün səy və zəhmətim hədər gedəcək. Elə buna görə də sənlə düşmənəm." Həzrət(s) buyurdu: "Bəs niyə ümmətimin əlindən narahatsan?" Şeytan dedi: "Sənin ümmətində digər ümmətlərə xas olmayan bir-biri ilə qarşılaşanda salamlaşma var. Salam isə Allahın adlarından biri olduğundan mən həmin sözdən qorxuram..."

Salam nədir? Hz. Peyğəmbər(s) buyurur: "Salam Allah-təalanın adlarından biridir. Elə isə onu uca səslə deyin." Qurani-kərimin bir çox ayələrində (Nuh 71/61) müsəlmanlara salam vermək islami və ilahi bir alqış kimi xatırladılır: "Evlərə daxil olduğunuz zaman özünüzü Allah dərgahından bərəkət və xoşluq diləyən bir salamla salamlayın."

"Salam" sözü müsəlmanların bir-birinə xitab etdikləri islami adət-ənənələrdən biridir. Bir çox hədislərə əsasən salam verməyin müsbət əxlaqi dəyərlərdən qaynaqlandığı məlum olur. İmam Sadiq (ə) buyurur ki; "Birinci olaraq salam verən məqamla Allaha Və Peyğəmbərinə daha yaxındır."

Salamlaşma qaydaları. Sal qaydası haqda Qurani-kərimin Nisa surəsində (86) yazılıb; "Sizə salam veriləndə ona ya olduğu kimi, ya da daha gözəl şəkildə cavab verin." Deməli, əvvəl gözəl salam, sonra isə bərabər salamı verilməlidir. Gözəl və layiqli salam, cavabın tam və mənalı ifadə olunmasıdır. Hz. Peyğəmbər(s) buyurur ki; "Atlı piyadaya, atlı qatıra minənə, kiçik böyüyə, bir nəfər çox olana, ayaq üstə olan isə oturana salam verməlidir."

Sal cavabları. Həzrəti Əli (ə) buyurur: "Sal yetmiş savabı vardır ki, altmış doqquzu salam verənin və bir də salam alanındır." Hz. Peyğəmbər(s) buyurdu: "Sizləri dünya və axirət sakinlərinin ən gözəl əxlaqı ilə agah edimmi?" Sahəbələr dedilər: "Bəli, ey Allahın Rəsulu!" Hz. Peyğəmbər (s) buyurdu: "Bu açıq-aşkar səslə salam verməkdir." Sadiq (ə) buyurur ki; "Günahların bağışlanmasına səbəb olan şeylərdən biri də möminlərə gözəl sözlər deyib və onları salamlamaqdır."

Salamlaşmamaq əxlaqa ziddir. Hz. Peyğəmbər(s) buyurub: "İnsanların ən paxılı və xəsisi salam verməkdən çəkinən şəxsdir." Həzrəti Məhəmməd(s) Peyğəmbər həyatında kiçik yaşlı uşaqlara belə salam verərdi. Hz. Peyğəmbər(s) buyurub: "Ölənə kimi beş xisləti tərk etməyəcəyəm... (Onlardan biri də) uşaqlara salam verməkdir. Qoy məndən sonra bu gözəl davranış hamıda olsun."

Bir nəfər Hz. Peyğəmbərin (s) yanına gəlib dedi: "Əs-səlamu əleykə." Hz. Peyğəmbər (s) buyurdu: "Əleykəs-səlam və rəhmətullah." Bir başqası isə gəlib; "Əs-səlamu əleykə və rəhmətullah"- dedi. Hz. Peyğəmbər(s) buyurdu: "Əleykəs-səlam və rəhmətullahi və bərəkatuh". Digər üçüncü şəxs isə gələrək belə dedi: "Əs-səlamu əleykə və rəhmətullahi və bərəkatuh" Hz. Peyğəmbər (s) ona belə buyurdu: "Və əleykəs-səlam və rəhmətullahi və bərəkətuh."

Həzrəti Peyğəmbər(s) birinci və ikinci kəlamın cavabını artıqlaması ilə, lakin üçüncü sal cavabını bir söz artırmadan qaytarmasının səbəbini soruşduqda buyurdu: "O salam verməkdə mənim üçün bir söz saxlamadı. Ona görə mən də eynilə onun salın cavabını qaytardım." ("Haqqın nuru" qəzeti, 2012 / № 48).

> *"Ey iman gətirənlər, başqalarının evlərinə sahiblərindən icazə almadan və onlara salam vermədən girməyin."*
>
> *(Nuh surəsi, 127)*

> *"Allahı sevən insan, Onun yaratdıqlarını da sevər."*
>
> *(Harun Yəhya)*

Səni Yaradana ibadət və dua et !

Hər şeyin yaradanı olan Allah (c.c.) sonsuz qüdrət sahibidir. Rəbbimiz bizi yaratmış və Quranda Onun istədiyi kimi davranmağımızı, Ona qarşı itaətkar olmağımızı əmr etmişdir. Allahın (c.c.) bizə Quran vasitəsilə bildirdiyi və etməyimizi istədiyi hər şey bizim üçün bir ibadətdir. Namaz qılmaq, oruc tutmaq, Allaha (c.c.) şükür etmək, səbirli olmaq, dua etmək, bir-birimizlə gözəl davranmaq ibadətlərin bir qismidir.

> *"Bədənin bir üzvü ağrısa əgər, əlbət o birlər də ağrı çəkər."*
>
> *(Sədi Şirazi)*

Allah (c.c.) insanlara şükür etmək və bütün nemətlərin əvəzində Ona dua etməyimizi istəyir. Allah (c.c.) Quranda şükür etməkdən başqa müxtəlif ibadətlər etməyimizi də əmr etmişdir. Namaz qılmaq, oruc tutmaq, zəkat vermək, həccə getmək Allahın (c.c.) müəyyən vaxtlarda etməyimizi istədiyi ibadətlərdəndir.

<u>İslam dininin (Şiə məzhəbində) əsasları;</u> <u>Üsulid- din:</u> 1) Tohid (bir olan Allaha (c.c.) inanmaq) 2) Ədl (Yaratdıqlarına ehtiyacı olmayan Allahın (c.c.) adil olduğuna inanmaq) 3) Nübüvvət (İnsanlara doğru yolu göstərmələri üçün əvvəlinci Hz. Adəm (ə) sonuncusu isə Hz. Məhəmməd(s) olmaqla 124 min peyğəmbərə inanmaq) 4) İmamət (Hz. Məhəmməd(s) peyğəmbər Əhli-beytindən olan 12 imam) 5) Məad (Öldükdən sonra qiyamət günündə yenidən dirilmək).

<u>İslam dininin hökmləri;</u> <u>Füruid- din:</u> 1) Namaz (Allaha (c.c.) ibadət etmək) 2) Oruc (Ramazan ayında gündüz yemək-içməkdən çəkinmək) 3) Xüms (ehtiyaclılara maddi kömək göstərmək) 4) Zəkat (imkanlıların dini vergi ödəməsi) 5) Təvəlli (Allah (c.c.) dostlarını sevmək) 6) Təbərri (Allah (c.c.) düşmənlərinə düşmən olmaq) 7) Əmr- bimaruf (yaxşı işlərə dəvət etmək) 8) Nəhy əz münkər (pis işlərdən çəkindirmək) 9) Həcc (imkanı və sağlamlığı olan möminin Kəbəni ziyarət etməsi) 10) Cihad (nəfsə, qeybətə və vətən düşmənlərinə qarşı çıxmaq).

Namaz insana Allahın (c.c.) yaratdığı aciz bir məxluq olduğunu davamlı olaraq xatırlanmasında köməkçi olan, Allahın (c.c.) müəyyən vaxtlarda yerinə yetirilməsini əmr etdiyi bir ibadətdir. Namaz ibadətinin üç xüsusiyyəti var ki; müəyyən olunmuş formada, Allah (c.c.) qarşısında təzim və əxlaqi tərbiyə üçün iztirabdan uzaqlaşmaqdır. Allah (c.c.) Quranda namaza başlamağa (Maidə (5/6) belə əmr edir: "... Namaza başlarkən üzünüzü və dirsəklərə qədər əllərinizi yuyun, başınıza məsh çəkin və topuqlaradək ayaqlarınızı (yuyun)." Çünki, namaz dinin sütunudur.

Oruc da Quranda möminlərə bildirilən bir ibadətdir. Allah (c.c.) Ramazan ayında gündüzlər yeyib və su içməməyimizi əmr etmişdir. Allahın (c.c.) bu əmrini yerinə yetirərkən Rəbbimizə itaət etmək üçün aclığa və susuzluğa səbir edirik. Bununla da nəfsimizi tərbiyələndiririk. ("Ramazan orucunun fəzilətlərindən biri də, insanı Cəhənnəm alovundan sipər kimi qoruyar").

Hz. Məhəmməd (s) Peyğəmbər Ramazan ayından sonra Məhərrəm ayının onuncu- aşura günü oruc tutmağı da bildirmişdir: "Ramazan orucundan sonra ən fəzilətli oruc Allahın ayı olan Məhərrəmdə tutulan aşura orucudur." (Tirmizi, "Savm" 40).

Aşura orucu Məhərrəm ayının 9, 10 və ya 11-ci günlərində tutula bilər. (Həzrəti Peyğəmbər (s) Məkkədə olarkən aşura orucu tutmuşdur). (Tirmizi, "Savm" 49).

Zəkat vermək isə insanın malik olduğu malın bir hissəsini ehtiyac içində olan insanlara verilməsidir. Bütün ibadətlər kimi bu ibadəti də yerinə yetirmək vacib əməllərdəndir. Zəkat verməklə insanlar arasındakı maddi çətinliklər aradan qalxır və kömək göstərməklə insanın ruhu tərbiyələnir. ("Zəkat, mal-dövlətə sahib olan hər şəxsə vacibdir").

> *"Rəbbiniz buyurdu: "Mənə dua edin, Mən də sizin dualarınızı qəbul edim! ..."*
>
> *(Mumin surəsi, 60).*

Məscidə giriş və çıxış ədəbi; Məscidə gələrkən gözəl və təmiz paltar geyinmək, ətirlənmək və əl-ayaq dırnaqlarını kəsib təmizləmək lazımdır. Habelə məsciddəki xalı və kilim üzərinə kirli və islanmış ayaq basıb kirləndirməməli. Bundan başqa cib telefon bağlanmalı və adamları rahatsız edəcək hərəkətlərə yol verilməməlidir. Qurani-kərimin Əraf (7/31) surəsində deyilir; "Ey Adəm oğulları! Hər ibadət vaxtı (namaz qılarkən, məscidə gedərkən və ya təvaf edərkən) gözəl libaslarınızı geyin..."

Həzrəti Məhəmməd (s) Peyğəmbər buyurmuşdur: "Sizlərdən biriniz məscidə girəndə salam verib- Allahım mənə rəhmət qapılarını aç, desin. Məsciddən çıxanda- Allahım sənin lütf və kəramətindən istəyirəm, desin." (Əbu Davud, "Salat" 18; Darimi, "İstizən" 56).

Duanı alçaq səslə, hüznlü və yalvararaq deyilməsi ədəbdən irəli gəlir. Bu barədə Quranikərimin Əraf (7/55) surəsində deyilir: "Rəbbinizə yalvara-yalvara, həm də gizlicə dua edin... Ona həm qorxu, həm də ümidlə dua edin."

İnsan gərək bütün işlərini yalnız və yalnız, Allah (c.c.) rizası üçün etməlidir. Əgər belə etməzsə onda həm bu dünyada və həm də axirətdə əzabını görər. Çünki Allahdan (c.c.) başqa məbud yoxdur və insan da Onun quludur. Həzrəti Məhəmməd(s) Peyğəmbər bu barədə aşağıdakı maraqlı hadisəni söyləmişdir; "Sizdən əvvəlki zamanda üç nəfər səfərə çıxmışdı. Gecə yatmaq vaxtı gəlib çatdıqda bir mağaraya rast gəldilər və gecələmək üçün ora girdilər. Bu zaman dağdan bir qaya qoparaq mağaranın ağzını örtdü. Onlar: "Bizi buradan ancaq saleh əməllərimizlə Allaha edilən dualar xilas edə bilər"- dedilər.

Birincisi duaya başladı: "Allahım, mənim çox qoca valideynlərim var idi. Onlardan qabaq nə ailəmdən, nə xidmətçilərimdən, nə də kölələrimdən heç kimə bir şey yedirməzdim, axşamlar süd içirməzdim. Bir gün odun yığmaq üçün ağaclıq axtarmaq fikrinə düşməyim məni yubatdı və mən heyvanları sağıb qayıdanda onların artıq yuxuya getdiklərini gördüm. Nə onları oyatmağa qıydım, nə də onlardan qabaq ailəmə və kölələrimə süd verməyə ürəyim gəldi. Uşaqlar ayağıma dolaşaraq ağladıqları halda, mən əlimdə qab sübh açılana qədər onların oyanmasını gözlədim. Sonra onlar oyandılar və südlərini içdilər... Allahım! Əgər bu işi Sənin rizana layiq olmaq üçün etmişəmsə, bizim bu qayadan çıxmağımızı asanlaşdır..." Qaya bir qədər aralandı.

İkincisi duaya başladı: "İlahi, bir əmim qızı var idi. Mən onu istəyib çox sevirdim. Hətta ona qarşı olan bu sevgi-məhəbbətim ərin arvadına olan məhəbbətindən də çox idi. Bir gün qızdan vüsal istədim, amma o buna razı olmadı. Bir il bərk quraqlıq oldu, torpaq yararsız hala düşdü və məhsul qıtlığı yarandı. Əmim qızı yanıma gəldi və məndən yüz dinar borc pul istədi. Mən də əvəzində vüsala çatmaq niyyəti ilə qıza borc pul verdim. Əmim qızı əlacsızlıqdan mənimlə razılaşdı. Ona yaxınlıq etmək istəyəndə; "Allahdan qorx! Haqsızlıq edərək bakirəliyimi pozma, bu işini sənə halal etmirəm"- dedi. Mən də qızı çox sevdiyimə görə, ona sahib olmaq fikrindən döndüm və bu işdən çəkindim. Əmim qızına verdiyim borc pulun qaytarılmasından vaz keçdim. Allahım, əgər mən bu işi Sənin rizana layiq olmaq üçün etmişəmsə, bizi düşdüyümüz, bu çətinlikdən qurtar." Qaya bir qədər də aralandı.

<u>Üçüncüsü duaya başladı:</u> "Allahım! Mən bir neçə adamı işə götürmüşdüm. Hamısının da haqqını ödəmişdim, yalnız onlardan biri haqqını almadan getmişdi. Onun pulunu işlədərək malım daha da çoxaldı. Bir müddətdən sonra yanıma gəlib; "Ey Allahın qulu! Mənə çatan haqqımı ver"- dedi. Mən də;- "Gördüyün bu mal-heyvan sənin pulunla almışam"- dedim. O adam təəccüblənərək; "Məni ələ salma"- dedi. Mən də; "Səni ələ salmıram, doğru sözümdür"- dedim. Bundan sonra həmin adam sevincək halda mal-qaranı sürüb apardı. Allahım, əgər mən bu işi Sənin rizana layiq olmaq üçün etmişəmsə, bizi buradan qurtar!" Qaya tamamilə aralandı və mağaradakılar azadlığa çıxdılar." (Buxari, 4/369, 370; Müslim, 2743, "Oxu" qəzeti, 2011 / № 35).

> *"Kiçik günahlardan böyük günahlar yaranır."*
>
> *(Feyruz Abdulla oğlu)*

> *"... Qurandan sizə müyəssər olanı oxuyun, namaz qılın, zəkat verin və Allah yolunda gözəl (könül xoşluğu ilə) bir borc verin..."*
>
> *(Müzzəmmil surəsi, 20)*

> *"İnsanın qiyməti onun etdiyi yaxşılıqlarla ölçülər."*
>
> *(Hz. Əli (ə)*

İslam əxlaqında səbir etmək

Hər bir insan gündəlik həyatında cəmiyyətin özü kimi bir çox üzvləri ilə qarşı-qarşıya gəlir və onlarla ünsiyyətdə olur. Cəmiyyət üzvlərinin hər birinin özlərinə xas rəftar, davranış və təfəkkür tərzi vardır. Bəzən elə şəxslərlə rastlaşırıq ki, onlar bir sıra əxlaqi xüsusiyyətlərə malik olmadıqları üçün adi davranış qaydalarında kobudluğa yol verirlər. Bu da tərəflər arasında inciklik və narahatçılığa səbəb olur.

Qəribəsi ondadır ki, həmin vəziyyətdə insanın ağlına hər şeydən əvvəl bir çıxış yolu gəlir. Belə olanda fikrindən keçirirsən ki, ya onlarla tamamilə uzaqlaşmaq və ya yalnız gözəl əxlaqlı şəxslərlə ünsiyyətdə olmaq. Bəzən belə təsəvvür yaranır ki, insan yalnız bu yolla öz rifahını təmin edə bilər. Qeyd etmək lazımdır ki, insan bu işi həyata keçirmək mümkünsüzdür. Çünki, hər bir cəhətdən gözəl xüsusiyyətlərə və əxlaqi səciyyələrə malik olan belə bir ideal adamı tapması qeyri-mümkündür.

Tarixə nəzər salındıqda dəfələrlə belə işlərin şahidi oluruq ki, cəmiyyətdə narazılıq və qarşıdurmalar yaranarkən müxtəlif cəza tədbirlərinə əl atılmış, bir çox hallarda isə yüzlərlə günahsız insanın qanı tökülmüş və bu iş hətta amansız müharibələrə çevrilmişdir. Yaranmış kin-küdurət müvəqqəti surətdə yatırılsa belə, lakin ilk fürsətdə yenidən alovlanaraq daha da genişlənmişdir.

Bütün bu qarşıdurmaların köklərini və yaranma səbəblərini araşdırdıqda görürük ki, onların bir çoxu olduqca əhəmiyyətsiz səbəblər üzündən meydana gəlmiş, insanların inadkarlıqları üzündən get-gedə böyümüş və bir çox hallarda isə lazımsız münaqişələrə səbəb olmuşdur.

Həzrəti Məhəmməd(s) Peyğəmbər zamanında söylənilmiş rəvayətlərin birində belə deyilir ki, köçəri ərəblərdən biri Mədinəyə gəlib Hz. Peyğəmbərdən(s) ona nəsihət etməsini xahiş edir. Hz. Peyğəmbər (s) ona yalnız bu sözləri deyə bilir: "Qəzəblənmə!"

Həmin şəxs ona edilən bu kiçik tövsiyə ilə qənaətlənib öz qəbiləsinin yanına qayıdır. O, öz el-obasına yetişdikdə görür ki, onun qəbiləsindən olan bir şəxs digər qəbilənin malını qarət etmiş, bunun üçün də iki qəbilə arasında qarşıdurma yaranmış və hər iki tərəfdən xəsarət alanlar olmuşdur.

Bütün bu xoşagəlməz vəziyyəti görən həmin ərəb dərhal qılıncını qınından çıxararaq və intiqam almaq istəyir. Lakin birdən İslam Peyğəmbərinin(s) "qəzəblənmə" dediyi söz yadına düşür. O, əl saxlayaraq bir qədər fikrə gedir və öz-özünə düşünür ki, nə üçün haqsız qan töküb və ölümlə üz-üzə gəlməlidir?

Həmin ərəb qəbiləsini toplayaraq belə deyir; "Gəlin daha qan tökməyək, nə qədər xəsarət almışsınızsa əvəzində mənim var-dövlətimdən götürün." Hər iki qəbilədən olanlar onun bu sözlərini eşidib və əvvəlki düşmənçiliyə son qoyaraq belə deyirlər: "Comərdlikdə biz də səndən geri qalan deyilik. Elə isə biz də öz haqqımızdan keçirik." Beləliklə, İslam Peyğəmbərinin(s) dediyi hikmətli sözə görə qəbilələr arasındakı ədavət alovu asanlıqla söndürülür.

Bu kimi hallarda İslam dini mümkün qədər çox güzəştə getməyi, səbr və təmkinli olmağı bildirir. İslam, yaranmış ixtilaf və qarşıdurmaların aradan götürülməsini güzəşt etməkdə, səbirli və təmkinli olmaqda görür. Belə gözəl keyfiyyətlər isə Allahın (c.c.) insanlara göndərdiyi müqəddəs Quran kitabında müsəlmanlara xas olan xüsusiyyət kimi bildirilir; "O müttəqilər ki, bolluq zamanı da, qıtlıq zamanı da (mallarından Allah yolunda) xərcləyir, qəzəblərini boğur və insanları bağışlayır. Allah yaxşı iş görənləri sevir. (Ali-İmran surəsi ayə 134).

Rəvayət edirlər ki, bir gün bir şəxs Hz. Əlinin (ə) yanında həzrətin xidmətçisi olan Qənbəri söyərək təhqir edir. Qənbər həmin adama qarşı durmaq istədikdə, Hz. Əli (ə) xidmətçisinə belə deyir: "Əl saxla, onunla işin olmasın. Əgər belə etsən, Allahı özündən razı salmış, şeytanı qəzəbləndirmiş və düşməni isə cəzalandırmış olarsan."

Allah (c.c.) Qurani-kərimin bir çox surələrində müsəlmanlara düşmənçiliyin səmimi dostluğa çevrilməsini, pisliklərin qarşısında səbirli və təmkinli olmağı və pisliyə yaxşılıqla cavab verilməsini bildirmişdir. ("Haqqın nuru" qəzeti, 2013 / № 2).

> *"Yaxşılıqla pislik eyni ola bilməz. Sən (pisliyi) yaxşılıqla dəf et! O zaman sənlə ədavət aparan kimsə sanki yaxın bir dost olar..."*
>
> (Fussilət surəsi, 34)

"Kəsdiyiniz qurbanlar Sirat körpüsündə miniyiniz olacaq."

(Hz. Məhəmməd (s) Peyğəmbər)

Müsəlmanın qurbanla bağışlanması

Böyük İslam alimi İbrahim Cədinin(r) yazdığına görə;- "Qurban Allah dərgahına yaxınlaşmaq üçün bir vəsilədir." Qurban etmək-qurban olmağı istəməkdir. Hər kəs həyatını uğrunda fəda etməyə hazır olduğu varlığın, ünvanın qurbanıdır. Qurban-sevgidir, sevdadır, bağlılıqdır. Qurban-sədaqətdir, könül verib bağlandığın dərgah qapısından ayrılmadan son nəfəsini kəliməyi-şəhadətlə verib can əmanətini Allaha (c.c.) təslim etməkdir. Qurban, Allahı (c.c.) tanıyıb və Ona yaxınlaşmadır. Hər şeyin Allahın (c.c.) mülkü olduğunu idrak etmək və Onun əmanət olaraq verdiyinin bir hissəni Onun rizasını qazanmaq üçün verə bilməkdir. Qurban-əlindəki əmanəti bərəkətləndirməkdir. Allah (c.c.) üçün fəda etmək üzüm tənəyini budamaq kimidir ki, zahirən az görünsə də səmərəsi çoxdur. Düşünən insan görünüşə (zahirə) yox, nəticəyə (batinə) talib olar.

Müsəlmanın iki böyük dini bayramı var ki, biri Ramazan digəri də Qurban bayramıdır. Ramazan bayramı bir aylıq oruc ibadətinin ardınca Allahın (c.c.) bəndələrinə bir lütfdür ki, insan ömrü Ramazan orucu kimi günahlardan uzaq olarsa onda sevimli bəndənin ölümü "bayram" olar. Qurban dedikdə ağlımıza qurban kəsilən heyvanlardan başqa bir şey gəlmir. Əslində isə bu heyvanlar vəsilə kimi, insanın Allaha (c.c.) yaxınlaşmasına bir vasitədir. Həqiqi qurban isə kəsilən heyvan deyil, bu heyvanı kəsən və Allaha (c.c.) yaxınlaşmaqdır. Onun rizasına qovuşmaq niyyəti ilə düşünən insandır. Müsəlmanı Allah (c.c.) qurbanla bağışlayar...

"Qurban" sözünün anla gəldikdə, Ərəb dilində sözün babına (qəlibinə) görə "fulan" babındandır. Quran, Sultan, Furqan kimi sözlər də bu qəlibdəndir. Məsələn, Quran "oxu" deməkdir. Amma necə oxu?- Düşünərək oxu, ruhunla oxu və s. "Sultan" sözü də səltənətə hakim olmaq, idarə etmək, rəhbər olmaq deməkdir. Amma necə rəhbər olmaq?- hər şeyə, könlünə, ruhuna və s. hökm etməkdir. "Furqan" sözü də belədir. Bu Qurani-kərimin mübarək adlarından biridir. Mənaca fərq qoyan, Haqqı batildən ayıran deməkdir. "Qurban" sözü də, insanın Allaha (c.c.) mənən yaxınlaşması deməkdir.

Qurban mövzusu, daha doğrusu, Yaradana şükür etməklə Onun verdiyinin bir hissəsini Allah (c.c.) adından başqalarına verib və insanları sevindirməkdir. Quranda qurbanla bağlı Həzrəti Adəm (ə) peyğəmbərin oğulları Qabil və Habil qissəsində verilmişdir. Allah (c.c.) onlara qurban verməyi əmr edir. Qardaşların hər biri öz əlinin zəhməti ilə bəslədiyi məhsullardan qurban verirlər. Qabil bağban və əkinçi kimi yetişdirdiyi məhsulun ən xarabını, Habil isə heyvandar kimi bəslədiyi qoyunlarından ən gözəl bir qoçunu Allah (c.c.) adına qurban verirlər. Allah-təala Habilin qurbanlıq qoçunu qəbul edərək və qardaşı Qabilin qurbanlığını rədd edir. Belə ki, Allah (c.c.) səmimi, ixlaslı və Allah (c.c.) rizasına olanı qəbul edir...

> *"(Ya Rəsulum!) Onlara Adəmin iki oğlunun əhvalatını olduğu kimi söylə. Onlar qurban gətirdikləri zaman birinin qurbanı qəbul edilmiş, digərininki isə qəbul olunmamışdı. (Qurbanı qəbul olunmayan Qabil qardaşı Habilə) demişdi: "Səni mütləq öldürəcəyəm!" (Habil ona) belə cavab vermişdi: "Allah yalnız müttəqilərdən (qurbanı) qəbul edər!"*
>
> *(Maidə surəsi, 27).*

Qurbanlıq heyvan bütöv və tam olmalıdır. Əgər qəssab (heyvanı kəsib-doğrayan) heyvanınızı kəsərsə siz bu zəhmət qarşılığında dərini, baş-ayaqlarını ona versəniz, qurbanlıq işi pozula bilər. Belə ki, qurban əti ticarətdən uzaq olmalıdır. Türbə və ziyarətgahlarda qurban kəsmək olarmı? Hər hansı bir ziyarətgahdakı dəfn olunmuş şəxsin adına qurban kəsmək günahdır. Həmin heyvanın ətini yeməklə harama girmək kimi bir şeydir. Yalnız və yalnız qurbanlıq niyyətlə Allah (c.c.) adına kəsilməlidir. İnsanın ən böyük günahı Allahdan (c.c.) üz döndərməsidir.

> *"Əgər siz Allahın ayələrinə inanan kimsələrsinizsə, üstündə Onun adı çəkilmiş heyvanları yeyin!"*
>
> *(Ənam surəsi, 118)*

Qurban əvəzinə sədəqə vermək olarmı? Hər ibadətin öz yeri vardır. Qurban bayramı günündə qurban kəsdirib ətini ehtiyaclılara paylamaq əvəzində onun pulunu sədəqə kimi vermək olmaz. Qurban bayramı günündə imkan ola-ola qurban kəsdirməyənlər, sonrakı günlərdə qəzaya qalmış sədəqəsini verməlidirlər. Əgər vəfat etmiş şəxs öz adına qurban kəsilməsini vəsiyyət etmişsə, bu iş hökmən Qurban bayramı günündə edilməli və ətin hamısı sədəqə kimi paylanmalıdır. Könlün Allaha (c.c.) təslim deyilsə, verdiyin qurbanın da faydası olmaz. Allah (c.c.) qurban kəsənin niyyətinə baxıb və onun təqvasını qiymətləndirər. İnşəAllah !

Qurbanlıq heyvanı üzü Qiblə istiqamətinə yıxır və "Bismillah, Allahu Əkbər" deyib kəsirlər. Qurbanlıq heyvan lazımdır ki iti bıçaqla kəsilsin. Qurban ətini üç yerə bölmək, bir payı qohum-qonşuya paylamaq, birini evdə bişirib, dost və qohumlarla və qalan üçüncü payı isə saxlayıb ailə üzvləri (ev əhli) ilə yeyilə bilər. Bilmək lazımdır ki, Qurban-şeytanı ağlatmaq, xəsislik və israf isə şeytanı güldürməkdir. Bayramlarda qəbiristana gedib ziyarət etmək və dünyadan köçmüş əzizlərin ruhuna Allah kəlamları oxunmalıdır. Hz. Peyğəmbər(s) buyurur ki, "məzar ziyarəti insana ölümü xatırladır."

Hər bir imkanlı və təqvalı müsəlmanın borcudur ki, ömründə bir dəfə Həcc ziyarətində olsun. Əgər onun üzrlü səbəbi olarsa, bir başqa mömin şəxsi öz yerinə həcc ziyarətinə göndərə bilər. Bu zaman gedən olur Bədəl (əvəz), göndərən isə Hacı. Allah (c.c.) hüzuruna çıxmaq istəyən insanlardan halallıq alalı, ən vacibi isə Allahın hüzuruna çıxacağını düşünərək günahlardan uzaqlaşmalıdır. Qurban kəsmək (kəsdirmək) Həcc ziyarətinin vacib əməllərindən biridir.

Qurbanlıq heyvanlar və xüsusiyyətləri.

Qurbanlıq heyvanın cinsi; Xırdabuynuzlu və iribuynuzlu heyvanlardan camış, dəvə, inək, öküz, qoyun (qoç) və keçi (təkə). Allahın (c.c.) onlara ruzi verdiyi ənam cinsindən heyvanları kəsərkən Allahın (c.c.) adını çəksinlər. (Ənam; dəvə camış, inək, qoyun və keçi deməkdir). Heç bir dəniz heyvanını qurban kəsmək olmaz. Toyuq, xoruz, ördək və qaz kimi ev və dəvəquşu kimi çöl quşlarını da qurban kəsmək olmaz. Bütün bunların qurban adı ilə kəsilmə niyyəti haramdır. Bundan başqa əti yeyilən çöl heyvanlarını da qurban adı ilə kəsilməsi haramdır. Qurban kəsilən heyvanın ərəbcə bəhmətul-ənam adlanan növdən olması lazımdır. Bunlar isə tək dırnaqlı olmayan, ot yeyən və gövşəyən heyvanlar olmalıdır.

Qurbanlıq heyvanın yaşı; Qoyun və keçinin bir yaşı, dəvənin beş və inəyin isə iki yaşı olmalıdır.

Qurbanlıq heyvanın şərikli kəsilməsi; Qoyun və keçi yalnız bir nəfərin adına qurban kəsilir. Dəvə, inək və camış bir nəfərdən yeddi nəfər arasında şərikli kəsmək olar. Şərikli qurbanı Allah (c.c.) rizası üçün ibadət niyyət ilə kəsdikdən sonra, öz paylarını tərəzi ilə ayırmalıdırlar.

Qurbanlıq heyvanın xüsusiyyətləri; 1) Qurbanın kəsim vaxtı üç gündür ki, birinci gün sübh tezdən və ikinci-üçüncü gün isə günəş batanacan. Qurbanı gecə kəsmək olmaz, məkruhdur. 2) Kəsiləcək heyvanın sağlam olması. Kök və buynuzlu, ağ rəngli (balbas cinsindən) olan qoç qurban kəsmək daha fəzilətlidir. Əbu Səid(r) rəvayət edir ki; "Rəsulullah (s) buynuzlu qoç qurban kəsdi. Qoçun gözləri, ağzının kənarları və ayaqları qara idi."

Qurban kəsilməsinə mane olan qüsurlar; Heyvanın gözünün kor olması, topal olması, qulağı dibindən kəsik olması, dişlərinin tökülməsi, buynuzu dibindən qırılması, quyruğunun kəsik olması, xayaların axtalanması, sümüklərinin zəifliyi, anadangəlmə quyruq və qulağı olmamağı, zəhmli və dəlisov olması, murdar bir şey yeməsi.

Qurban kəsiminin on üç şərti.

1) Qurban kəsiləcək yer diqqətlə seçilməli və təmiz olmalı. 2) Heyvanı kəsim yerinə əziyyət verilmədən aparılmalı. 3) Kəsim zamanı üzü qibləyə və sol yanı üzərinə yatırılmalı. 4) Heyvanı "Bismillah" deyib və kəsməkdən əvvəl qurban duası oxunmalı. 5) Duadan sonra "Allahu Əkbər" və "Lə İlahə illəllah" deməli. 6) İti bıçağı heyvana göstərmədən və əziyyətsiz boğazı kəsilməli. 7) Qurbanı başqasına (qəssaba) kəsdirən şəxs də "Bismillah" və "Allahu Əkbər" deməlidir. 8) Kəsilən heyvanı tam hərəkətsiz halınadək gözlənilməli. 9) Qurban bayrda heyvanın ciyərindən yeyilməsi gərəkdir. 10) İnək, camış, keçi və qoyun yerə uzadılaraq boğazından kəsilir. Dəvə isə ayaq üstə sol qabaq ayağı bağlanıb və sinə ilə boyun arasından kəsilməli. 11) Kəsilmiş boğazın şah damarları ilə qida borusu ehtiyatla kəsilməli. 12) Kəsilmiş heyvanın qanının tam axması üçün gözlənilməli. 13) Heyvan kəsildikdən sonra dərisi soyulub əti doğranmalı. Lazımsız parçalar torpağa basdırılaraq ərazi yuyulub təmizlənməli. Bütün bunlar isə qurbanlıq heyvana və qurban ibadətinə ehtiram əlamətidir. ("Allah yolunda fədakarlığın simvolu- Qurban" Bakı-2012; "Zaman" qəzeti, 2012 / № 10).

"Biz ona belə dedik: "Ya İbrahim! Artıq sən röyanın düzgünlüyünü təsdiq etdin!" Biz yaxşı iş görənləri belə mükafatlandırarıq. Biz ona böyük bir qurbanlıq (Habilin qurbanlıq qoçunu) əvəz etdik."

(Saffat surəsi, 104-107)

"Bu dünyada ölmək, yuxudan ayılmaq deməkdir."

(Hz. Məhəmməd (s) Peyğəmbər)

Yuxugörmə və ölümdən sonra yaşamaq

İnsan yuxuda gördüklərinin 90%-ni unudur. Yuxudan ayılandan sonrakı 5 dəqiqədə insan yuxularının 50, 10 dəqiqə sonra isə 90%-ni tamamilə unudur. Kor adam da yuxu görür. Sonradan olan korlar yuxularında dəqiq görüntülər görürlər. Anadangəlmə korlar isə yalnız lamisə hisslərinə istinadən əldə etdikləri informasiyalar əsasında yuxu görürlər.

Hamı yuxu görür. Ciddi psixoloji narahatlığı və çətinliyi olanlar istisna olmaqla, hamı yuxu görür. "Mən yuxu görmürəm"- deyənlər isə sadəcə, yuxularını çox tez unudanlardır. Yalnız tanıdığımız adamları yuxuda görə bilirik. İnsan beyni yeni üzləri (tanımadığı adamları) yaratmır. Bu səbəbdən insan yuxusunda tanıdığı adamları görsə də sonradan onları xatırlaya bilmir. Hər adam yuxusunu rəngli və üçölçülü görə bilmir. İnsanların 12%-i sadəcə ağ-qara və iki ölçülü yuxular görür.

Yuxular simvolik məna daşıyır. Əgər yuxu konkret bir mövzu, hadisə və ya məsələ ilə bağlıdırsa, o, mütləq yozulmalıdır. Yuxular hisslərin toplusudur. Yuxularda neqativ hisslər pozitiv duyğulardan daha çoxdur. Yuxular bəzən təkrarlanır. Yuxuların çoxu sadəcə, bir dəfə görülsə də, təkrarlanan yuxular az deyil. Qadınların 70, kişilərin isə 65%-i təkrar yuxular görürlər. (Ev heyvanları da yuxu görür).

Yuxu insan bədənini iflic edir. İnsan yuxuda olanda beyindəki xüsusi sahə bədəni yarımiflic vəziyyətinə salır. Lazımdır ki, yuxulu insanı vurmaq, uca səslə çağırmaq və qorxutmaq olmaz. Həmin anda insan psixoloji narahatçılıq səbəbindən, lal-kar və ya ruhi xəstə olsun. İnsan yuxuda olanda ətrafdakı səsləri eşidərək və onları yuxusunun bir parçası hesab edir.

Kişi və qadın yuxuları fərqli olur. Belə ki, kişilər qadınlarla bağlı (seksual) yuxular görməyə meyillidir. Kişilərin yuxularındakı görüntülərin 70%-i qadınlardır. Qadınların yuxularında isə görüntülərin yarısı kişi, yarısı da qadınlardır. Kişilər yuxularında daha aqressiv duyğuları yaşayırlar. Yuxular gələcəkdən xəbər verir. Mömin insanların əksəriyyəti gələcəkdən xəbər verən yuxular görürlər. Bütün bunlar isə dünya həyatının faniliyi ilə və insanın ölümə qədərli yuxuda olmasıdır. ("Düşünən insan" jurnalı 2012 / № 7).

"Malım mülküm sərvətim, hamısı evdə qaldı, ev əhlim əqrəbam, getdiyim yolda qaldı. Allah üçün etdiyim əməllər məndə qaldı."

(Hacı Bəktaşi)

Doğulub yaşadığımız bu dünya, insan taleyinin yazılı bir kitabəsi olmaqla maddənin əslini görmək mümkünsüzdür. Ona görə ki, taleyimizə düşən yaxşı-pis nə varsa onu həyatımızda mütləq şəkildə görməyə qadir deyilik. Çünki insan bu dünyada sanki yatmış və görüb-bildikləri isə yuxudan başqa bir şey deyil. İnsan taleyin hökmü ilə bu fani dünyadan köçəndən- yəni öləndən sonra maddənin əsl gerçəyini görüb və duyacaqdır. Bütün bunlar isə düşünən insan üçün bir gözə görünməz fəlsəfi idrakdır.

İnsan bu dünyada olarkən həyatın qanuna uyğunluqlarından biri olan yataraq yuxuya gedir və hətta dərin yuxulayır. Yatıb yuxuda qəribə görüntülər içərisində ağla gəlməz işlərlə məşğul olur, bir çox diri və ölmüş insanlarla ünsiyyətdə olur və sairə. Həmin hadisələr əsasında bu dünyadan köçməklə sanki başqa bir dünyada yaşayır.

Hadisələr yuxu içərisində yuxulardır ki, ölümdən sonra qeyri adi aləmə düşməklə sanki insan yeni bir aləmdə yaşayır. Bəzən insan həmin yuxuları yaddaşında saxlamaqla yuxudan durandan sonra gördükləri hadisələr və ünsiyyətdə olduğu insanlar barəsində xeyir və ya zərər çəkməli olur.

Yuxu görmələr iki şeydən yarana bilir ki, hadisə və insanlar haqqında əvvəlcədən düşünmək və hər hansı bir psixoloji qorxu repressiyası (nəql etmə, filmə baxma və s.) nəticəsində olur. Yuxu görmə pis şey deyil. Belə ki, insan ölmüş yaxınlarını (ata-anası, bacı-qardaşı və s.) görəndə onlarla yaxından ünsiyyətdə olmalı. Onlarla nəvaziş və mədəni qaydada davranmalı onlardan bacardıqca bir şey istəməli və bütün bunlara nail olmalıdır. Əgər bunları edərsə və yuxudan durandan sonra həyatında yaxşı hadisələrlə qarşılaşmalı olar.

Yuxu görən şəxs lazımdır ki, yuxudan durandan sonra istər bəd (qorxulu) və istərsə də yaxşı yuxu görməsini heç kəsə danışıb bildirməməlidir. Yaxşı olar ki, gördüyü yuxusunu axar suya ürəyində (yavaş səslə) danışmalı və yuxudakı ölmüş yaxınlarına Allahdan (c.c.) rəhmət diləməlidir. Yuxu görən şəxs özünü ölüm içərisində ölmüş kimi bilməli və Allaha (c.c.) şükür-əsna ilə dua edib təskinlik qazanmalıdır. Bəzi insanlar gördüyü yuxularından "qorxaraq" psixoloji çətinlik girdabına düşür və bu kimi mənfi depressiya əsasında hətta xəstəlik də tapır.

Bəzi insanlar isə yuxu yozanlara müraciət etməklə sanki çətinlikdən asanlığa və ya qaranlıqdan işıqlığa çıxmağa çalışırlar. Bütün bunlar boş və mənasız işlərdir ki, insanlar sanki gördüyü yuxulardan xeyir görmək və ya çətinlikdən uzaqlaşmaq istəyərlər. Bilmək lazımdır ki, bütün aləmləri yaradan Allaha (c.c.) həmd olsun ki, insanı bir damla murdar nütfədən yaratmaqla ona ağıl vermişdir.

Həyatda düşünən və Yaradanı dərk edən insan, şükürlü və səbirli olmaqla yuxu görmə hadisəsindən qorxmamalıdır. Çünki ölüm içərisində olan ölümü bizə verən Allahdır (c.c.). Ona dua edib yalnız və yalnız dünyadakı əməllərimizə səbir verməli və "yuxuda olduğumuz dünya həyatından" qurtulmaqla axirət həyatımızı yaxşı görməliyik.

Bəzi yuxugörmə yozumları belədir: At- murada çatmaq. Dəvə- uca rütbəyə çatmaq. Camış- ölüm xəbəri. Su- aydınlığa çatmaq. Yağış- ruzi-bərəkət tapmaq. Dişin düşməsi- bəd xəbər gözləmək. Qoyun- ruzi, bərəkət. Meşəlik- xoş xəbər. Meyit- xoş xəbər. Meyit yuyan (mürdəşir)- bəd xəbər. Səhralıq- azad olma. Dağ- sevdiyinə qovuşmaq. Toy- ölən olacaq. Qoz-fındıq- axtardığını tapmaq. Həbsxana- sıxıntı. Torpaq suvarmaq- baş ağrısı. Süd- işin düzəlməsi. Siçan- oğurluq gözlənilir. Süpürgə- dustaq olma. Dəyirman- sıxıntı. Güllə səsi- xoş xəbər. Paltar- arxa, kömək. Yanğın- bədbəxt hadisə. Üzüm- ağlamaq. Üzük- sıxıntı. Bulanıq su- qarışıqlıq. Yaylıq- ayrılıq. Taxta- tabut. Ayaqqabı və corab- sıxıntı. İlan- düşmən. İstiot- şirinlik. Duz- qəm-qüssə. Göy gurultusu- bəd xəbər. Qara rəng- tezlik. Qırmızı rəng- qəm-qüssə. Sarı rəng- dava-dalaş. Köçmək- ayrılıq. Ağlamaq- sevinmək. Uçmaq- arzuya çatmaq. Ağacın qırılması- ölüm. Pul- müjdə. Buğda zəmisi- ruzi-bərəkət və s.

Ölüm hadisəsi yalnız bu dünyadadır. Ölüb yenidən dirildikdən sonra əbədi ölümsüz həyat, yəni "yuxudan ayılma" baş verəcəkdir. Əksər insanlar ölüm qabağı can verən anında baxarsan ki, sifətləri sanki qaralmış və dodaqları da küsmüşdür. Həmin insanlar ölümdən qorxaraq dünyadakı pis əməllərinə görə cəzalanmalarını bir anlığa "görüb" və qorxurlar.

Bəzi can verən insanların isə dodaqları gülümsəyər və çöhrələri sanki işıq saçar. Həmin adamlar dünya həyatındakı yaxşı əməllərinə görə sevinərlər. Şübhəsiz Allahın (c.c.) insanlara göndərdiyi müqəddəs kitablarda və xüsusən Qurani-kərimdə tez-tez adı çəkilən cənnət və cəhənnəm aləmlərindən xəbər verilir.

Əsil mömin müsəlman (buna müqəddəs kitablarda müttəqi deyilir) Allahın (c.c.) insanlara bəxş etdiyi dünya həyatındakı taleyinə sıxılıb və acımamalı və ölüm hadisəsinə hər an hazır olaraq ondan qorxmamalıdır. Dünya həyatında müxtəlif ölümlər baş verər ki, bu da həmin insanın taleyi ilə bağlıdır. Ana bətnindəki uşaq, doğulduqdan sonra, uşaq və gənclik illərində, orta yaş və ahıl dövrü və habelə bədbəxt hadisə zamanı baş verən ölüm. Ölüm haqdır və Allah (c.c.) tərəfindən yazılmış (lövhi-məhfuz) tale kitabındadır. Ölüm hadisəsi labüddür və hər an baş verə bilər.

Həzrəti Əlidən (ə) soruşurlar ki, "ölüm məsafəsi nə qədər olar?" Həzrət buyurur ki, "qaş ilə gözün arasındakı məsafə ondan çoxdur." Ölüm bir anlıqda baş verər ki, ona həmişə insan dünyadakı əməllərinə görə hazır olmalıdır. İnsan bu dünyanın gözəlliklərinə aldanmamalı və axirət həyatı üçün daim düşünməlidir. Bunun üçün Allahı (c.c.) tanımalı, peyğəmbərlərə və onlara göndərilmiş müqəddəs kitablara iman gətirməlidir.

Qurani-kərimin Bəqərə (2/257) surəsində deyilir: "Allah iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər. Kafirlərin dostu isə Tağutdur. Onları nurdan ayırıb zülmətə salarlar. Onlar cəhənnəmlikdirlər və orada həmişəlik qalacaqlar !"

Ölüm kimlər üçün qorxu olsa da, kimlərəsə sevgiyə qatılma anıdır. Hər nə şəkildə düşünsən də, ölüm həyatın bir gerçəkliyi kimi sonudur. Ölən şəxs ölüm anında yanına gələn mələyi görüb və onunla "danışar". Əgər ölən şəxsin üzü gülərsə və çöhrəsində nur görünərsə, deməli yanındakı mələyin onu Cənnətlə müjdələməsidir. Yox əgər ölən şəxsin qaşqabağı tökülərsə və çöhrəsi qaralarsa, deməli mələyinin Cəhənnəmlə qorxutması əlamətidir.

Qurani-kərimin Fussilət (41/30) surəsində deyilir: "Həqiqətən də: "Rəbbimiz Allahdır!"- deyib sonra düz yol tutan kəslərə mələklər nazil olub (deyərlər:) "Qorxmayın və kədərlənməyin! Sizə vəd olunan Cənnətlə sevinin."

Quranın İnsana verilən ölüm nəticəsində ruh bədəndən xaric olar və bu boyltdan (aləmdən) digər boylta (aləmə) keçər. Beləliklə ölüm zamanı insan ruhu sanki yuxudan duraraq müvəqqəti aləmdən əbədi aləmə keçər. Əslində insan ölümdən qorxmamalı, ona sevinməli və bu dünyanın çətinliyindən azad olaraq axirətə ölümsüzlük aləminə ayaq açmalıdır...

> *"Hər kəs ölümü dadacaqdır. Sonra da hüzurumuza qaytarılacaqsınız !"*
>
> *(Ənkəbut surəsi, 57)*

> *"Tənbəllik insanı cəhənnəmə aparan əməldir."*
>
> *(Sokrat)*

Müsəlmanın gündəlik 24 saatı

Müsəlman bilməlidir ki, Allah (c.c.) insanı sevərək bütün məxluqatlardan gözəl və üstün (əşərəfli) yaratmışdır. Gözəlliyi odur ki, insanın quruluşu zərif və həssas olduğuna görə digər canlılardan fərqlənir. Belə ki, insanın bədən quruluşu və xasiyyəti körpəlikdən ta böyüyüb ahıl yaşacan gözəlliyini özündə qoruyub saxlayır.

Allah (c.c.) insanı yaradarkən digər canlılardan fərqli olaraq ona düşünən beyin və ağıl vermişdir ki, özünü (bədən fiziologiyasını) xəstəliklərdən qoruya bilsin. Bunun üçün də düşünən insan hər işdə ağlın gücü ilə və nəfsinə tabe olmamalıdır.

> *"Yaxşılığı saxlayan pislik qazanmaz, pisliyi saxlayan yaxşılıq qazanmaz."*
>
> *(Sədi Şirazi)*

Lazımdır ki, müsəlman gündəlik həyatında özünü (orqanizmini) müxtəlif ziyanlı yemək-içməkdən və çirkin xasiyyətdən qorusun. Buna görə də, müsəlman Allaha (c.c.) şükür etməli, gündəlik vacib ibadətlə məşğul olmalı və Yaradanı zikr edərək yada salmalıdır.

Sağlam insanın orqanizmi sutka ərzində hər an dəyişilə bilər. İnsan orqanizmi hər saniyə dəyişdiyi kimi beyindəki 20 mindən çox olan hüceyrələr də hər saniyə dəyişilir. Belə ki, insan orqanizmi 24 saat (bir sutka) ərzində baş verən dəyişikliklərə saat hesabı ilə nəzər salarsa, onda aşağıdakı kimi müxtəlif dəyişikliklər baş verir;

Saat 0:00- bu vaxt orqanizm daxilindəki yağlar parçalanır. İnsan yatarkən orqanizmdəki gün ərzində qəbul olunmuş yağlar parçalanır, saçlar uzanır və hüceyrələr də bölünərək yeniləri əmələ gəlir.

Saat 01:00- orqanizmdəki ağrılar artmağa başlayır. Həmin saat vaxtında insanda yorğunluq daha çox hiss olunur və ayaqlardakı revmatik xəstəliyə tutulanlar daha çox ağrıları hiss edirlər.

Saat 02:00- orqanizmdəki sidik kisəsinin fəaliyyəti azalır. Həmin saat ərzində orqanizmdə sidik kisəsinin fəaliyyətini azaldan "vazoprezin" deyilən hormon daha çox ifraz olunur.

Saat 03:00- insanın nəfəs alması çətinləşir. Həmin saat ərzində astma- bronxit xəstəliyinə tutulanlar, günün başqa vaxtlarına nisbətən vəziyyətləri daha çətinləşir. Buna görə də həmin xəstələr yatmazdan əvvəl B və C vitləri qəbul etməklə tənəffüs fəaliyyətlərini artırmalıdır.

Saat 04:00- insanın (sağlam və ya xəstə) ölüm ehtimalı yüksəlir. Bu saatda ölüm ehtimalı başqa vaxtlarla müqayisədə daha çoxdur. Belə ki, bu saatda ürək döyüntüləri zəifləyir və orqanizmdəki qan təzyiqi aşağı düşür. Xurma yemiş hamilə qadınların əksəriyyəti həmin vaxtda (asanlıqla) uşaq doğarlar.

Saat 05:00- orqanizmdəki sümüklər möhkəmlənir. Həmin saat ərzində orqanizmdəki inkişaf hormonlarının sayı yüksək həddə çatdığından sümük hüceyrələri də möhkəmlənir.

Saat 06:00- qadınlarda hamiləlik anı güclənir. Qadın orqanizmindəki "libido" hormonu daha çox bu saatda ifraz olunduğundan (cinsi həvəs güclənməklə) hamiləlik ehtimalı yaranır. Həmin vaxt ərzində kişilərdə də "testesteron" un səviyyəsi qalxdığından sperma ifrazatının təzyiqi artır.

Saat 07:00- Xəstə insanların orqanizmində kəskin spazmalar baş verir. Əzələlərdəki bədən istiliyi aşağı düşür və əzələlərdə sərtlik hiss olunur. Spazma ağrıları həmin saat vaxtından başlayaraq daha çox şiddətlənir.

Saat 08:00- Xəstə və ya sağlam orqanizmdə infarkt ehtimalı artır. Yatarkən bədəndəki nəbzin sayı dəqiqədə 60-a çatarsa, oyananda dəqiqədə 72-78 arasında olur. Orqanizmdəki nəbzin artması nəticəsində, qan təzyiqi də yüksəlməklə və infarkt ehtimalına gətirir. Hər həftənin bazar ertəsi günündə həmin vaxt ərzində insandakı infarkt sindromu yüksəldiyindən və ürək dayanması halı 40% artır.

Saat 09:00- İnsan orqanizmindəki enerji çoxalır. Bu saat ərzində orqanizmdəki maddələr mübadiləsi sürətlənir və səhər yeməyindəki zülali maddələr yağ əvəzinə yüksək enerjiyə çevrilir. Xəstə insanlardakı "adrenalin" hormonu yüksək dərəcəyə çatdığı üçün bədəndəki ağrılar da azalır.

Saat 10:00- İnsandakı məntiq və iş qabiliyyəti artır. Həmin saatlarda imtahan və ya hər hansı bir istehsalat müşavirəsi üçün ən əlverişli vaxtdır. Belə ki, orqanizm bu saatda daha çox qlükoza ifraz etdiyi üçün insandakı məntiq qabiliyyəti də artır.

Saat 11:00- İnsan həmin saatda diqqətli olmalıdır ki, xəstələnməsin. Belə ki, orqanizmdəki leykositlər passivləşdiyindən immunitet sistemi zəifləyir və nəticədə xəstələnmə ehtimalı yaranır.

Saat 12:00- Həmin saatda insanda iflic (qıc) olma təhlükəsi yarana bilər. Qan təzyiqi yüksəldiyi üçün iflic olma ehtimalı da yüksəlir. Ən çox müşahidə olunan iflic olma saatları 06-dan 12-yə kimidir.

Saat 13:00- Orqanizmdəki toksinlərin (zəhərli maddələrin) ifrazı. Orqanizmdəki sidik cövhərinin miqdarı artdıqca, böyrəklərin fəallaşması başlayır və nəticədə sidiklə bərabər zəhərli maddələr də ifraz olunur.

Saat 14:00- Orqanizmin dinclik saatı. Nahar yeməyindən sonra insandakı iş qabiliyyəti aşağı düşür və fiziki və zehni iş görmə çətinləşir. Həmin saatlarda istər istehsalat və ya yol qəza hadisələri çoxalır. Yaxşı olar ki, günorta (zöhr) ilə ikindi (əsr) namazları arasında dincəlmək lazımdır.

Saat 15:00- Günün ən xoş saat vaxtıdır. Həmin vaxtlarda orqanizmdəki bütün ağrılar azalır. Belə ki, orqanizmdəki xoşbəxtlik hormonu deyilən "endrofin"in miqdarı orta səviyyədə olur.

Saat 16:00- Həmin saatda möminlər əsr namazına və idmanla məşğul olanlar isə bədən tərbiyəsi ilə məşğul ola bilərlər. Bədən tərbiyəsi və idman üçün ən yaxşı vaxtdır. Belə ki, orqanizmdəki "adrenalin" hormonunun səviyyəsi çox yüksək olur. Həmin saatlarda dünya idman yarışlarında yüksək nəticələr olmuşdur.

Saat 17:00- Orqanizmdəki əzələlərin möhkəmlənən vaxtıdır. Barmaqlardakı kiçik əzələlər daimi hərəkətdə olduğundan möhkəmlənir.

Saat 18:00- Orqanizmdə yorğunluq başlayır. Həmin saatda əzələlər zəifləyir, orqanizm yorulur və mədə turşu ifraz etdiyindən ağrıları da çoxalır. Namaz qılanlarda bu yorğunluq az hallarda müşahidə olunur.

Saat 19:00- Orqanizmdəki lamisə (dadbilmə) hissləri güclənir. Hava qaralmağa başladıqca insandakı "melatonin" hormonu daha çox ifraz olunmağa başlayır və orqanizm yatmağa hazırlaşır. Həmin vaxt ərzində dadbilmə hissləri də güclənir.

Saat 20:00- Orqanizmdə fermentlər ifraz olunur. Həmin saatda qaraciyər maksimum (həddən artıq) miqdarda ferment ifraz edir.

Saat 21:00- Bədənin ağrı saatı. Ən çox ağrılar bu saatda baş verdiyindən bu hal orqanizmdəki "endorfin" hormonunun daha az ifraz olunması ilə əlaqədardır.

Saat 22:00- İnsanda immunitet (immunitas) qabiliyyəti artır. Bu orqanizmin infeksion və yad genetik informasiya daşıyan antigen xassəli yad maddələrə qarşı davamlılığıdır. Buna səbəb isə "interflukin-1" hormonunun çoxalmasıdır.

İnsanlarda immunitet anadangəlmə və sonradan qazanılmış olur. Anadangəlmə immunitet orqanizmin bioloji (irsi) xüsusiyyətindən asılı olan davamlılığıdır. Sonradan qazanılmış immunitet isə (spesifik) orqanizmin infeksion xəstəliklərə qarşı qazandığı davamlılığından yaranır.

Saat 23:00- Orqanizmdəki "melatonin" hormonu maksimum həddə qalxır. İnsanın allergiyaya qarşı ən həssas olan vaxtdır. Belə ki, 23:30 radələrində insanda yuxu gətirən "melatonin" hormonu maksimum həddə çatır. Daha sonra isə ürək döyüntüsü ilə beyin fəaliyyəti azalır və orqanizmdəki eşitmə üzvündən başqa digər üzvlər isə yatır.

Hər yeni gün iman sahibləri və Quran əxlaqını mənimsəyənlər üçün Allahın (c.c.) varlığının dəlilləri ilə, iman həqiqətləri ilə doludur. İnsan bütün gecəni şüursuz şəkildə yatır. Onun yuxuda keçən uzun saatlara dair xatırlaya biləcəyi yeganə şey yalnız yuxularıdır.

İnsan yatdığını zənn etdiyi bu müddət boyunca əslində bir növ ölüdür. Allah (c.c.) insanların canlarının alındığını Quranın Zümər surəsində (42) belə xəbər verir: "Allah canlarını onlar öldüyü zaman, ölməyənlərin canlarını isə yuxuda alır..." (H.Yəhya, "Müsəlmanın 24 saatı" İstanbul-2009).

> *"Bilmə ki, bu dünya kefdi, damaqdı, varlıda, yoxsulda ona qonaqdı."*
>
> *(Feyruz Abdulla oğlu)*

"Həqiqətən, Biz insanı qarışıq bir sudan yaratdıq. Biz onu imtahana çəkəcəyik. Biz onu eşidən, görən yaratdıq."

(İnsan surəsi, 2)

“Adamları ağlına görə, torpağı isə xalqına görə tanıyarlar.”

(Həsən Əliyev)

Hz. Peyğəmbərin (s) elm və təbiətə baxışları

Hz. Peyğəmbərin(s) elm və təbiətə baxışları, 1400 il öncə yazıya alınmışdır. Bütün bunlar onu göstərir ki İslam dini, insanları gözəl əxlaqa, dünyəvi elmlərə yiyələnməyə, təbiət sərvətlərinin qorunmasına və sağlamlığa çağırır. İnsanlar yaşadıqları ərazilərdə yaşıllaşdırma işlərini görüb təbiətlə heyvanlara qayğısı İslam maarifçiliyində yalnız Həzrəti Məhəmməd(s) Peyğəmbərlə bağlı olmuşdur.

Bir gün Hz. Məhəmməd(s) Peyğəmbər sahəbələri ilə səfərdə ikən səhrada od yandırıb ocaq qalamalı olurlar. Peyğəmbər yoldaşlarına odun toplamaq işlərini tapşırır. Adamlar isə narazılıqla deyirlər ki; “Ey Allahın rəsulu! Bura boş bir səhradır, odun isə yoxdur.” Peyğəmbər gülümsəyərək onlara belə deyir; “Hər kəs bacardığı qədər çör-çöp yığsın”. Sahəbələr bu minvalla çoxlu miqdarda odun toplayırlar...

Dünya insanlarının sonuncu peyğəmbəri Hz. Məhəmmədin(s) elm və təbiətə baxışları, təxminən 1400 il öncə öyrənilərək yazıya alınmışdır. Bütün bunlar onu göstərir ki, İslam dini insanları şəxsi sağlamlığa, təbiət sərvətlərinin qorunmasına və dünyəvi elmlərə yiyələnməyə çağırmaqdadır.

Hz. Peyğəmbərin(s) elm və təbiətlə bağlı kəlamlarını ilk dəfə toplayıb İngilis dilində çap etdirən hindistanlı Fəlsəfə Elmləri Doktoru A.Ə.Şöhrəverdi(1882-1935) olmuşdur. Böyük alimlə Rus yazıçısı L.N.Tolstoy(1828-1910) məktubla dostlaşaraq ondan peyğəmbərin kəlamlarını istəmişdir. Maraqlıdır ki, L.N.Tolstoy vəfat edərkən paltarının cibindən A.Ə.Şöhrəverdinin yazdığı (fransızca tərcümə) “Məhəmmədin kəlamları” adlı kitabçası tapılmışdır. (bax; “Lev Tolstoyun faciəsi” Moskva sənədli filmlər studiyası-1997).

Hz. Məhəmməd(s)Peyğəmbərin kəlamlarında insanların sağlamlığı, təbiətə qayğısı və elmlərin öyrənilməsinin vacibliyi bildirilmişdir. Həmin kəlamlardan bir neçəsini aşağıda oxucuların nəzərinə çatdırırıq;

Ərak ağacının budağından alınmış misvakla dişlərini təmizləyən müsəlman dişini təmizləməyəndən yetmiş dəfə üstündür.

Behiştin açarı namazdır, namazın açarı isə dəstəmazdır (əl-üzünü yuyub təmizlənməkdir).

Allah insanda məntiqdən yaxşı heç bir şey yaratmamışdır...

Heyvanlarla davranış zamanı rəhmli olun.

Allah insana rəhm verib ki, dünyadakı canlılara mehribanlıq göstərilsin.

Balalı heyvanata mərhəmət göstərənin günahları bağışlanar.

Ağac əkib-becərmək sədəqə, barından yedirtmək isə ehsandır.

Allah pak və elmli olduğundan pak və elmliləri də sevər.

Alimlə cahilin məsuliyyəti eyni ola bilməz.

Müsəlman yer şumlayıb ağac əkməli, quşlarla heyvanlar bəhrələnməlidirlər.

Ölü torpağı dirildən (şumlayıb becərən), əməyinin haqqını da torpaqdan alacaqdır.

Əxlaqı və davranışı ilə insanların xoşuna gələn adam həqiqi müsəlmandır.

Taleyin əmrinə itaət edin, bir-birinizlə qarşılaşanda salamlaşın.

Təcrübəsi olmayan bağban bağında xurma yetişdirə bilməz.

Allah deyib ki; "Mən gizli bir xəzinə idim, istədim tanınam və buna görə də insanı torpaqdan yaratdım".

Torpağı sevməyən vətəni sevməz.

Xeyirxah olmayan alim quru ağaca bənzər.

Ömrünü elmə sərf edən adam hər vaxt diridir.

Alimə hörmət-aləmə hörmətdir.

Bir saat elmlə məşğul olan, altmış il ibadət edəndən üstündür.

Elm öyrənmək üçün dünyanın ən uzağına qədər gedin.

Elmi beşikdən məzara qədər öyrənmək vacibdir.

Bilikli şəxs cahil dindardan üstündür.

Özünü dərk edən, Allahı da dərk edər.

Alimin qələminin mürəkkəbi şəhidin qanından üstündür.

İnsan elmlə xoşbəxtliyin zirvəsinə çata bilər.

Alim odur ki, elmini xalqın xeyrinə işlətsin.

Faydasız elm, lazımsız əşya kimidir.

Addım atarkən zərif həşəratları məhv etmək günahdır.

Bitkilərə də uşaq kimi qulluq edilməlidir. (A.Söhrəverdi, "Məhəmmədin kəlamları" (ingiliscə) London-1905, (azərbaycanca "Gənclik" nəşriyyatı) Bakı-1990)

Bəşərin sonuncu peyğəmbəri Hz. Məhəmməd(s) Məkkədən Mədinəyə köçərkən (hicrət edərkən) məkkəli bütpərəstlər tərəfindən təqib olunmuşdur. Peyğəmbərin gizləndiyi yolüstü mağaranın girişində Allahın möcüzəsi ilə göyərçin yuvasında bala çıxarmış və hörümçək də tor salmışdır.

Təqib edən atlılar mağara girəcəyindəki təbii mənzərəni görərək içəri girmədən geri qayıtmışlar. Beləliklə də Hz. Məhəmməd(s) Peyğəmbər sağ-salamat Mədinəyə gəlib çatmışdır. Bütün bunlar isə tarixi həqiqət kimi, Allahın (c.c.) təbiətlə məxluqata məhəbbətinin təzahürüdür. ("Peyğəmbərə 40 sual", Bakı-1993).

Hz. Məhəmməd (s) Peyğəmbər və Məkkəli müsəlmanlar miladi 622-ci ildə Məkkədən Mədinəyə hicrət edirlər. Bu, İslam tarixində və Hz. Peyğəmbərin həyatında ən önəmli işlərdən biri olmuşdur. Çünki bu iş İslamı təbliğində bir dönüm nöqtəsi və çətinlikdə olan müsəlmanların qurtuluşu idi.

Beləliklə Hicrətdən 17 il sonra, Həzrəti Ömərin (ə) xəlifəliyi zamanında, Hz. Peyğəmbərin (s) hicrət etdiyi il (Miladi 622) , müsəlmanların sosial mədəniyyətinin inkişaf etdirən "Hicri təqvimi" üçün "təqvim başlanğıcı" qəbul edilərək və Məhərrəm ayının əvvəlinci günü isə ilin ilk günü kimi qəbul olunmuşdur. (bax internet saytı; www.diyanet.gov.tr).

> *"Göyləri və yeri yaradan, göydən yağmur endirən, o yağmurla sizin üçün ruzi olaraq meyvələr yetişdirən... Allahdır!"*
>
> **(İbrahim surəsi, 32)**

"Yer qabığından istilik çölə çıxmasa, onda Yerdə yaşayış olmaz."

(Harun Yəhya)

İslamda ekologiya və xalq təbabəti

Dünya həyatında təbiət insanın yaşayış mühitidir. Ona görə də, insan onun bütövlüyünün qorunub saxlanmasında, təmiz olmasında əlindən gələni əsirgəməməlidir. Bununla yanaşı insan öz fəaliyyəti ilə təbii prosesə müdaxilə etməklə ekologiyanı da pozur.

Həmin fəaliyyət nəzarətsiz olduqda, ekoloji qanuna uyğunluqlar pozularaq və insan həyatı təhlükə ilə qarşılaşır. Təbiətin bioloji tarazlığı pozulduqda təbiətdə düzələ bilməyən ziyanlar baş verir. Təbiət insanlar üçün həm də dərketmə və sağlamlıq üçün xalq təbabətidir. Bütün bunlar isə İslamda ekoloji mənəviyyatın əsaslarının qorunub saxlanmasına zəmin yaradır...

Hz. Məhəmməd(s) Peyğəmbər təbiətə önəm verərək və ondakı İlahi gözəlliyin qorunması üçün bəzi tədbirlərə əl atmışdır. O, Mədinədə olarkən insanlara təbiəti sevmək və nemətlərinin qorunmasını öyrətmişdir.

Hz. Peyğəmbər(s) ümumi əraziləri, yolları, kölgəlikləri, ümumi istirahət guşələrini, su hövzələrini çirklənməsinə qadağalar qoymuş və ağac əkib-becərməyi sədəqə i icarəyə kimi qəbul etmişdir (Buxari, "Elm", səh. 37; Müslim, "Təharət", səh. 68-95; "Müsakət" səh. 10).

Quranın "Səbə" surəsində (34/3) deyilir ki; "...Yerdə və göydə zərrə qədər bir şey sənin Rəbbindən gizli qalmaz..." Bütün bu sözlərdə böyük həqiqət vardır. Dünyadakı gözə görsətməyən tək hüceyrəli (bakteriyalar, viruslar, göbələklər, yosunlar və s.) mikroorqanizmlər, nəhəng heyvanlardan 20 dəfə çox və əhəmiyyətlidir. (H.Yəhya, "Quran möcüzələri" İstanbul-2009).

Belə ki, yerdə həyatın olması üçün azot (N) dövranını bakteriyalar yaradır. Bitkilər kökləri ilə torpaqdan mineral qida maddələrini göbələklər vasitəsi ilə alırlar. İnsanların qəbul etdikləri bəzi zərərli qidalardan zəhərlənmələri, ağız boşluğundakı bəzi antidot və ya antioksidant xassəli bakteriyalar tərəfindən qarşısı alınır.

Mikroorqanizmlər üzvi maddələri parçalayaraq bitkilərin qidalanmasına şərait yaradır. Bitkidəki fotosintez prosesində bakteriyalar əsas köməkçi işləri görür.

Balaları yuvalarında (pətəkdə) təkcə bir ana arı bir neçə yüz erkək və on mindən də çox işçi arıdan ibarət həyat tərzini yaşayırlar. Qarışqalar yuvalarında dəstə ilə sosial həyat tərzini qururlar. Həşəratlar ilin isti aylarında yuvalarına yorulmadan "ərzaq" daşımaqla, qış aylarında korluq çəkmirlər. Kiçik quşlar yırtıcı quşlardan qorunmaq üçün, dəstə ilə uçmaqla "düşməni" dəf edirlər.

Quranın Ənam surəsində (6/95) deyilir ki; "Şübhəsiz ki, toxumunda, çərdəkində cücərdib çatladan, ölüdən diri, dirildən də ölü çıxaran Allahdır..." Ayədəki sözlərə görə, hər hansı bir canlı varlıq məhv olduqdan sonra mikroorqanizmlər tərəfindən "yeyilərək" torpağa çevrilir. Ölmüş cəsədin tərkibindəki üzvü və qeyri üzvü maddələrin molekulları torpağa qarışaraq bitki kökləri vasitəsilə mənimsənilir və insanla heyvanların qida mənbəyinə çevrilir. Bununla da Yer üzərindəki bakteriyalar təkrar qida istehsal edirlər.

İnsanda xəstəlik iki cürdür ki, birincisi qəlbdə, digəri isə bədəndə olur. Qəlb xəstəliyi də özlüyündə iki cür olur, birincisi şübhə və tərəddüd, digəri isə şəhvət və azğınlıqdır. Qəlb xəstəliyi haqqında Quranın Bəqərə (2/10) surəsində belə deyilir; "Onların qəlblərində mərəz var. Allah onların mərəzini daha da artırar..."

Həmin ayələrə görə insan qəlbindəki şübhə və tərəddüd xəstəliyidir. Şəhvəti arzular xəstəliyinə gəldikdə isə, Quranın Əhzab (33/32) surəsində belə deyilir; "Siz ey Peyğəmbərin zövcələri! ... Buna görə də (yad kişilərlə) yumşaq danışmayın, yoxsa qəlbində mərəz olan tamaha düşər."

Bədən xəstəliyi haqqında Allah (c.c.) Quranın Nur (24/61) surəsində belə bildirir; "Kora, çolağa, xəstəyə günah yoxdur..." Qurani-kərimdə bədən xəstəliyi həcc, oruc və dəstəmazla birlikdə bildirilmişdir. Çünki bunda bir incəlik və bir sirr vardır. (E.Məmmədli və başq., "Qara zirə və onun yağı ilə müalicə" Bakı-2009).

> *"Xəstəlik törədən əməlləri sən, çalış ki, özündən uzaq edəsən."*
>
> **(Feyruz Abdulla oğlu).**

Müasir tibb elmi insandakı bədən xəstəliyinin müalicəsini üç əsas şərtlərini göstərir ki, onlar aşağıdakılardır; Sağlamlığın qorunması. Zərərli şeylərdən pəhriz saxlamaq. Mədəni fəsada uğradan şeylərdən uzaq tutmaq. Qurani-kərimdə Allah (c.c.) həmin üç şərtlərin müalicəsində insanların oruc (pəhriz) tutması bildirilir.

İnsan bədənində yığılaraq saxlanması zərərli olan qeyri-adi fizioloji hal vardır ki, onlar gecikdirildiyi zaman insan xəstəliyə məruz qalır. Xəstəliyin müalicəsində Hz. Məhəmməd(s) Peyğəmbər, belə demişdir: "Qara zirə bitkisinin toxumunda ölümdən başqa hər bir xəstəliyin şəfası vardır. (Bitkinin ərəbcə adı ال حَبَّطول بِرَكَ (bərəkətli toxum), rusca Çernuşka və yunanca isə Melansiondur).

Qara zirə toxumun tərkibində Myristic (0,5%), Palmitic (13,7%), Palmitoleic (0,1%), Stearic (2,6%), Oleic (23,7%), Linoleic [Omeqa-3] (0,2%), Arachidic (1,3%) adlı turşular və zülal, kalsium, mis, sink, fosfor, ti, riboflavin, pyridoxine, niasin və folasin kimi qida komponentləri də vardır. Qara zirənin yağı ilə bir çox xəstəlikləri sağaltmaq mümkündür.

Həmin xəstəliklər ağ ciyər iltihabı, diarreya, baş ağrıları, əzələ ağrıları, dəri xəstəlikləri, başgicəllənmə, qulaq xəstəlikləri, doğuş ağrısı, ürək ağrısı, qan təzyiqi, sinə ağrısı, göz xəstəlikləri, mədə yarası, xərçəng, tənbəllik, yaddaşın zəifliyi, şəkərlik diabet, yuxusuzluq, ürəkbulanma, diş ağrısı, bağırsaq xəstəlikləri, tonzillit, öd və böyrək daşlarını əritmək, burun iltihabı, saçın tökülməsi, allergiya və xroniki iltihabdır.

Bundan başqa qan xəstəliyi, öd kisəsi xəstəliyi, sümük ağrısı, dalağın şişməsi və iltihabı, diş ətinin iltihabı, qaraciyər iltihabı, babasil, qrip, sidikqovucu və kanalının təmizlənməsi, qadın xəstəlikləri, burundan qanaxma, dəridə əmələ gələn şişlərdir.

Daha sonra hərarətin tənzimlənməsi, immunitetin saxlanması, kişilərdə cinsi zəiflik, prostat vəzin iltihabı, qandakı xolesterinin azalması, dəmrov və keçəllik, ürək klapanlarının daralması, əzələ zədələnməsi, qulaq tutulma, zökəm və sairədir. (İbn Qayyim əl-Cəvziyyə, "Ət-Tibbun- Nəbəvi" (ərəbcə) Beyrut-2000).

> *"Biz göydən yağış yağdırdıq və yerdə hər gözəl olan cütdən bir bitki yaratdıq."*
>
> **(Loğman surəsi, 10)**

> *"Sən cisminlə deyil, ruhunla insansan."*
>
> **(İbn Ərəbi)**

Allaha (c.c.) imanlı elm adamları

> *"Alim ilə söhbət etmək ləli mərcan incidir, cahil ilə söhbət edən gündə bir can incidir."*
>
> **(Laedri)**

Görkəmli İngilis fiziki, riyaziyyatçısı və mexanika və astronomiyanın nəzəri əsaslarının yaradıcısı İsaak Nyuton(1643-1727) olmuşdur. O, Paris Elmlər Akademiyasının üzvü və London Kral Cəmiyyətinin Prezidenti olmaqla Yaradılışın Allah (c.c.) tərəfindən yaradılmasını təsdiqləyən bir mömin insan idi. Nyuton yazdığı "Başlanğıclar" adlı elmi fəlsəfi əsərində Q.Qalileyin, İ.Keplerin, R.Dekartın və başqa alimlərin aldığı nəticələri ümumiləşdirmiş, ilk dəfə aləmlərin vahid Yaradıcı tərəfindən yaranmasını bildirmişdir.

Böyük alim fəza və zamanın mütləq reallığını, ümumdünya cazibə qanununu, Günəş sistemindəki planetlərin forma və hərəkətlərini, habelə Neptun və Pluton planetlərini kəşf etmişdir. Nyuton dindar olduğu üçün ömrünün sonlarında Hz. Davud (Daniyal) (ə) haqqında maraqlı kitab da yazmışdır. O, yazırdı; "Allah Nəhayətsiz və Mütləqdir. O, hər şeyi Bacaran və İdarə edəndir. Onun mövcudluğu əbədiyyətə bağlıdır. O, əbədi mövcuddur. O, hər zaman hər yerdə olaraq zamanı və onun müddətini yardır..."

İngilis dramaturqu və şairi Vilyam Şekispir(1564-1616) gəncliyində Londona gələrək, "Qlobus" teatrında işləməklə əvvəl aktyor, sonra isə dramaturq kimi tanınmışdır. Şekispirin dramaturji fəaliyyəti İngiltərənin iqtisadi-siyasi inkişafı və humanizm mədəniyyətinin vüsət aldığı dövrə təsadüf edir.

Şekispir faciələrinin qəhrəmanları, adətən həlak olurlar. Lakin bu, haqqın, ədalətin qələbəsinə inamı qırmır. Qəlbində həmişə Allah (c.c.) sevgisi olan böyük dramaturqun əsərləri dünya teatr səhnələrinin repertuarından düşmür və tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır.

Şekispir yazır ki; "İnsanların çoxu itirməkdən qorxduqları üçün sevməkdən qorxur. Özünü sevilməyə layiq görmədiyi üçün sevilməkdən qorxur. Məsuliyyət gətirəcəyi üçün düşünməkdən qorxur. Tənqid edilməkdən qorxduğu üçün hissələrini ifadə etməkdən qorxur. Gəncliyinin qiymətini bilmədiyi üçün yaşlanmaqdan qorxur. Dünyaya yaxşı bir şey vermədiyi üçün unudulmaqdan qorxur. Və əslində, yaşamağı bilmədiyi üçün ölməkdən qorxur."

Dövrümüzün ən məşhur Alman fiziki və Nobel mükafatı laureatı Albert Eynşteyn(1879-1955) eyni zamanda Allaha (c.c.) imanı ilə tanınırdı. O, Almaniyada Hitler hakimiyyətə keçdikdən sonra, həmişəlik olaraq ABŞ-na köçmüşdür. Böyük alimin mühüm elmi kəşfi-nisbilik nəzəriyyəsidir. Eynşteyn ümumi nisbilik nəzəriyyəsini inkişaf etdirərək vahid sahə nəzəriyyəsi yaratmağa cəhd göstərmişdir.

Elmin dinsiz olmayacağını dəstəkləyən Eynşteynin din və elmlə bağlı bir kəlamı belədir; "Dərin bir imana sahib olmayan əsl alim düşünə bilmirəm. Bu vəziyyət belə ifadə edilə bilər: Dinsiz elm topaldır."

Eynşteyn kainatın təsadüflər nəticəsində əmələ gəlməyəcək qədər mükəmməl nizama malik olduğuna və kainatın üstün ağıl sahibi olan Allah (c.c.) tərəfindən yaradıldığına inanırdı.

Məqalələrində Allaha (c.c.) imanından tez-tez danışan Eynşteynə görə, kainatdakı təbii niz mükəmməlliyi son dərəcə vacibdir. Bir məqaləsində Eynşteyn "Təbiəti araşdıran hər kəsin içində bir növ dini hörmət" olduğunu bildirmiş və belə demişdir; "Elmlə ciddi məşğul olan hər kəs təbiət qanunlarında bir ruhun, insanlardan daha üstün bir ruhun olduğuna inanır. Buna görə də elmlə məşğul olmaq insanı dinə yönəldir."

Eynşteynin dinə baxışını aşağıdakı sözlərində də görmək mümkündür; "Din duyğusu nə vaxt itsə, elm ilhamı olmayan eksperimentalizmə çevrilər." Daha sonra böyük alim belə demişdir; "Həyatı yaşamağın iki yolu var. Birincisi, heç bir şey möcüzə deyilmiş kimi yaşamaq. İkincisi isə, hər şey sanki möcüzədir kimi yaşamaq. Mən ikincisinə və Allahın möcüzələrinə inanıram."

Əslən yaponiyalı olan nəzəri fizika sahəsində görkəmli alim Mişio Kaku(1936-....) ABŞ-da doğulmuşdur. Son əsrin ən bilikli fiziklərindən olan alimin çox saylı kitabları, radio və televiziya proqramları vardır. Elmə töhfələri ilə tanınan Mişio Kaku qara dəliklər və kainatın genişlənməsinin sürətlənməsi kimi sahələrdə çoxlu tədqiqatlar aparmışdır.

O, fizikanın əsas modellərindən biri olan "Strinq" (sim) nəzəriyyəsinin banisi olmaqla Allahın (c.c.) varlığına inanan və imanlı alimdir. Mişio Kaku "A9 TV"- yə verdiyi xüsusi müsahibəsində belə demişdir; "Cisimlərin bərk olduğunu zənn edərək yanılırıq. Əslində, cisimlər boşdur. Bəs elə isə biz nə üçün parçalanıb yerə səpələnmirik? Nə üçün maddələr bərk halda görünür? Çünki elektronlar bir-birini itələyirlər. Biz maddələrin bərk olduğunu zənn edirik. Lakin bu, heç də belə deyil... Hər şeyin yaradıcısı və nizamlayıcısı Allahdır."

ABŞ-ın Kembric Universitetinin fəlsəfə professoru təbiətşünas Stefan Meyer "Hüceyrədəki işarə" adlı kitabında belə yazır; "... Zülallar təsadüfən əmələ gəlməz və həyat təsadüfən yarana bilməz... Hüceyrənin içindəki zülallar başqa zülallardan təşkil olunmuşdur və bu zülalı təşkil edən cihaz olmadan heç bir şey hazırlana bilməz. Hər bir canlını yaradan aləmləri yaradan Allahdır."

Fransız təbiətşünası, mikrobioloq və kimyaçı mikrobiologiya və immunologiyanın banisi olmuş Lui Paster(1822-1895) Tibb elmi tarixində əhəmiyyətli rol oynayan Paster mikrob nəzəriyyəsi ilə və qəti şəkildə təkamül nəzəriyyəsinə qarşı çıxması ilə məşhurdur. Apardığı tədqiqatlar onu bakteriyaları daha da dərindən araşdırmağa yönəltmişdir.

Paster bu sahədəki tədqiqatları nəticəsində quduzluq, difteriya və digər xəstəliklərə qarşı mübarizə aparmaq üçün peyvənd üsulunu təkmilləşdirmiş, sterilizə etmə üsulunu kəşf etmişdir. Allaha (c.c.) inamı olduğundan o, yaşadığı dövrdə Darvinin təkamül nəzəriyyəsinə qarşı çıxaraq belə demişdir; "Təbiəti nə qədər çox araşdırsam, Allahın yaratdıqları qarşısında inancım bir o qədər artır..."

İtaliya fiziki, astronom və filosofu, habelə təbiətşünas alimi olmuş Qalileo Qaliley(1564-1642), elm sahəsində teleskopla göyə baxan ilk insandır. Qaliley ilk dəfə olaraq Yer kürəsinin yumru formada olduğunu söyləmişdir. O, ilk dəfə olaraq Aydakı təpəlik və çökək sahələri kəşf etmişdir. Böyük alim duyğu orqanlarının, danışıq qabiliyyətinin və təfəkkürün canlılara Allah(c.c.) tərəfindən verilməsini söyləmişdir.

Qalileyə görə aləmlər Allah(c.c.) tərəfindən gözəl şəkildə və qüsursuz yaradılmasını bildirərək demişdir; "Şübhəsiz ki, təbiət (aləmlər) imtina edə bilməyəcəyimiz, oxumalı olduğumuz Allahın digər kitabıdır."

> *"Rəbbindən sənə nazil edilənin haqq olduğunu bilən kimsə, kora bənzəyə bilərmi? Bundan ancaq ağıl sahibləri ibrət alarlar."*
>
> **(Rəd surəsi, 19)**

"Haqsızlığa əyilsəniz şərəfinizi də itirmiş olarsınız."

(Hz. Əli (ə))

Hindistanda islam dini necə yayıldı ?

Asiya qitəsinin cənubunda yerləşən Hindistan Respublikası əhalisinin sayına görə dünyada 3-cü yeri tutur. Hindistan inzibati cəhətdən 22 ştata və 9 müttəfiq əraziyə bölünür. Sahəsi 3,3 milyon kvadrat kilometrdir. Əhalisi 470 milyon nəfərdən çoxdur. Paytaxtı Dehli şəhəridir. (1997-ci ilin statistik məlumatı).

Ərazisi şimaldan-cənuba 3200 km, qərbdən şərqədək 2700 km uzanır. Dövlət quruluşu 1950-ci ildən Konstitusiyalı Federativ Respublikadır. 5 il müddətinə seçilən prezident hakimiyyəti iki palatadan (Ştatlar şurası və Xalq partiyası) ibarət olaraq, icra hakimiyyəti prezident və hökumətə məxsusdur. 18-ci əsrin sonu-19-cu əsrin əvvəllərinədək Hindistan əhalisini bildirmək üçün "hindlilər" adı qəbul edilmişdi. Sonradan ingilislər tərəfindən həmin termin "hinduslar" adlanmışdır. Hindistanda yaşayan əhalinin hamısına bu cür ad verilməsi səhvdir. Çünki əhalinin müəyyən hissəsi İslam, Buddizm və sairə dinlərə etiqad edir.

Əhalinin 82,7%-i hinduist, 11,2%-i müsəlman, 2,6%-i xristian, 0,7%-i buddist və 0,5%-i isə caynistdir. Ölkədə az miqdarda zərdüştilər və yəhudilər də vardır. Müsəlmanlar ölkənin şimal və şimal-qərb hissəsində məskunlaşmışlar. Son illərdə Hindistanda müsəlmanlarla yerli hinduist dini ardıcılları arasında kəskin toqquşmalar baş verir. İslam məscid və ziyarətgahlarının təhqir edilməsinə qarşı müsəlmanların güclü etiraz tədbirləri hökumət tərəfindən laqeydliklə qarşılanır. Xüsusilə, Laknau şəhərində yaşayan Əhli-beyt tərəfdarlarına qarşı haqsız cəza tədbirləri bu ölkədə müsəlmanların ağır həyat şəraitindən xəbər verir.

İslam dininin qeyri-müsəlman xalqlar tərəfindən qəbul edilməsi barəsində əksər Qərb alimlərinin fikri açıq-aşkar qərəzli xarakter daşıyır. Şərqşünasların bəzisi (məsələn, Volter) İsl uğurlu irəliləyişini yalnız Hz. Məhəmməd(s) Peyğəmbərin cəsarət və şücaəti, bəzisi (məsələn, Gibbon) müsəlman əsgərlərin qənimət qazanmaq ehtirası, bəzisi də (məsələn Hünter) zor və qılınc gücü ilə bağlamışlar. Əlbəttə, son iki iddiada məqsəd İslamı nüfuzdan salıb onu vəhşi bir millətə məxsus qeyri-humanist din kimi tanıtdırmaqdır.

İslam dininin qeyri-ərəb ölkələrində, xüsusilə də Hindistanda güc vasitəsilə yayılması fikri tamamilə səhvdir. Mütərəqqi fikirli ingilis şərqşünas alimi Tomas Arnold bu məsələyə diqqət verməklə belə yazmışdır: "İslamı yayarkən müsəlmanların zor işlətməmələri bu dur ki, müsəlman qüvvələrinin ən iqtidarlı zamanında Hindistanın şəhərlərindən Dehli və Aqrada müsəlmanların sayı əhalinin ümumi sayının 10%-ni keçmirdi. Halbuki bir neçə əsr keçdikdən sonra bu nisbət 25%-ə yaxınlaşmışdır.

Hindistanın müsəlmanlar tərəfindən fəthi tarixdə Əməvilər dövründə başlamışdır. 771-ci ildə İslam sərkərdəsi Məhəmməd ibn Qasim, Hind çayının aşağı sahillərini müsəlman vilayətlərinə qatmışdır. Sonrakı üç əsr ərzində həmin ərazilərdə məskunlaşan müsəlmanlar Şimali Afrika-Yəmən-Hindistan qövsü boyunca yerləşmiş İsmaili məzhəbli mübəlliğlərin təsirinə düşdülər.

1026-cı ildə Qəznəvilər sülaləsinin hökmdarı Sultan Mahmud (998-1030) Hindistanın şimal ərazilərinə yürüş edərək indiki Racəstxan və Qucarat vilayətlərində hökm sürən kiçik Hind sultanlıqlarını məğlubiyyətə uğratdı.

Sultan Mahmud həmin yürüşlərində bütün hindliləri zorla müsəlman etmək məqsədində olmamışdır. Yerli əhali öz iradəsi və arzusu ilə İslam dinini qəbul edirdi. Müsəlman olmaq istəməyənlərə qarşı heç bir cəza tədbiri görülmürdü. Hətta onlar orduda xidmətə də qəbul edilirdilər. Qəznəvilərin qoşununda bütpərəst hindlilərdən təşkil edilmiş alaylar da olmuşdur. Qəznəvilər dövründə Pəncab vilayəti müsəlmanların bölgədəki qərargahına çevrilmişdir.

1186-cı ildə Qəznəviləri məğlub edərək Hindistan əyalətlərinə sahib olmuş Qurilər sülaləsinin hökmdarı Münzzəddin(1159-1206) Qanq çayı hövzəsindəki xırda Hind sultanlıqlarını özünə tabe etdirdi. Onun ölümündən sonra sərkərdə Qütbəddin Aybək(1179-1236) Dehli sultanlığının əsasını qoydu.

Xarəzmilərdən və monqollardan uğurla müdafiə olunan Dehli Sultanları XIII əsrin sonlarında Hindistanın cənubuna hücumlar etməyə başladılar. Əzəmətli Dekan dövlətini özünə tabe edən Dehli Sultanı Qütbəddin Mübarək(1316-1320) özünü Hindistanın "əmirəl möminin" adlandırdı. 1399-cu ildə Orta Asiya hakimi Əmir Teymur(1336-1405) Dehlini fəth etdi. Dehli Sultanları belə bir qorxunc hücumdan yalnız yarım əsr sonra özlərinə gələ bilmişlər.

1519-cu ildən Hindistana hərbi səfər etmiş Teymur nəslindən olan Babur Zəhirəddin Məhəmməd(1526-1530), 1526-cı ildə Dehlidə sultanlıq edən Lodilər sülaləsini devirərək O, Kabildən Benqaliyayadək ərazini ələ keçirib və "Böyük Moğollar" İmperiyasının (1526-1858) əsasını qoydu. Bütün Hindistan torpaqlarını zəbt etmiş Moğollar iki əsrlik çiçəklənmə dövründən sonra İran və Türkmənistan hakimi Nadirqulu Əfşarın(1688-1747) güclü və qəflətən hücumu nəticəsində əvvəlki şöhrətini itirir.

XIX əsrdən başlayaraq İngilis işğalçılarının tapdağı altında inləyən Hindistanın son Moğol hökmdarı 1858-ci ildə taxtından salındı. Bununla da Hindistanda İslam dininin ölkə səviyyəsində siyasi hakimiyyəti sona çatdı. Lakin zaman keçdikdən sonra (1857-59) Hind xalqı İngilislərə qarşı azadlıq üsyanına başladılar.

1857-ci ilin mayın 10-da Mirut şəhərində üsyançı xalq ordusu yerli əhali tərəfindən müdafiə olundu. Üsyançılar tarixi "Böyük Moğollar" hakimiyyətini bərpa edərək, Şah II Bahadırı(1837-1858) vətənin azadlığı uğrunda müharibəyə sövq etdilər. İngilis kraliçası Viktoriyanın fırıldağı ilə üsyanda iştirak edən feodallar bağışladı və onlara mülkiyyət hüquqları verildi.

1858-ci il avqustun 2-də İngiltərə parlamenti Ost-Hind şirkətinin ləğv edilməsi və Hindistanın idarə edilməsini metropoliyaya verilməsi haqqında qanun qəbul etdi.

1859-cu ilin aprelində İngilis müstəmləkəçi qüvvələri, Hindistanda azadlıq və din uğrunda mübarizəyə qalxmış müsəlman əhalisini məhv etdilər və məscidləri dağıdaraq yandırmışlar. Yalnız Aqra şəhəri yaxınlığında, Camna çayının sahilində Moğol hökmdarı Cahan şah(1627-1658) tərəfindən tikdirilmiş Tac-Mahal məscidi və tarixi memarlıq abidəsi günümüzədək Allahın (c.c.) qüdrətilə salamat qalmışdır.

Tac-Mahal memarlıq abidəsinin tikilmə səbəbi, Cahan şahın arvadı Mümtaz Mahad Banu Bəyimin(1630-1652) məzarı üzərində və sonradan isə Cahan şahın özü də həmin möhtəşəm binada (türbədə) dəfn olunması idi. Binanın hündürlüyü 74 metr və künclərindəki 4 minarələrin hündürlüyü isə 45 metrdir. Türbənin divarları cilalanmış ağ mərmərdən tikilərək, qiymətli daşlarla (inkrustasiya) örtülmüşdür. ("Şəhriyar" qəzeti, 1997 / № 32; "ASE"-sı 10-cu cild, Bakı-1987).

> *"Kim yaxşı bir iş görərsə, ona həmin işin on qat əvəzi (savabı) verilər. Kim pis bir iş görərsə, ona həmin işin misli qədər cəza verilər..."*
>
> **(Ənam surəsi, 160)**

"Bir şəxsi yaxşı tanımamış, onunla dostluq etmə."

(İmam Həsən (ə))

Dinlər və dindarlar haqqında nə bilirik ?

Ümumi məlumat. Amerika Birləşmiş Ştatlarının "Pyu" tədqiqatlar mərkəzinin dini və ictimai Forumu 2010-cu ildən başlayaraq dünyanın 232 ölkəsində 2,5 min vətəndaşı siyahıya almış və "Dünya dinlərinin mənzərəsi" adında elmi- mənəvi araşdırma aparmışdır. Tədqiqatın nəticəsində aydın olub ki, coğrafi baxımdan dünyada ən çox yayılan xristian dinidir. Həmin din dünyanın bütün dövlətlərində yayılmışdır.

Dünyada ən az yayılmış din isə hinduizmdir ki, onun etiqadlı dindarları (94%) təkcə Hindistan dövlətindədir. Dindarlar arasında ən cavanlar İslam dininə etiqad edənlərdir ki, bunların orta yaş həddi 23 il təşkil edir. Bununla yanaşı dindarların ən yaşlıları isə Yəhudi dininə (Musəvi) etiqad edənlərdir ki, onların orta yaş həddi 36-dır.

Xristianlıq (İsavilik). 2010-cu ildə əhalisi 6,9 milyard olan planetimizin 5,8 milyardı (84%) hər hansı bir dinə aid olduğunu bildirir. Onların üçdə biri yəni 2,2 milyard (31,5%) Hz. İsa Məsihin (ə) ardıcıllarıdır. Xristianlığın daxilində isə ən çox saylı katoliklərdir ki, hər iki xaçpərəstdən biri özünü katolik hesab edir.

Protestantların sayı 37%, ortodoks pravoslavlar isə 12% təşkil edir. Bu dinin ən azsaylı məsləkdaşları mormonlar və Yeqova ardıcıllarıdır. Coğrafi əraziyə gəldikdə isə, ən çox xristian Avropada (26%), Latın Amerikasında Karib adalarında (24%), Afrikanın Saxara səhrasından cənubdakı ərazidə (24%) yaşayırlar.

Şimali Afrikada və Yaxın Şərqdə isə ən az, cəmi 1% xristian yaşayır. Həmçinin xristianlar 232 ölkənin 157-sində çoxluq təşkil edir. Onların əsas məskunlaşdığı ölkələr arasında ABŞ- 11%, Braziliya- 8%, Meksika- 5% Və Rusiya- 4,8% vardır. Dünya əhalisinin orta yaş həddinin 28 olduğu halda, xaçpərəstlərin orta 30 yaş həddi heç də az deyil.

İslam. Dindarlar arasında sayca ikinci yerdə müsəlmanlardır. Onların sayı hazırda 23,2%-ni təşkil edir. Xristianlar yer üzündə nisbətən bərabər yaşayırlarsa, müsəlmanlar əsasən Asiya- Sakit okean regionunda məskunlaşıblar. Burada onların sayı 985,5 milyon, yaxud 62% təşkil edir. İslam ardıcıllarının 3% Avropada, Şimali və Cənubi Amerikada isə bundan da az, cəmi 1% yaşayır.

Müsəlmanlar 49 ölkənin əhalisi içərisində çoxluq təşkil edirlər. Həmin ölkələrdə onların cəmi sayından 75% yaşayır. Şimali Afrikada və Yaxın Şərqdə müsəlmanların əksəriyyəti- 93% yaşayır. Hər səkkiz müsəlmandan biri- 13%- İndoneziyada, Hindistan və Pakistanda- 11% yaşayır. Müsəlmanlar sayca xristianlardan az olsalar da, onların sayı bütün digər dinlərə nisbətən daha sürətlə artır. Bunun faktorları arasında müsəlmanların daha gənc olması- orta yaş səviyyəsinin cəmi 23 yaş olmasıdır. İslam iki əsas məzhəbdən- sünnilərdən və şiələrdən ibarətdir.

İnduizm. Bu dinin davamçılarının sayı 1,3 milyard nəfərdir ki, bu da əhalinin cəmi 15%-dir. Onların tam əksəriyyəti Asiya- Sakit okean regionunda yaşayır. Ayrılıqda dövlətlərə gəldikdə isə Hindistanda induistlər 94,3%, Nepalda isə 2,3% yaşayır.

Buddizm. İnduistlərlə nisbətdə buddistlər daha az, cəmi 488 milyon, dünya əhalisinin 7,1%-ni təşkil edirlər. İnduistlər kimi onların da əksəriyyəti Asiya-Sakit okean regionunda yaşayırlar- 98,7% Buddistlərin ən çox məskunlaşdığı ölkələrə gəldikdə, bu Çin (50,1%), Tailand (13,2%) və Yaponiyadır (9,4%).

Dünya əhalisinin 5,9%-i (405 milyon) müxtəlif xalqların inanclarına etiqad edirlər. Daha 58 milyon (0,8%) taoizm, caynizm, şintoizm, sikxizm, tenrike, vikke və atəşpərəstliyə inanırlar. Ən az saya isə yəhudilər malikdir. Onlar cəmi 14 milyondurlar ki, bu da dünya əhalisinin 0,2%-ni təşkil edir. ("Haqqın nuru" qəzeti, 2012 / № 51).

Dünya həyatında müsəlman əhalisinin ümumi sayı 900 milyon nəfərdən çoxdur. Müsəlmanların əksəriyyəti Qərbi, Cənubi və Cənub-Şərqi Asiyada və Şimali Afrikada yaşayır. Dünya həyatında müsəlman icmaları 120-dən çox ölkəsinin 35-də əhalinin nüfuzları aşağıdır.

Afrika və Asiyanın 43 dövləti, habelə Fələstin Azadlıq Təşkilatı İslam Konfransı Təşkilatında (İKT) birləşmişlər ki, həmin dövlətlərdə 535 milyondan çox müsəlman yaşayır. 28 ölkədə (Misirdə, Küveytdə, İranda və başqa ölkələrdə) İslam dini dövlət (və ya rəsmi) dini hesab edilir. Onlardan bəzilərində "islam" sözü ölkənin (İran, Mavritaniya, Pakistan) rəsmi adına daxil edilmişdir.

Avropa qitəsində müsəlmanların sayı 25 milyon nəfərdən çoxdur. Belə ki, 3,4 milyon nəfərdən çox Yuqoslaviyada, 1,8 milyon nəfəri Albaniyada, 1,3 milyon nəfəri Böyük Britaniyada, 1 milyon nəfəri Almaniyada, 500 min nəfərdən çox Fransada yaşayırlar. Bolqarıstanda, Rumıniyada, Yunanıstanda, Belçikada, İsveçrədə, Hollandiyada, Avstriyada böyük müsəlman icmaları vardır ki, hətta digər Avropa ölkələrində müsəlmanların ayrı-ayrı qrupları da yaşayır.

Müsəlman əhalinin ən çox hissəsi Albaniyada (70%), Yuqoslaviyada (15%) yaşayır. Bu ölkələrdə yerli əhalinin bir hissəsi İslam dininə etiqad bəsləyirlər. Avropa müsəlmanlarının əksər hissəsi sünni təriqətlidir. Son onillikdə Qərbi Avropa ölkələrində bəhailik sünni təriqəti artmışdır. Həmin təriqətçilər əsasən AlmaniyanınŞtuttart şəhərinə geniş vüsət almışdır.

1968-ci ildən Parisdə Beynəlxalq Müsəlman İttifaqları fəaliyyətdədir ki, məqsəd "İslam sivilizasiyası" haqqındakı bilikləri təbliğ etməkdir. Avropadakı İslam mərkəzlərinin əlaqələndirici orqanı 1973-cü ildə Londonda yaradılaraq və 32 təşkilatı birləşdirən Avropa İslam Şurasıdır. Həmin mərkəzə Azərbaycan Respublikası da üzvdür.

Xarici Asiya ölkələrində 510 milyon, yəni dünya müsəlman əhalisinin 67,7% (xarici Asiya ölkə əhalisinin 20,7%) qədər müsəlman yaşayır. 1932-ci ildən (İngiltərə tərəfindən yaradılmış) monarxiyalı krallıqdır olan Səudiyyə Ərəbistanında (paytaxtı Ər-Riyaddır) müsəlman əhali 7,7 milyondur (95%) ki, yarısı (50%) vəhhabi məzhəbli sünnilərdir.

Amerika qitəsində İslam dininin 1,4 milyondan çox tərəfdarı vardır ki, onların əksəri (800 min nəfərdən çox) ABŞ-ın iri şəhərlərində yaşayırlar. Bundan başqa qitədəki dövlətlərdən Argentina və Braziliyada (hərəsində 100 min nəfərdən çox), Kanadada (100 min nəfər), Qayana və Surinamda (hərəsində 80 min nəfərdən çox), Trinidad və Tobaqo adalarında (ikisində 70 min nəfər), müsəlmanlar yaşayır. Qvianada, Kolumbiyada, Nikaraquada, Çilidə, habelə Yamaykada, Haitidə və Karib dənizinin adalarında da müsəlman icmalar vardır.

Amerika ölkələrinin əksəriyyətindəki müsəlmanlar, Yaxın və Orta Şərq ölkələrində, İndoneziyadan və Hindistandan gəlmiş mühacirlərdir. Qayananın, Surin və Trinidadın müsəlmanları plantasiyalarda işləmək üçün XIX əsrdə buraya gətirilmiş hindlilərin (Surinamda isə həm də indoneziyalıların) xələfləridir. ABŞ müsəlmanları iki qrupdan-Asiyadan gəlmiş mühacirlərdən və afrikalı zənci qulların xələflərindən ibarətdir. Belə ki, qitədəki Afrikalılar arasında "Qara müsəlmanlar" təşkilatının böyük nüfuzu vardır. Həmin təşkilatın 250 mindən artıq tərəfdarı vardır.

Afrika qitəsində 216,8 milyon müsəlman (bütün müsəlman əhalisinin 28,8%-i) yaşayır ki, əksəriyyəti (90%-i) Şimali Afrika ölkələrindədir.

Avstraliya(YeniZelandiya) və Okeaniya adalarında müsəlmanların sayı 250 mindən çoxdur. Ən böyük müsəlman icması Avstraliyada (200 min nəfərdən çox) və Fici adalarında (50 min nəfərdən çox) yaşayır. Müsəlmanlar kiçik qrup halında Kiribatidə (Gilberta adaları), Solomon adalarında, Yeni Zelandiyada, Yeni Kaledoniyada, Papua-Yeni Qvineyada, Vanuatuda (Yeni Hebrid adalarında), Quam adasında yaşayırlar. Bundan başqa Kokos adalarında (Gilinq adasında) malayalı müsəlmanlar əhalinin əksər hissəsini (70%), Milad adasında təqribən üçdə bir hissəsini təşkil edirlər.

Adalarda İslam dinini XIX əsrin 20-ci illərindən Hindistandan, Pakistandan, Malayziyadan, Çindən gələn mühacirlər yaymışlar. Müsəlmanlar demək olar ki, hamısı sünni məzhəbli dindarlardır. Avstraliyanın, Yeni Zelandiyanın, Yeni Kaledoniyanın, Papua- Yeni Qvineyanın və Ficinin müsəlman icmaları, Cənub-Şərqi Asiya və Sakit Okean Ölkələri İslam Təşkilatında təmsil olmuşlar. (ASE-nın Baş Redaksiyası, "İslam", Bakı-1989; Ş.Göyçayski, "Əhali coğrafiyası" Bakı-1979).

Hər il ABŞ-da orta hesabla 200 min, Almaniyada 4 min, Fransa və İngiltərədə isə 5 mindən çox insan İslamla şərəflənir. Digər Avropa ölkələrində də minlərlə insan İslamı qəbul edir. Qərbdə müsəlmanların sayının artması ilə yanaşı, məscid və İslam mərkəzlərinin də sayı sürətlə artır. Amerikada olan 1209 məscidin böyük əksəriyyəti son zamanlarda tikilib. Almaniyada 2200-dən çox, İngiltərədə 2000, Fransada 1900, İtaliyada 450, Avstriyada 330, Belçikada isə 240 məscid və İslam mərkəzi fəaliyyət göstərir. ("Düşünən insan" jurnalı, 2011 / № 3).

1991-ci ildən keçmiş Sovetlər İttifaqı deyilən 15 müttəfiq respublikalar birliyi dağılaraq, hər xalq ayrı-ayrılıqda müstəqillik hüququ qazandı. Hazırda yeganə Ermənistandan başqa digər müstəqil dövlətlərdə müsəlman əhali sərbəst yaşayır. Rusiya Federasiyasının ümumi əhalisinin 36%-i türk dilli etnik mənşəli müsəlman xalqlarıdır. Ən çox olan müsəlman icmaları Şimali Qafqaz, Volqaboyu və Qərbi Sibir bölgələrində, hənəfi məzhəbli sünnilərdir.

2020-ci ildən dünyada Türk İslam Birliyi yaranacaqdır. Dövlət bayrağının rəmzi tam qırmızı rəngli müsəlman ölkəsi isə, İslam Birliyinin yaradıcısı olacaqdır. Azərbaycan Respublikası (paytaxtı Bakı), şiyə məzhəbli müsəlman əhali 86%, (əhalinin sayı 9 milyonu keçmişdir). Azərbaycan Respublikasında əhalinin sayı 9 milyon 224 min 500 nəfər, o cümlədən də, Naxçıvan Muxtar Respublikasında (paytaxtı Naxçıvan) 917 min 692 nəfərdir. (2012-ci il yanvar ayının statistik məlumatı).

Türkmənistan Respublikası (paytaxtı Aşqabad), hənəfi məzhəbli sünni müsəlman əhali 96%, Özbəkistan Respublikası (paytaxtı Daşkənd), hənəfi məzhəbli sünni müsəlman əhali 72%, Qazaxıstan Respublikası (paytaxtı Astana), hənəfi və şafii məzhəbli sünni müsəlman əhali 57%, Qırğızıstan Respublikası (paytaxtı Bişkek), hənəfi məzhəbli sünni müsəlman əhali 75%-dir. Farsdilli Tacikistan Respublikasında (paytaxtı Düşənbə), şiə məzhəbli müsəlman əhali 96%-dir.

Əzəli Azərbaycan türklərinin torpağı olan qədim İrəvan xanlığı, hiylə və zorakılıqla ermənilərə pay verilərək Ermənistan Respublikasını yaratmışlar. Müsəlmanların yaşadığı kənd, qəsəbə və şəhər yaşayış məntəqələrindəki qəbiristanlıq və məscidlər Erməni daşnakları tərəfindən vəhşiliklə sökülmüşdür.

Ermənilər qədim Göyçə gölünün adını dəyişib Sevan və mahalın da adını Vardenis qoyublar. Basarkeçərdəki Toğulca, Ağbulaq, Sarıca, Ərdəniş və Cil kəndləri, Krasnoselsk rayonuna qatılıb. 1988-ci ildə ermənilər müsəlman qəbirlərini sökərək dağıtmışlar. ("ASE"-sı, 10 cilddə (VI cild) Bakı-1982, səh. 111; Ə.Hacızadə, "Azərbaycan əhalisi, məskunlaşması" Bakı-1964).

"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!" (Quran, Əhzab surəsi ayə 70

“Dünyanın işi başdan ayağa azar və niyazdır.”

(Qabus (Keykavus)

Xeyirli sözlər

Həzrəti Məhəmməd(s) Peyğəmbər demişdir ki; “Elm ağlın rəhbəridir.” Allah- təala ağılı bəxtiyar kəslərə ilham edər, bədbəxt kimsələri ondan məhrum qoyar.

Ağıllı ad xüsusiyyətləri bunlardır: Ona qarşı cahillik edənə yumşaq davranar; ona haqsızlıq edəni bağışlayar; ondan aşağıda olanlara təvazökar olar; yaxşılıqda özündən üstün olanlarla yarışar; danışmaq istədikdə əvvəl düşünər; danışacağı yaxşıdırsa, söyləyər və faydalanar; əgər pisdirsə, susar və xilas olar. Bir fitnə ilə qarşılaşdıqda Allaha sığınar. Əlini və dilini fitnədən qoruyar. Bir fəzilət gördükdə qənimət bilib əldə etməyə çalışar. Həyanı tərk etməz, onda ehtiras görülməz.

Cahil ad xüsusiyyətləri bunlardır: Münasibətdə olduğu şəxsə haqsızlıq edər, özündən aşağıdakılara zülm edər, üstünlərə yaltaqlanar, düşünmədən danışar, danışığında günaha düşər, susduqda qəflətə dalar. Bir fitnə ilə qarşılaşdıqda ona doğru qaçıb həlak olar. Bir fəzilət gördükdə üz çevirər və ağır davranar. Keçmiş günahlarından qorxmaz. Qalan ömründə də günah işləməkdən imtina etməz. Xeyir işlərdə süstlük göstərər. Əlindən çıxan və zay etdiyi xeyirlərə əhəmiyyət verməz. (“Haqqın nuru” qəzeti, 2014 № 37).

“Məclisdə arif ol, sözləri dinlə, el iki söyləsə sən birin söylə,
Əlindən gəldikcə yaxşılıq eylə, xətrinə toxunub yıxıcı olma.”

Firəng filosofu Mişel Monten(1533-1592) demişdir ki; “Həyatın ölçüsü onun uzunluğunda deyil, bu həyatdan necə istifadə olunmasındadır...” “Təcrübələr” adlı əsərində həyatda müxtəlif insanların yaşam tərzini yazıb göstərmişdir. Mişelə görə insan öz xoşbəxtliyini yalnız dünya həyatında axtarıb tapmalıdır.

Qoca Şərqin nəsihətli kitablarından biri sayılan “Qabusnamə”, bütün dünya oxucuları üçün maraqlıdır. Nəsihətnamə kitabı bütün dövrlər üçün əhəmiyyətli olduğundan bu gün də öz əhəmiyyətini itirməmişdir. Kitab 475-ci Hicri qəməri (Miladi 1082-1083) ildə İranın Ziyarilər xanədanının son hökmdarı Ünsürülməali Keykavus ibn İsgəndər, ibn Qabus, ibn Vəşmgir, ibn Ziyar tərəfindən oğlu Gilanşaha gözəl və faydalı bir “nəsihətnamə” kimi yazılmışdır.

Keykavus anasının on üçüncü babası Ənuşirvanın qardaşı olmuşdur. Keykavus 461-ci Hicri qəməri (Miladi 1021-1022) ildə anadan olmuşdur. Həmin illərdə Ziyarilər tayfasından olan Mənuçöhr hakim idi. Mənuçöhrin ölüm tarixi Miladi 1039-cu il olduğundan ondan sonra Miladi 1049-cu ilə qədər Ənuşirvan hakim olmuşdur. Miladi 1041-ci ildə Keykavus 20 yaşında olanda Qəznəyə nədimliyə (həmsöhbət kimi lətifə söyləməyə) getdiyindən, onun hökmdar olmasına heç də şərait yaranmamışdır. (E.G.Bertels, "Qabusnamə" Moskva-1958).

Allahı dərk etmək haqqında; İnsan oğlu dünyada hər nə varsa hamısını dərk edə bilər yalnız böyük Yaradandan başqa. İnsan o zaman Allahı (c.c.) dərk edə bilər ki, özünü dərk edə bilsin. Sən yaradılmışa diqqət elə ki, Yaradanı Ruhən dərk edə biləsən.

Hz. Peyğəmbər (ə) buyurmuşdur ki; "Allahın nemətləri haqqında fikirləşin, zatı haqqında fikirləşməyin." Kim təkliyin mahiyyətini anlasa o, müşriklərdən azad olmuş kimidir. Təklik yalnız böyük Yaradana xasdır Ondan başqa nə varsa hamısı cütdür. Tovhidin mahiyyəti ondan ibarətdir ki, hər bir şeyin Allah (c.c.) olmadığını biləsən, onların şəriki və tayı olmayan bir Allah (c.c.) tərəfindən yaradıldığını qəbul edəsən.

"Bir qəpik xeyrə yalan and içmə, namərd körpüsündən çalış sən keçmə,

Özgənin malında olmasın gözün, heç yalan danışma, düz olsun sözün."

Peyğəmbərlər haqqında; Böyük Yaradan bu dünyanı məqsədlə yaratmış və onu hikmət əsasında qurmuşdur. Çünki O, varlığı yoxluqdan, xeyri şərdən, bolluğu qıtlıqdan, gözəlliyi eybəcərlikdən daha yaxşı olduğunu biləndir. Allah (c.c.) insanlara peyğəmbərlər göndərdi ki, onlar bilik, ruzi və şükür etmə qaydalarını öyrətsin. İnsan 124 min elçini (Adəmdən Xatəmə qədər) qəbul etməli, İslam ehkamlarını yerinə yetirməli və gözəl əməllərlə tərifləmələdir.

> *"Gözünü aç! Dünyaya bax, şimşək ol, qəlbində çax,*
> *Keçmişini yadına sal, yoxsulların qəlbini ələ al."*

Nemət verənə minnətdarlıq haqqında; Nemət sahibinə minnətdarlıq lazımdır Allaha (c.c.) göndərdiyi kitablarına və elçilərinə şəhadət gətirmək lazımdır. Gündə beş dəfə namaz qılıb və ildə bir ay müddətində oruc tutulmalıdır. Namaz və Oruc ibadətləri Allaha (c.c.) xasdır və hər kim bu ibadətlərdən əl çəksə o, bütün dünyadan əl çəkməli olar.

"Dünyaya hamımız qonaq gəlmişik, ömür yollarında yollar seçmişik,

Kimimiz əyrini, kimimiz düzü, düz yolu seçənin ağ olub üzü."

İtaətin artırılması haqqında; Allah (c.c.) imkanlı adamlar üçün daha iki ibadət təyin etmişdir ki, onlar Həcc və Zəkatdır. Onlara Həcc (Kəbəni) ziyarəti vacibdir ki, Allahın (c.c.) verdiyi nemətlərin qədrini bilsin. Həccə getmək üçün beş şərt lazımdır ki, onlar sağlam bədən, nemət, vaxt, hörmət və əmin-amanlıq. Həcc əməli təxirə salına bilər, lakin Zəkatı təxirə salmaq olmaz. Zəkat ildə bir dəfə verilsə də Sədəqə hər vaxt verilə bilər. Bilmək lazımdır ki, istər Zəkat və istərsə də Sədəqə verməklə, varlılar kasıbları sevindirib və Allahın (c.c.) himayəsində olarlar.

"Varlığındır ata, ana, ölüncə borclusan ona,
Onların qəlbinə dəymə, adlarını yerə salma."

Valideynə hörmət haqqında; İnsan özünə və Yaradanına hörmət və ehtiram etdiyi qədər öz valideynlərinə də hörmət etməlidir. Çünki onlar da sənin Allah (c.c.) arasında vasitədir. Ata və ananın qəlbini incidənə Allah (c.c.) da ağır cəza verər. Öz övladınızın sənə qarşı necə olmasını arzulayırsansa sən də öz ata və anana qarşı elə ol. Miras xatirinə valideynlərinin ölümünü arzulayan cəhənnəmlikdir.

Bilik və sənət haqqında; Bilik və sənəti olmayanlar gövdəsi olub və yarpaqsız tikanlı Muğilan ağacı kimi faydasızdır. Biliklər içərisində ən gözəli danışığı xoş olandır. Çünki, dili xoş olanın tərəfkeşi də çox olar. Allah (c.c.) insana on xüsusiyyət vermişdir ki, onlar təfəkkür, hafizə, təxəyyül, təsəvvür, nitq, eşitmə, görmə, qoxu bilmə, toxunma və dad bilməkdir. Yersiz deyilən söz gözəl olsa belə çirkin görünər. Ədalətli ol ki, ədalət görəsən xoş söz de ki, xoş söz eşidəsən. Nə qədər böyük sənətkar olsan da heç vaxt biliyinlə qürrələnmə.

"İnsanın da yetişməmiş, kalı var, yetişmiş insan cəmiyyətə verər bar,

Özü də, sözü də çox şirin olar, çox uzun müddətdə yaddaşda qalar."

Natiqlik məharəti haqqında; İnsan söz deməyi bacarmalı pis adamlardan isə dilini saxlamalıdır. Doğru danışan ol və yalana oxşar doğru danışma. Söz dörd cürdür ki, birini nə bilərlər nə də deyərlər birini bilərlər və həm də deyərlər, birini deyərlər lakin bilməzlər və birini də bilərlər lakin deməzlər. Bilinməyən və deyilməyən sözlərin deyilməsi ziyan gətirər. Bu dörd cür sözün hərəsinin iki üzü vardır ki, biri gözəl və biri də çirkindir. Hər adam öz sözünün altında gizlənər. Ağıllı adamları sözlərinə görə tanıyarlar sözləri adamlara görə yox. Söz var deyərsən insanın ruhu təzələnər söz var deyərsən ad qəlbi kədərlənər. Hər deyilən sözə qulaq as lakin əməl etməyə tələsmə. Çox bilən lakin az danışan ol, az bilib çox danışan olma.

"Cavanlığı qənaətlə xərcləsən, qocalanda yaman günə düşməzsən,

Gəncliyin bir günü, bir ilə dəyər, qocalanda bunu, anlasan əgər."

Cavanlıq və qocalıq haqqında; Cavan olsan da qoca ağıl yəni özünü ələ alan ol. Cavanlıqdan istifadə et ki, qocalanda bacarmazsan. Cavan olanda Allahı (c.c.) unutma və ölümdən qorxma. Cavanlar özlərini ağıllı və çoxbilən hesab edərlər lakin bütün bunlar qocalara hörmətsizlikdir. Ləyaqətini qoruyan cavan yüngülbeyin qocalarla oturub durmamalıdır. Qocalanda eşqə düşmək saqqalını ələ verib yoldurmaq deməkdir. Cavanın günəşi şərqdə qocanınkı isə qərbdə olar ki, tezliklə batar. Qocalığın iztirabını qocalardan başqa heç kəs bilməz. Qocalıqda səfərə çıxmaq pis işdir xüsusilə yoxsul üçün. Çünki həm yoxsulluq və həm də qocalıq düşməndir.

"Yemək yesən artıq yemə, kasıba bədiə demə,
Kasıb kimdir düşün, həyatda yaşa vicdanla."

Yemək haqqında; Elə etmək lazımdır ki, səhər bir şey yeyib və işə çıxa bilәsən. Gecə yemək insana ziyan gətirər və mədə qıcqırar. Yemək yeyərkən "bismillah" la başla və qurtaranda "əlhəmdulillah" deyərək dua et. Yeyərkən tələsmə təmkinlə ye və süfrə ətrafındakıların tikəsinə baxma. Süfrə başında qaş-qabaqlı oturma.

"Bu dünya xəsisdir sən ona çəkmə, barsız ağacları bağında əkmə,

Əlin açıq olsun səxavətli ol, başını dik tut, qəddini bükmə."

Qonaq etmək və qonaq getmək haqqında; Yad adamları qonaq çağırmağa çalışma qonaqlara qayğı göstər və onlara mehribanlıq et. Xörəkdən əvvəl süfrəyə meyvə qoyulsun özün aşağıdan otur və qonaqdan üzr istəmə. Qonaq gedəndə ac getmə tox da olma ki, orada bir şey yeyə biləsən.

"Vüqar çayın axarıdır, bığ saqqaldan yuxarıdır,
Zarafatı saxla gerçək, özgədən gözləmə kömək."

Zarafat, nərd və şahmat haqqında; Zarafat bütün bəlaların bələdçisi olduğundan ondan uzaq dur. Nərd və şahmat oyununu hərdənbir oyna və oyunda nəzakəti qoru.

"Gözəl olsan həddi aşma, eşqbazlıq yolun çaşma,
Hər alverin var öz yeri, itirdiyin dönməz geri."

Eşqbazlıq haqqında; Eşq təbiətin zərifliyindən yarandığı üçün kimin təbiəti zərif olmasa o, aşiq ola bilməz. Cavanların təbiəti qocalara nisbətən daha incədir. İstər kobud və ya incə təbiətli olsan da çalış ki, aşiq olma. Aşiqlik çox başıbəlalı bir işdir. Əgər birindən xoşun gələrsə ürəyinə salıb onun haqqında düşünmə. Heç vaxt şəhvət düşkünü olub iztirab çəkmə. Aşiqlik şirin də olsa başdan ayağa məşəqqət və iztirabdır. Ağıllı adamlar özlərini aşiqlikdən qoruya bilərlər. İnsan dostluqdan ləzzət aşiqlikdən isə Züleyxa kimi əziyyət çəkər.

"Vaxtını keçirmə "barda", vaxt gələr qalarsan darda,
Keyf yeməklərini qusarsan, gedib özünü asarsan."

Kef çəkmək haqqında; Birisini sevsən ayıq və məst halda onunla cinsi əlaqədə olma. Arvadınla cinsi əlaqədə heç vaxt sərxoş olma. Nə vaxt yadına düşdü həmin vaxtı onunla yaxınlıq etmə, çünki bu heyvani xasiyyətdir. Çox vaxt cinsi əlaqədə olmağın ziyanı xeyrindən çoxdur. Yayın istisi və qışın soyuğu yaşlı adama ziyanı vardır. Baharda bədəndə olan dörd ünsür; abi, atəşi, badi xak (su, atəş, yel və torpaq) gücləndiyindən müvazinət yaranır və damarda qan artdığından təbii ehtiyacın ziyanı azalır. Fəslə zidd heç nə yemədiyin kimi, yay və qışda da qadına çox meyl etmə.

Hamamda çimmək haqqında; Hamamda çimərkən tox olma ziyanı var. Hər gün hamamda çimmək zərərlidir. Qışda və yayda hamama gedəndə əvvəl soyuq otaqda otur ki, bədənin hərarəti bərabərləşsin. Hamamda çox qalma çimərkən ilıq sudan istifadə et. Hamamda soyuq su içmə zərərlidir. Hamamdan çıxarkən saçını yaxşıca qurula.

Yuxu və istirahət haqqında; Yuxu kiçik ölümdür çünki dünyadan xəbərsiz Ruh, bədəndən müvəqqəti ayrılır. Çox yatmaq ziyan olduğu kimi az yatmaq da zərərlidir. Ağıllı adamlar sutkanın bir hissəsini yatıb istirahət edər və iki hissəsini də ayıq olarlar. Sübh tezdən yuxudan durmaq yaxşıdır. Gün çıxandan sonra yuxudan duranın ruzisi az olar.

"Gözəl olmasaydı bülbülün səsi, məkanı olmazdı dəmir qəfəsi,

Bəladır gözəllik hər uçan quşa, ulamaq zövq verər, ancaq bayquşa."

Ovçuluq haqqında; Hər gün ova çıxmaq olmaz. Ova gedərkən tək getmək yaramaz heç olmasa yoldaşın sadiq və vəfalı tazı cinsli köpək olmalıdır. Vəhşi heyvan dalına düşüb getmək lazımsız və təhlükəlidir.

"Sürətlə qaçma, yavaş get yolu, çox dəhşətli olar ömrünün sonu,

Nə qədər həyat var, müxtəlif yol var, bacar ki, bu yolu gedəsən aşkar."

Top (çövkan) oynamaq haqqında; Hər kəs çövkan oyunundan həzz alarsa bilmək lazımdır ki, idman oyunlarının ən zərərlisidir. Rəqibin əlindəki uzun ağac zərbəsindən xaya xədim və göz isə tökülüb kor olar.

Döyüş haqqında; Döyüş meydanında yavaş tərpənib süstlük yaramaz. Döyüşdə irəliləmək mümkinsə geriyə dönmə. Mühasirəyə düşəndə də vuruşmanı dayandırma. Düşmən igid adamdan qorxub ram olar. Nahaq qan tökməyə həvəs göstərmə. Müsəlmanın qanını halal hesab etmə.

"Dünən yoxsul idin birdən varlandın, sahibi olarsan dövlətli adın,

Bacar harınlama düşün dünəni, anla ki, qaldıran endirər səni."

Mal-dövlət haqqında; Mal-dövlət ələ gətirmək mümkinsə fürsəti fövt edib və özünü təhlükəyə atma. Əlinə pul gəlibsə xərcləyəndə əvəzini tez yerinə qoy ki, Misir xəzinədarı Qarun olsan da qurtarar. Başqalarına möhtac olmamaq üçün gərəkdir ki, çıxarla gəlir tarazlana. Nəyin varsa ona da qane ol çünki qənaət özü dövlət deməkdir. Pulu sələmlə verib və sələmlə də alma. Borc verdikdə onu artıq özününkü hesab etmə. Borcludan özü qaytarmayınca borcunu istəmə.

"Fəxr etmə haram pulundan, qudurub çıxma yolundan,
Haram pulun vəfası yox, şirini az, acısı çox."

Əmanətçi haqqında; Bir şəxs sənə əmanət verərsə götürmə elə ki, götürdün Allahdan qorx və möhkəm saxla. Əmanətə tamah salıb və onu dansan bu çox pisdir. Götürdüyün əmanət itərsə buna heç kəs inanmaz və xalq arasında xain adlanarsan. Sonradan tapıb özündə saxlasan haramdır günaha batarsan və istifadə edə bilməzsən.

"Yaxşı qonşu var dövlətdən yaxşıdır, ömrə bəzəkdir həyat naxışıdır,

Sən dara düşəndə əlindən tutar, ağır gündə sənin dadına çatar."

Mülk almaq haqqında; Alınıb satıla bilən hər nə alırsansa qanunla et. Hər nə alırsan bolluqda al hər nə satırsan qıtlıqda sat. Hər işdə səbirli ol səbirli olmaq ağıllı olmağa bərabərdir. Bütün işlərində laqeyd olma çünki laqeydlik axmaqlığa bərabərdir. Ev almaq istəyirsənsə elə yerdən al ki, qonşular etibarlı olsun. Evinə köçəndən sonra məhəllə adamları ilə mehriban ol. Torpaq alanda qonşusu və su quyusu olmayan torpaq alma. Həyətin hasarını hamıdan uca tikdir ki, camaatın gözü sənin asudəçiliyini görməsin.

"Zatıqırıq arvad çox şeyi danar, ərini özünə bir xidmətçi sanar,
Bacar, arvadının əsiri olma, ona məhəbbətin içində yanma."

Evlənmək haqqında; Evlənəndə çalış ki, öz hörmətin qorunsun. Arvadını yaxşı saxla onu üzüyola mehriban və qayğıkeş olmağa öyrət. Mal-dövlətinə görə arvad alma və çox gözəlini də axtartma. Arvad ismətli, namuslu, dindar, evdar, ərini sevən, həyalı, təmizkar, sözəbaxan və əliəyri olmamalıdır. Arvad nə qədər gözəl olsa da onun əmrlərinə tabe olma! Bakirə qız ola-ola ər görmüşə meyl salma. Arvadı yaxşı ailədən almaq və kimin qızı olduğunu bilmək lazımdır. Arvad gərək həddi-buluğa çatmış və kamil olsun. Arvaddan şübhələnib qısqanmasan pulunu ondan gizlətməsən və yaxşı saxlasan sənə daha mehriban olar. Qeyrətsiz kişinin məsləki də olmaz!

> *"Cavanlıq ömrün novbaharıdır, bütün fəsillərin varı, şanıdır,*
> *Arzular gəncliyin qanadlarıdır, ərlə arvadın sevgi çağıdır."*

Ərin arvadına olan sevgisi haqqında; Qadının ərinə ürəkdən və səmimi şəkildə gülümsəməsi ona qarşı bəslədiyi sevginin nümunəsidir. Qadın ev məişət işlərində vaxtını elə qurmalıdır ki, əri evdə olmasın. Ər evə yorğun dönərkən qadın ərini gülərüzlə qarşılamalıdır ki, onun yorğunluğu mənən aradan qalxsın. Bu işi ürəkdən edən arvad Allah və əri qarşısında savab qazanmış olur.

Qadının doğuşdan sonra bədəninin çəkisi artaraq və əvvəlki gözəlliyi itir. Bütün bunlara səbəb qadının Yaradana qarşı etinasızlığıdır. Bədənin piylənməsi şəkər, ürək-damar, öd kisəsi və s. xəstəliklərə səbəb olur. Qadınların ərlərinə gözəl görünməsi üçün evdə bəzəkli olub gülərüz, işgüzar, səbirli və dindarlığıdır. Əgər bunlar olmazsa ərin arvadına olan sevgisi azalar.

"Var gücünlə qalxsan uca zirvəyə, zirvədən nəzər sal düzə, dərəyə,

Zirvədən enəndə ağrıyar dizin, zülmkar olsan qalmaz bir izin."

Ailə həyatınızın xoşbəxtliyi üçün yeddi şərt; 1) Ərlə öcəşmək olmaz. 2) Ərinizin xasiyyətini dəyişməsinə çalışmayın. 3) Ərinizi tez-tez danlamayın. 4) Bir-birinizə səmimi minnətdar olun. 5) Bir-birinizə kiçik diqqət yetirin. 6) Bir-birinizə xoşrəftar olun. 7) Ər-arvad həyatının şəhvaniyyət cəhəti haqqında yaxşı kitab oxuyun. "Sözsüz ki, hər kişinin qüsurları olur. Əgər o mələk olsaydı, qadınla ailə qurmazdı." (D.Karnegi, "Dostu necə qazanmalı" Bakı-1993).

Övlad tərbiyəsi haqqında; Övladın olarsa uşağa yaxşı ad qoy və qulaqlarına Azanla İqamət dualarını oxu. Uşaq ikən oğlunu sünnət etdirib ona Quran oxumağı, suda üzməyi və at minməyi öyrət. Övladına elm və sənət öyrət Oğluna qız alarkən və ya qızını ərə verəndə çalış ki, qohumlarından olmasın. Nə qədər ki, qızın evindədir onunla mehriban rəftar et. Qızını bakirə oğlana ərə ver ki, bir birlərinin qədrini bilsinlər. Kürəkən dövlətdə və şöhrətdə səndən aşağı olmalıdır ki o, sənin fəxr etsin. Belə olduqda qızın da ər evində rahat yaşayar.

“İnandığın dostu sına həmişə, bir gün onu vadar et ən çətin işə,
Əgər o, işə yetirsə tez əlini, ona inan həmişə bil qədrini.”

<u>Dostluq haqqında</u>; İnsan nə qədər yaşayır onun dosta ehtiyacı vardır. Dostu çox olanın ləyaqəti artar. Düşməninlə dostluq edəndən ehtiyatlı ol. Dostunla düşmənlik edənlərdən də özünü qoru. İstedadlı adamlarla dostluq et ki, hörmətlə tərifləsən. Danlanmaq istəmirsənsə dostların haqqını itirmə. Dostlarının çoxluğuna bel bağlama və əsl dost özünü hesab et. Yoxsul olsan dövlətli dost axtarma. Dostluqda möhkəm ol tamahkar və kinli dostdan qaç.

“Qanmaz yanında oturma, sərxoşun yanında durma,
Ədəb görünməz onlarda, onlar atlı, sən piyada.”

<u>Düşmənçilik haqqında</u>; Çalış özünə düşmən qazanma əgər olarsa kədərlənmə və ondan da qorxma. Düşmənin şirin dilinə uyma sənə şəkər versə sən onu zəhər bil. İki adamdan ehtiyatlı ol biri güclü düşmən, digəri isə xain dost. Çalış dostların sayı düşmənlərindən artıq olsun. Öz əcəli ilə ölən düşməninə sevinmə. Hirslənəndə səbirli ol, danışanda sakit danış və dilişirin ol. Nə qədər böyük və alicənab adam olsan da özündən aşağı adamla höcətləşmə.

“Bir işi görmədən sən vermə qərar, haqsız əməllərin bağırlar yarar,

Özünü qoy şikayətçi yerinə, haqsız əməl səni zillətə salar.”

<u>Cəza və əfv haqqında</u>; Hər xətadan ötəri adama cəza verməzlər. Günahın bağışlanmasını xahiş etsələr qəbul et. Cəza günaha müvafiq olmalıdır. Ehtiyac əsirliyə bərabərdir əsrlərə isə rəhm etmək lazımdır. Kimə ehtiyacın varsa özünü ona qarşı nökər kimi apar və məqsədinə çatandan sonra şükür edib tərifla. Allah (c.c.) şükür edənləri sevər.

“Kitab var vərəqi qiymətə dəyər, yolunu azanı hidayət edər,
Oxu o, kitabı mənasın anla, əgər pis yoldasan özünü danla.”

Fiqh (şəriət) elmi haqqında; Şəriət elmi qədər insana fayda verə biləcək elm yoxdur. Dünya elmlərindən faydalanmaq üçün ona uyğun peşən olmalıdır. Ən böyük elm şəriət elmidir çünki onun əsası Allah (c.c.) töräməsi İslam ehkamı, səmərəsi isə xalqındır. Fiqh (şəriət) elminə yiyələnən həm dünyanı və həm də axirəti qazanar. Fiqh elmini yaxşı öyrənən yaxşı ibarələr ifadə etməlidir ki, xəcalət çəkməsin. Qazı rütbəsinə çatan çalışmalıdır ki, səbirli, təmkinli, gözüaçıq, tədbirli, uzaqgörən, siyasətçi və məzhəblərdən xəbərdar olsun. Qazının sözləri qısa olub və şahidləri dindirməklə həyata keçməlidir. Qazı hökmlərini geri götürməməli əmrlərini də dəyişməməlidir. Qazının ən böyük hünəri elmi gözəl bilib və helmi də yaxşı mənimsəməsidir.

Ticarət haqqında; Tacirlik mənaca sənət olmasa da orada bazar qayda-qanunları vardır. Ticarətlə məşğul olmağa sövdəgərlik də deyərlər ki, bu da iki cürdür; biri sələmlədir digəri isə səfər. Sövdəgərin ən böyük zərəri mayadan yeməkdir. Mayası az olan sövdəgər şərikli ticarətdən qaçmalıdır. Mümkün olduqca nisyə alver etmə etməli olsan dövlət xidmətçiləri ilə alver ziyan gətirər. Öz işini bütünlüklə satıcılarının ixtiyarına vermə. Ticarətdə qəbz verib-almaqda ayıq ol və haqqını almayınca qəbzi əldən vermə. Gəliri artırmaq üçün çarə tapa bilməsən xərcini azalt.

"Həkim olsan damara bax qanın al, xəstələri şirin dillə yola sal,

Pul qoparmaq üçün get-gələ salma, xəstəni aldadıb haram pul alma."

Tibb elmi haqqında; Təbib (həkim) olan şəxs tibb elminin əsaslarını nəzəri və təcrübi cəhətdən yaxşı bilməlidir. Təbib müalicəyə başlarkən qoca və cavanın yeməyinə fikir verməli və xəstəyə baxanlara diqqət yetirməlidir. Xəstənin qüvvəsini xəstəliyin növünü, məcazını, yaşını, sənətini və şəxsiyyətini bilməyincə müalicəyə başlamamalıdır. Təbibin nəzəriyyə ilə bərabər təcrübəsi də olub və qədim Yunan həkimi Hippokratın(e.ə.460-377)"Vəsiyyətnamə"sinə əməl etməlidir. Xəstələrin müalicəsində vicdanlı olub düzlüyün tərəfini saxlamalıdır. Təbib həmişə paltarını təmiz saxlamalı xəstələrə gülərüz və qayğıkeş olmalı dərdi və dərmanı düzgün təyin etməlidir.

Nücum və həndəsə elmi haqqında; Münəccim olmaq istəyən Riyaziyyat elmini bilməlidir çünki Ehkam (Astrologiya) elmi geniş sahəni əhatə edir. Nücum elmi əsasən ulduzlu göy əsasında təqvim düzəltmək və qabaqcadan xəbər verməkdir. Bir şeyi xəbər vermək istərkən dərhal nə olduğunu və nələr olacağını əvvəlcədən demə. Səhvə yol verməmək üçün ehtiyatlı ol və nəzərdən qaçmış xətaları düzəlt. Əgər yerölçən olsan bucaqları düzgün təyin etməkdə xüsusi səy göstər. Çoxüzlü cisimlərdə çox zaman qövs şəklində bucaq olur. Sahəsini hesablamaq çətin olan yerdə yarısını üçbucaq və dördbucaqlara böl. Sonra hərəsini ayrı-ayrı hesablayıb və nəticəni düz çıxar.

Şairlik haqqında: Şerdə sənət və məharət lazımdır ki, oxucuya xoş gəlsin. İstəyirsən yazdığın söz gözəl olsun və yadda qalsın onda müstəar (istiarəli sözlər) şəklində yaz. Qəzəl (beytlər 13-dən artıq olmayan aşiqanə şer) yazsan sadə və gözəl yaz. Şair mədh edəcəyi ad təbiətindən xəbərdar olmalıdır. Hər nə yazsan özündən yaz başqalarının sözünü təkrar etmə. Gülərüz ol hekayətlər, rəvayətlər və lətifələri əzbərlə, çünki şair bunlarsız keçinə bilməz.

Mütriblik haqqında; Çalğıçı olan gülərüz şirindilli və təmiz geyimli olmalıdır. Bir məclisə mütrüb (sazanda) kimi dəvət olunsan gülər üz olub və müxtəlif havalar çal. Musiqiçilikdə ən böyük məharət dinləyicinin arzu və istəyinə zövq və diləyini təmin etməkdir. Əgər məclisdə biri səni tərifləsə ona minnətdarlıq et ki, başqaları da tərifləsin. Mütrüblərin ən yaxşı xeyirxahı məst olanlara rəftarda səbirli olmasıdır. Musiqiçi gərək bir yerdə olarkən gördüyü, eşitdiyi şeyləri başqa yerdə danışmasın.

"Səbirli ol ömür boyu yaşında, səbir durur elmlərin başında,

Səbirsiz işlərə qarışar şeytan, qəlbində gəzər ara qatmaq, böhtan."

Şahlara xidmət haqqında; Əgər tale səni şah sarayına gətirsə və orada xidmət etməli olsan bu sənin gözünü tutub başını gicəlləndirməsin. Hansı gün şah sənə desə arxayın ol sən o günü daha çox qorx. Şahla mübahisə edib inad göstərən əcəli gəlməmiş ölər. Şaha xidmət etməyin şərəfi dövlətli olmaqdan çox yüksəkdir. Əgər sən şah xidmətində varlansan özünü kasıb göstər. Həmişə şahın qəzəbindən qorx.

"Korlama gənclərin sütül beynini, əlindən alma fikrini, zehnini,

Gənclikdə savada alışan insan, o, yaşa dolduqca öyrənər hər an."

Nədimlik (həmsöhbət və lətifə söyləyən) haqqında; Şaha xidmət edən nədimin bir neçə xüsusiyyəti olmalıdır. Nədim gərək sifətdən gözəl olub elmləri kamil bilməli və Quranın təfsirindən də xəbərdar olmalıdır. Nədim olmaq istəyən əvvəlcədən bilməlidir ki, bu vəzifə axırda başına bəla gətirər.

> *"Katiblikdə dilənmə gəl, başın da çox çəkər əngəl,*
> *Qəlbi tox ol, baxma ələ, milçək kimi qonma gülə."*

Katiblik haqqında; Katib olanın gərəkdir ki, qələmi qüdrətli və xətti də hüsnü oxşasın. Katib gərək dərrakəli olsun katiblik sirrini bilsin və rəmzli sözlərdən istifadə etsin. Əgər xəttatlıqda başqalarının xəttini oxşatmaqda mahir olsan bunu hər adama bildirmə ki, şübhəyə düşərsən. Hər kiçik şeylər üçün saxta yazını düzəltmə.

“Qəlbin daşsa vəzir olma, milləti get-gələ salma,
Gücün çatan yükü götür, azanı düz yola ötür.”

Vəzirlik haqqında; Vəzir olan şəxs hesabda, müamilədə, rəftarda dəqiq və mahir və ağasına sadiq olmalıdır. Vəzirlikdə qurucu, abadedici və ədalətli olanın dili ilə əli də uzun olar. Nə qədər sadiq və ehtiyatlı olsan yenə də həmişə şahdan qorx. Şahı tək buraxma ki, düşmənlərin fürsət tapıb sənin haqqında pis sözlər deyərlər. Dünya şahlarının halından xəbər tutub onları öz hökmdarına çatdır. Yalandan fərman vermə məmur əmri yerinə yetirməsə ona qulaqburması ver.

“Vətən anandır sən qoynundasan, kasıb da, varlı da, şah da olarsan,

Vətənin bağrına ləkə vurma sən, əgər ləkə vursan sevinər düşmən.”

Sipəhsalarlıq (sərkərdəlik) haqqında; Əgər sipəhsalar olsan əsgər və rəiyyətlə yaxşı dolan həm özün və həm də hökmdarın tərəfindən yaxşılıq et. Həmişə zəhmli görün orduya əsgər yığmağı və döyüş qaydalarını yaxşı bil. Müharibə zamanı sağ və sol cinaha təcrübəli sərkərdələrdən başçı qoy. Düşmən nə qədər zəif görünsə də onu güclü bil və ehtiyatı əldən vermə. Silah-sursatı yaxşı saxla casus göndərib və düşmən tərəfin mövqeyini öyrən. Ordunu hissə-hissə döyüş meydanına yönəlt və arxadan döyüşə nəzarət et. Davaya girəndə ölənəcən mərdliklə vuruş.

“Haramla tikdiyin saray, bilmirsən ki, kimə haray,
Yoxsulun da payı vardır, o, dəbdəbən ahu-zardır.”

Şahlıq (hakimlik) haqqında; Əgər bir məmləkətə hakim olsan xalqın qayğısına qal ləyaqətini saxla və qeyrətli ol. Hər işdə tələsmə və bir işin əvvəli ilə sonunu gör. Zülmkar olma rəiyyətə ədalət gözü ilə bax. Hakimin ən böyük günahı odur ki, rəiyyəti eşitməyə və xidmətçiləri qudurğan edə. Bəxşişi yalnız layiqli adamlara ver ki, onlar da müstəhəqlərə (ehtiyacı olanlara) versinlər. Rəhmsizlərə rəhm etmə amansız ol, xüsusilə vəzirinə qarşı. Vəzirliyi yalnız ağıllı dünya görmüşə tapşır və ona tam ixtiyar ver. Oğruya rəhm etmə qatili bağışlama lakin nökərlərə rəhmli ol.

Hər kəsin gəlirini öyrən hərəyə bir iş tapşır və vəzifələndir. Vəzifə verəndə diqqətli ol və hərəyə özünə layiq iş ver. Ləyaqəti olmayana heç bir iş mükafat fəxri ad-san vermə. Hökmdarın əmr və fərmanlarına müxalif olanlara ağır cəza tətbiq et. Şah diqqətli olmalıdır ki, əsgər və məmurlar rəiyyətə zülm etməsinlər. Ədalətli dövlətdə rəiyyət dövlətli olar hökumətin də gəliri rəiyyətdən gəlir. Ölkədəki abadlıq ədalət olan yerdə əbədiləşər ədalətsizlik olan yerdə isə dağılar. Şahın əsas altı xasiyyəti olmalıdır; zəhmli, ədalətli, səxavətli, həyalı, mülayim və doğruçu. Əgər bu xasiyyətlərdən biri olmazsa onda tezliklə hakimiyyət devrilər.

Torpaq üçün canından keç, bir ağac ək olmasa heç,
İzin qalsın bu dünyada, səni salan olsun yada.”

<u>Kəndçilik (əkinçilik) haqqında</u>; Əkinçi olan kəs əkin-biçinin vaxtını yaxşı bilməlidir. Torpağı şumlamaq üçün cüt öküz və heyvan üçün ehtiyat yem olmalıdır. Məhsulunu bazarda satan əkinçi doğruçu və mehriban olmalıdır. Alverdə alıcını çəki və qiymətdə aldatmaq olmaz. Qazanılan pulu iki kisədə saxlayıb və şəriklərə xəyanət edilməməli. Kəndçi ürəkdə xeyirxah üzdə nikbin və cavanmərd olmalıdır.

“Güzəştə get! Günahın dərk edənə, mane olma düz yol ilə gedənə,
Allah bilir o, gedib hara çatar, sudamı, qurudamı yerə batar.”

<u>Cavanmərdlik haqqında</u>; Allah (c.c.) insanlara üç xüsusiyyət vermişdir ki, bunlar ağıl, düzlük və insanlıqdır. Cavanmərdliyin üç şərtləri var ki, onlar dediyindən dönməyən, doğruya tərəfdar olan və səbirli olan. Cavanmərd olmaq istəyən üç şeyi gözü, əli və dili həmişə bağlı saxlamalıdır. Ən kamil cavanmərdlik odur ki, öz malını özününkü hesab etsin. İstəyirsən ki, qanın qara olmasın hər şeyə qane ol. Həmişə könlün xoş olmasını istəyirsənsə paxıl olma. Çünki qəmli olmağın əsası paxıllıqdan yaranır. Bil ki, insana yetişən yaxşı və pisliklər Allahın (c.c.) əlindədir. İnsan tamahı qəlbindən çıxartsa qənaəti özünə peşə etsə onda, dünyada heç kəsə ehtiyacı olmaz.

“Özünü çox dartma tez qırılarsan, içində od tutub alovlanarsan,

Sadəlik insanın yaraşığıdır, şərəfi, şöhrəti, adı, şanıdır.”

<u>Ağıllı olmaq haqqında</u>; İnsanda ağıl iki cürdür ki, anadangəlmə və sonradan qazanma. Sonradan qazanılmış ağlı öyrənmək olar. Anadangəlmə ağıl isə Allahın (c.c.) hədiyyəsidir ki, onu təlim və tərbiyə ilə əldə etmək olmaz. Əgər Allah (c.c.) insana ağıl vermişsə bu böyük xoşbəxtlikdir. Əgər anadangəlmə ağıl olmasa heç kəs heç nə əldə edə bilməz. Əgər ağıllı adamlar arasına daxil olmasan heç olmasa axmaqlar sırasına da daxil olma. İstəsən ki, ağlını inkişaf etdirəsən onda hikmət öyrən çünki ağlı hikmətlə öyrənmək mümkündür.

“Namus puldan qiymətlidir, namuslu şəxs şöhrətlidir,
Güvənmə vara, dövlətə, güvən namusa, qeyrətə.”

<u>Ağlı başında olan ad istəkləri</u>; 1) Cansağlığı. 2) Yemək-içmək. 3) Yaxşı istirahət. 4) Pul və pulla almaq mümkün olan şeylər. 5) Axirət dünyasındakı yaxşı həyat. 6) Şəhvani təminat. 7) Ailə-uşaqlarının rifahı. 8) Həyatda gərəkliyini dərk etmək. (D.Karnegi, “Dostu necə qazanmalı” Bakı-1993).

“Gözün gördüyünə inan həmişə, hər sözə inanma düşərsən işə,

Çalış düşmə söz gəzdirmək yoluna, diqqətlə bax hər bir işin sonuna.”

<u>Adamları təhqir etmədən onları ələ almaq haqqında</u>; Başqalarının səhvlərini birbaşa yox dolayısı ilə göstərin. Əvvəlcə öz səhvlərinizi bildirin sonra isə müsahibinizi tənqid edin. Müsahibinizə əmr etməkdənsə ona suallar verin. Adamlara öz nüfuzlarınızı xilas etməyə imkan verin. Adamların ən kiçik uğurlarını bəyəndiyinizi bildirin və onların hər bir uğurunu da qeyd edin. Yəni ki, “qiymət verməkdə səmimi və tərifləmədə səxavətli olun”. Adamlara yaxşı nüfuz yaradın onlar bu nüfuzu doğrultmağa çalışacaqlar. Elə edin ki, adamları təhrik etdiyiniz məsələlər onlara çətin görünməsin. Çalışın ki, adamlar təklif etdiklərinizi yerinə yetirməyə şad olsunlar. (D.Karnegi, “Dostu necə qazanmalı” Bakı-1993).

<u>Məhəmmədtağı Sidqinin həkimanə sözləri;</u> M.Sidqi 1854-cü ildə Ordubad şəhərində atası pinəçi Kərbəlayı Səfər və anası Tutu xanımın yoxsul ailəsində doğulmuşdur. O, ilk təhsilini Ordubadda Molla Məhəmmədtağı adlı dindar şəxsdən və sonra isə Ordubaddakı Sultan Hüseyn mədrəsəsində alaraq, ərəb və fars dillərində oxuyub-yazmağı öyrənir. (Sidqi 25-30 yaşlarında İranın Nişapur, Səbzəvar və Məşhəd şəhərlərində yaşamışdır).

1885-ci ildə Sidqi İrandan Ordubada qayıdıb və sonra isə Bakıya gedərək neft mədənlərində fəhləlik edir. Həmin ilin axırında yenidən Ordubada qayıdan Sidqi çayçı dükanı açıb işlədir. O, 1892-ci ildə Hüseyn Sultan Kəngərlinin vəsaiti ilə Ordubadda “Əxtər” adlı məktəb yaradır. (Həmin məktəb tezliklə camaat arasında nüfuz qazanaraq məşhur olur).

“Ey xoş gün ki, sən mənə çox mehriban idin,
Hər sübhü şam həmdəm idin, həmzəban idin.”

1894-cü ildə Sidqi Naxçıvana dəvət edilərək və Rus-tatar “Tərbiyə” məktəbində müəllim işləyir. 1903-cü ilin dekabrında M.Sidqi Qarabağlar kəndində şair dostu Əmir ağanın evində zəhərləndirilir. Naxçıvan ziyalıları Sidqinin vəfatından kədərlənmişlər. (Ə.Qədimov, “Məhəmmədtağı Sidqinin həyatı və yaradıcılığı” (“Çaşıoğlu” nəşriyyatı) Bakı-2004). Mərhumun məzarı Naxçıvan şəhər qəbiristanlığındadır.

Yazıçı M.S.Ordubadi maarifpərvər Sidqinin vəfatı münasibətilə "Maddeyi-tarixi-məşədi Tağı Sidqi rəhmətullah" adlı şerini belə yazmışdır;

"Pozuldu gülşən, eyşim tükəndi, bülbülüm getdi,
İşim ahü fəğan, fikrü xəyalım dərdi-möhnətdir.
Yazın bu misrəyi qəbrinə tarixi-vəfatından,
Fələk, ey dil, əmanım aldı, dərdim binəhayətdir."

Məmmədtağı Sidqi demişdir; "Tənbəllik ehtiyat qapısının kilididir. Tənbəlliklə keçinən adam hər umduğundan məhrum qalar." "Təmizlik artıq dərəcədə lazım olan bir zinətdir." "İnsan vücudunu, libasını və məskənini hər vaxt təmiz və pak saxlamalıdır." "Həvəslə başlanan bir iş yarı olmuş kimidir." "İnsanların yaxşısına pislik eyləyən şəxsin əməli günəşə tüpürən ad mislinə bərabərdir. Çünki tüpürdüyü günəşə yetişməz və öz üzünə qayıdıb düşər." "Dəliliyin əvvəlinci əlaməti özünü hamıdan ağıllı bilməsidir." "Acı söz zəhərli bir qılınc kimidir. İntiq lap yaxşısı pisliyin müqabilində yaxşılıq etməkdir." "İnsanların ən qüvvətlisi qeyzli vaxtında özünü saxlayandır." "Özgəsinin sözünün həqiqətini anlamayan kimsə öz danışığını bilməz." "Nəsihət vermək nə qədər asandırsa, qəbul etmək bir o qədər də çətindir."

"Yalançılıq insanın vücudunda bir qısa və ensiz örtüyə bənzər ki, bir tərəfi açıq qalar." "Təzə əkilən tinglərə və ağaclara su vermək nə qədər lazım olarsa, uşaqlara da təlim və tərbiyə kiçiklikdən bir o qədər vacibdir." "Dünyada elmin ləzzətini bilmək insan üçün bir böyük səadətdir. Amma səadət də bir xəzinədir ki, səy və qeyrət onun kilididir. Elmsiz insan ruhsuz cisim kimidir. Elmə xaliq olan, alim hesab olunur. Amma özünü elmli bilən cahil sayılar. Elmsiz insan ilə meyvəsiz ağacın və ədəbsiz adamla ruhsuz cismin bir təfavütü yoxdur. Meyvəli ağaca daş atan çox olduğu kimi, elm və mərifət sahibinə də əziyyət verən çox olar."

"Dünyada dörd şeyin azı və çoxu bərabərdir: biri oddur ki, o bir qor da olsa, yenə söndürmək olar. İkincisi düşməndir ki, onu çalışıb dost etmək lazımdır. Üçüncüsü borcdur ki, onu verib rədd etmək lazımdır və dördüncüsü isə mərəzdir ki, zəif də olsa əlac etmək lazımdır." "Gözəl ad insanın vücudunu həmişə cilvələndirib dirildər..." "Tamah və xəsisliklə yığılan pullar çox vaxt vərəsələrə də fayda verməz."

"Dörd şeyi geri qaytarmaq olmaz; deyilmiş sözü, keçmiş qəzanı, atılmış gülləni və ötmüş ömrü." "Dörd şey xoşbəxtliyə sübutdur; düz danışmaq, sirri saxlamaq, təvazökar olmaq və halalı haramdan ayırmaq." "Dörd şey cəmiyyətin inkişafına səbəb olur; dinclik, istiqamət, nemət və mərifət." "Dörd şeydən ehtiyatlı olmaq gərəkdir; tələsmək, qəzəblənmək, xəsislik və təkəbbür." "Dörd şey insanı zəif salar; düşmənçilik, borcluluq, arvadbazlıq və yoxsulluq." "Dörd şey hamı üçün yaxşıdır; ədalətli və doğruçu, ağıl və bilikli, təhəmmül və səbirli, və həya ilə utancaqlıq." ("Sovet Naxçıvanı"

(qəzeti, 1988 № 234).)

"Əmrə tabe olmağı iki ayaqdan öyrən,
Öz haqqını almağı körpə uşaqdan öyrən.
Qohumluğu budaqdan üstündəki yarpaqdan,
Səbri ana torpaqdan qüruru dağdan öyrən.
Yumşaqlığı ipəkdən ötgünlüyü küləkdən,
Ətri güldən-çiçəkdən südü ayrandan öyrən.
Nadanlığı alimdən müdrikliyi cahildən,
Şücaəti məzlumdan haqqı nahaqdan öyrən.

(Səhləb)

Allah (c.c.) kainatı heç nədən və bir anlığa "Böyük partlayış"la yaratmışdır. Bizim gördüyümüz kosmik aləmdə əsasən 8 (9) planet və bu planetlərlə bağlı 42 (54) peyk vardır. Bu planetlər Merkuri, Venera, Yer, Mars, Yupiter, Saturn, Uran, Neptun və müstəsna olan Plutondur.

Planetlər əzəmətli Günəş ətrafında hərəkətdə olub və onlarla Günəş arasındakı məsafə dəyişilməzdir. Planetləri kosmik fəzaya sovrulmaqdan qoruyan təsir Günəşin cazibə qüvvəsi ilə planetin mərkəzdənqaçma qüvvəsi arasındakı müvazinətidir. ("ASE" (10 cilddə) 7-ci cild, Bakı-1983; "Düşünən insan" jurnalı, 2012 № 14). (Bölmədəki şerilər (Adil Qasım "Həyata baxış" Bakı-2009) kitabından götürülmüşdür).

"... Allahdan Öz bəndələri içərisində ancaq alimlər qorxar..."

(Fatir surəsi, 28)

"Bilənin arxasınca gedin, bilməyənə yol göstərin."

Bilib-bilmədiklərimiz

Azərbaycanın itirilmiş əraziləri. Azərbaycanın 1988-94-cü ildə ermənilər tərəfindən 20% işğal edilmiş əraziləri bunlardır: 1) Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) (1988-94-cü illər). Sahəsi : 4400 km^2. 274 yaşayış məntəqəsi. 2) Laçın (17 may 1992-ci il). Sahəsi 1835 km^2. 120 yaşayış məntəqəsi. 3) Kəlbəcər (3-4 aprel 1993-cü il). Sahəsi: 1936 km^2. 120 yaşayış məntəqəsi. 4) Ağdam (23 iyul 1993-cü il). Sahəsi: 1094 km^2. 83 yaşayış məntəqəsi. 5) Cəbrayıl (18 avqust 1993-cü il). Sahəsi: 1050 km^2. 76 yaşayış məntəqəsi. 6) Füzuli (23 avqust 1993-cü il). Sahəsi: 1386 km^2. 62 yaşayış məntəqəsi. 7) Qubadlı (31 avqust 1993-cü il). Sahəsi: 802 km^2. 94 yaşayış məntəqəsi. 8) Zəngilan (29 oktyabr 1993-cü il). Sahəsi: 707 km^2. 81 yaşayış məntəqəsi. 9) Naxçıvan MR (1991-ci il) 1 yaşayış məntəqəsi.

Dünyada uzun ömürlü insanlar. Onlar, Hz. Nuh (ə) Peyğəmbər-950 il, Hz. Adəm (ə) Peyğəmbər-930 il, Hz. Şiys (ə) və Hz. Süleyman (ə) Peyğəmbər-300 il, İngilis Tomas Korner-207 il, iranlı Hüseyn baba-185 il, Hz. İbrahim (ə) Peyğəmbər-175 il, talış Şirəli baba-168 il, Hz. Zərdüşt-152 il, Hz. Hud (ə) Peyğəmbər-150 il və başqaları. (Talış Şirəli babanın atası 120 il, anası isə 110 il ömür sürmüşlər).

Şah İsmayıl Xətai(1787-1524). Azərbaycan səfəvi dövlətinin hökmdarı olan I İsmayıl Xətai 14 illik hakimiyyəti dövründə ölkəni ədalətlə idarə etmişdir. O, sarayında sufiliklə bağlı olan zikrlər etmiş, ədəbiyyat, incəsənət və digər elmlərin inkişafına geniş yer vermişdir. Təsəvvüf fəlsəfəsinin tərəfdarı olan I Şah İsmayıl, şiə məzhəbini qəbul etməmişdir. Xətai dövrü Azərbaycan tarixinin qızıl dövrü olmuşdur.

"Dünyanın tarixi" kitabı. İran padşahı Yezdegird(?-651) alimləri toplayıb onlara dünyanın, gəlib-keçmiş bütün adil padşahların tarixini yazmağı tapşırır ki, oxuyub öyrənsin və rəiyyətinə qarşı ədalətli davransın. 5-6 ildən sonra alimlər onun sarayına 40 dəvə yükü kitab göndərirlər. Padşah kitablara baxıb deyir ki, qaytarın və alimlər bunları qısaltsınlar. 5-6 il keçəndən sonra 7 dəvə yükü kitab gəlir. Padşah yenə də etiraz edir ki, alimlər dünyanın tarixini qısa yazsınlar. 5-6 il keçir və alimlərdən yalnız bir kitab gətirilir. Amma padşah artıq ölüm yatağında uzanmışdı. Padşah alimə üzün tutub deyir: "Bu dünyada o tarixi öyrənmək mənə qismət olmadı, kitabda yazılandan bir söz oxu və mən də dünyadan bir söz öyrənib gedim." Alim kitabdan yalnız bir cümlə oxuyur: "Gəldilər, yaşadılar və ölüb getdilər." Həmin nüsxə Britaniyanın "Kral kitabxanası"nda saxlanılır.

Qafqaz müsəlmanları idarəsi. 1823-cü ildə çar Rusiyasında Qafqaz şiələrinə başçılıq etmək üçün Tiflis şəhərində Şeyxülislam (mürşid) vəzifəsi təsis edilib. 1832-ci ildə Tiflis şəhərində habelə Qafqaz sünnilərinin başçısı olan Müfti vəzifəsi də yaradılıb. 1872-ci ildən 1917-ci ilədək hər iki idarənin nəzdində ayrılıqda şiə və sünni ruhani idarələri də fəaliyyət göstərmişdir. 1823-cü ildən günümüzədək aşağıdakı kimi 12 şeyxülislam və 11 müfti olub. Şeyxülislam Axund Məhəmmədəli Hüseynzadə- 1823-46-cı illər; Müfti Tacuddin Mustafin- 1832-40. Şeyxülislam Fazil İravani- 1847-72; Müfti Osman Əfəndi- 1842-47. Şeyxülislam Axund Əhməd Hüseynzadə- 1852-84; Müfti Məhəmməd Əfəndi Müftizadə- 1847-80. Şeyxülislam Axund Mirzə Həsən Tahirzadə- 1885-1894; Müfti Əbdülhəmid Əfəndizadə- 1872-80 (Şamaxı müftisi). Şeyxülislam Əbdüssəlam Axundzadə- 1895-1907; Müfti Hüseyn Qayıbzadə- 1883-1917. Şeyxülislam Hacı Məhəmməd Həsən Mövlazadə Şəkavi- 1907-09; Müfti Hacı İbrahim Əfəndi Əfəndizadə- 1944-55. Şeyxülislam Axund Məhəmməd Fərəculla Pişnamazzadə- 1909-18; Müfti Əsədulla Dibirov- 1956-59. Şeyxülislam Axund Ağa Əlizadə- 1918-20 və 1944-54; Müfti Şərif Əfəndi Vəlizadə- 1960-66. Şeyxülislam Axund Şeyxmöhsün Həşimzadə- 1954-66; Müfti Əhməd Əfəndi Bozgəziyev- 1968-69. Şeyxülislam Axund Əlağa Süleymanzadə- 1968-76; Müfti Hacı İsmayıl Əhmədov- 1969-86. Şeyxülislam Axund Mirqəzənfər İbrahimov- 1978-80. Şeyxülislam Hacı Allahşükür Paşazadə- 1980-ci ildən; Müfti Hacı Salman Musayev- 1989-cu ildən.

Möcüzəli Yer planeti. Allah (c.c.) Yeri canlıların yaşaması üçün yaratmışdır. Günəş sistemindəki yeganə həyat olan planet Yerdir ki, ətrafında olan atmosferdə Yerə istiqamət götürmüş meteorit yağışı yağmaqdadır. Saniyədə 40 km sürətlə yağan "bombalar" atmosferdə sürtünmə nəticəsində yanıb məhv olurlar. Kainatda gizli müvazinət var ki, əgər planetlərin dönmə sürəti bir az yavaş olsaydı, onda hamısı Günəş tərəfindən "udulardı." Əksinə planetlər sürətli olsaydılar onda Günəşin cazibə qüvvəsindən xaric olub və kosmosa dağılardılar. Yerin cazibə qüvvəsi ilə ətrafında fırlanan bir peyki var ki o da Aydır. Əgər bu cazibə qüvvəsi daha çox olsaydı, okeanlardakı qabarma-çəkilmə azalar və əksinə az olsaydı onda Yer üzündə kəskin iqlim dəyişikliyi yaranardı. Yerin maqnit sahəsi daha güclü olsaydı, elektromaqnit tufanları yaranar və əksinə zəif olsaydı onda, Günəşdən gələn zərərli zərrəciklərdən qoruna bilməzdi. Yer kürəsinin ölçüsü indikindən kiçik olsaydı, cazibə qüvvəsi zəifləyər və əksinə böyük olsaydı onda atmosferdəki zəhərli qazları cəzb etməklə həyat üçün təhlükə yaranardı. Yerin ətrafındakı Ozon təbəqəsinin qalınlığı çox olsaydı, o zaman Yerdəki temperatur aşağı düşər və əksinə az olsaydı onda Günəşdən gələn zərərli şüalar nəticəsində isinmə baş verərdi. Yer planetində seysmik hərəkətlər həddən artıq baş versəydi, o zaman canlılar təhlükə ilə üzləşər və əksinə az olsaydı onda bütün canlılara mənfi təsir edərdi. Yer Günəşə tərəf 23° 27" mailidir. Əgər belə olmasaydı, qütblərlə ekvator arasındakı temperatur fərqi çoxalardı.

Həzrəti Məhəmməd(s) Peyğəmbərin şəcərə (nəsil) "ağacı" Hz. İbrahim (ə), Hz. İsmayıl (ə), Kusay(r), Əbdü Manaf(r), Əbdü Şəms(r), Mütəllib(r), Bin Üməyyə(r), Haşim(r), Əbdülmütəllib(r), Abbas(r), Əbu Talib(r), Abdullah(r), Həmzə(r), Cəfər(r), Hz. Əli (ə), Hz. Məhəmməd(s), Xn.Fatimə(r), Xn.Zeynəb(r), Xn.Ruqəyya(r), Hz. Həsən (ə), Hz. Hüseyn (ə), Xn.Ümmü Gülsüm (r).

Quranda adı çəkilən Allahın elçiləri. Hz. Adəm (ə), Hz. İdris (ə), Hz. Nuh (ə), Hz. Hud (ə), Hz. Saleh (ə), Hz. İbrahim (ə), Hz. Lut (ə), Hz. İsmayıl (ə), Hz. İshaq (ə), Hz. Yaqub (ə), Hz. Yusif (ə), Hz. Əyyub (ə), Hz. Şuayb (ə), Hz. Musa (ə), Hz. Harun (ə), Hz. Davud (ə), Hz. Süleyman (ə), Hz. İlyas (ə), Hz. Əlyasa (ə), Hz. Zülkifl (ə), Hz. Yunus (ə), Hz. Zəkəriyyə (ə), Hz. Yəhya (ə), Hz. İsa (ə), Hz. Məhəmməd(s). (Zərdüşt, Asəf, Loğman, Həbib, Xızır, İsgəndər, Üzeyir və başqaları Allahın elçiləri olub-olmamağı bəlli deyildir). Quranın Fatir (35/24) surəsində deyilir; "Elə bir ümmət yoxdur ki, onun içindən qorxudan bir Peyğəmbər gəlib-getməsin !"

İlahi kitablara iman. İlahi kitabların bəzilərinə "suhuf" (səhifə) deyilir ki, Allah-təala tərəfindən Hz. Adəmə (ə) 10, Hz. Şiysə (ə) 50, Hz. İdrisə (ə) 30 və Hz. İbrahimə (ə) 10 səhifə endirilmişdir. Hz. Musaya (ə) Tövrat, Hz. Davuda (ə) Zəbur, Hz. İsaya (ə) İncil və Hz. Məhəmmədə(s) Quran kitabları göndərilmişdir. Bu kitablardan yalnız Quranın sözləri qorunub saxlanılmış və digər kitablara isə uydurulmuş insan sözləri əlavə edilmişdir.

Quranda təsvir olunan Cənnət mühiti. Quran ayələrinə görə Cənnətdə böyük mülk və ehtişam, hündür evlər, atlas və ipəkdən tikilmiş paltarlar, qızıl və gümüşdən düzəldilmiş bilərziklər, gümüş və büllurdan olan qablar, sulu çay və çeşmələr, süd və bal dadı verən çaylar, ağac kölgəlikləri, yaşıl rəngli döşək və yastıqlar və sairə vardır. Cənnətdə əmin-amanlıq, rahat həyat tərzi, gözəl xasiyyətli və həmyaşıd (qocalmayan) insanlar olmaqla, kin və nifrət, yalançılıq, kədər və qorxu və habelə bezikməyən mühit vardır.

Ərəblərin əl barmaqları ilə göstərdikləri Cümməl hesabı. Orta əsr dövründə Ərəblərdə Cümməl hesabı deyilən say var idi ki, bunu əllərindəki barmaqları ilə göstərirdilər. Onlar barmaqlarını 18 formada bükməklə 1-dən 99-dək, daha 18 kombinasiya vasitəsilə 100-dən 9000-dək ədədləri ifadə edirdilər. 10.000-dək ədədləri göstərmək üçün daha mürəkkəb əl hərəkətləri icra olunurdu. Bu cür saymağa "cümməl" hesabı deyirdilər.

Hz. Peyğəmbəri(s) gözləyən ilan. Məkkədən Mədinəyə hicrət edən Hz. Məhəmməd(s) Peyğəmbər, dostu Hz. Əbubəkrlə(r) bərabər yolüstü Sevir mağarasında gizlənirlər. Hz. Əbubəkr(r) mağaradakı ilan yuvasına ayağın qoyur ki, ilan çıxmasın. İlan onun ayağından dişləyəndə ufuldayır. "Sənə nə oldu, ya Əbubəkir?"-deyə peyğəmbər ondan soruşur. "Heç elə bir şey olmadı, ya Rəsulullah, deyəsən dabanımdan ilan sancdı." Peyğəmbər ağzının suyundan yaralanmış yerə sürtməklə ağrı çəkilir. Hz. Rəsulillah(s) ilana üzün tutub deyir: "Ey Allahın həşəratı, sən mənim dostumu sancmaqla heç həya etmədinmi?" İlan insan kimi danışaraq deyir: "Ey Allahın sonuncu elçisi! Mən altı yüz ildir ki, mübarək çöhrənə baxmaq üçün bu mağarada yolunu gözləmişəm. İndi sənin bu dostun dabanı ilə mənim gözlərimi örtdüyündən, mən də ona yüngülcə "ayağını çək" dedim."

Əgər Xarəzmi olmasaydı, internet olmazdı. Almaniyanın "Frankfurter Allgemeine Zeitung" qəzetinin rəhbəri Volfqanq Günter Lerch, müasir texnologiya ilə bağlı maraqlı açıqlama verib: "Əgər müasir cəbr elminin, loqarifmanın və yeni hesablama elminin əsas qaydalarını qoyan müsəlman alim Əbu Cəfər Muhəmməd ibn Musa əl-Xarəzmi(780-850) olmasaydı, dünya bu gün nə İnternet, nə də ki, hesablama texnikasına sahib ola bilərdi." Xarəzmi İslam və ərəb dünyasının ən məşhur riyaziyyatçısı, astronomu və hesab alimidir.

Qurani-kərimdə müasir kompyuter haqqında. Əgər iyirminci əsr kosmosa peyk göndərilməsi kimi tarixə düşübsə, İyirmi birinci əsr isə kompyuter və internet rabitəsi əsri kimi qeyd olunmuşdur. Bu barədə Qurani-kərimin ən-Nəml (27/81) surəsində belə bildirilmişdir; "...(qiyamət yaxınlaşdığı) zaman onlar üçün yerdən bir dəbbə (kompyuter) çıxardarıq ki, onunla danışaraq və "insanlar (kafirlər) ayələrimizə inanmırdılar"- deyər."

Hədislər üzrə axtarış sistemi yaradılıb. İslam nevs ru saytı Hz. Məhəmməd(s) Peyğəmbərin hədisləri üzrə axtarış sistemi yaradıb. Yeni sistemə hədis toplayıcıları, tanınmış İslam alimlərindən Buxari, Müslim, Nəvəvi, Nəsai, İbn Macə, Əbu Davudun kitabları, həmçinin "Buluğul Mərəm" toplusu daxil edilib. Saytda həmçinin yerləşdirilən mətnlərdəki səhvlərin göstərilməsinə də imkan yaradılıb.

Şeytan üç yolla insanı cəlb edir. Birinci, bolluq və israfçılıq; ehtiyac duyulduğundan daha artığına sahib olmaq. İkinci, səhlənkarlıq; Allahı (c.c.) yad edən kəs zikr qalası ilə qorunar. Amma səhlənkarlıq etdikdə o, bu qalanın qapısını açmış olar, düşmən də içəri daxil olar. Və (sonra) onu qovmaq çətin olar. Üçüncü; (insanın) ona aid olmayan şeylərə maraq göstərməsidir.

Naməhrəm qadınla tək qalmaq. Şeytan Adəm övladının sürükləməsi üsullarından biri də kişinin naməhrəm bir qadınla tək qalmasıdır. Buna görə, Hz. Peyğəmbər(s): "Kişi (naməhrəm olan) bir qadınla tək qalarsa, üçüncüləri şeytandır" demişdir. Kiminsə evdə, iş yerində və ya avtomaşında naməhrəm bir qadınla tək qalması yolverilməzdir. Bir çoxları ya özünə, ya da qarşısındakına güvəndiyi üçün bu məqama laqeydcəsinə yanaşır.

Yuxuda qulaqların aktiv olması. "Biz onları mağarada illərlə qulaqlarına vurduq (yuxuya verdik)." (əl-Kəhf 18/11). Alimlərin kəşfinə görə, insan yatarkən qulaqları aktiv olan yeganə duyğu orqanıdır. Yuxudan oyanmaq üçün saatın zənginə ehtiyac hiss etməyimizin səbəbi də budur. Allahın (c.c.) "Mağara əhlı" ilə əlaqəli dediyi "qulaqlarına vurduq" ifadəsinin hikmətinin də bəhs edilən mağaradakı yatmış gənclərin eşitmə orqanlarının bağlı olmasına və buna görə də uzun illər yuxudan ayılmadan yatdıqlarına işarə ehtimalıdır.

Salam verməyin ədəbləri. İslamda hər bir şeyin ədəbləri olduğu kimi salam verməyin də bir çox ədəbləri vardır. Hz. Peyğəmbər(s) buyurub: "Minikdə olan piyadaya, ötüb-keçən oturana və az sayda olanlar çox sayda olanlara salam verməlidirlər." (Buxari, № 6231). Bir insan camaatın arasında olan kimsəyə ayrıca salam verməsi pis əməldir və islam əxlaqına zidd hərəkətdir. Bir insan məclisdən qalxdıqda salam verərək ayrılması sünnədir. Bir kimsə digərinə salam verdikdə, sal ona qaytarılmasını eşitməsə kədərlənməsin. (Salam verənin günahları salamı qaytarmayanın üzərinə düşür).

Haram yemək. Allahdan (c.c.) qorxmayan kəslər pulu necə qazandıqlarına, haraya xərclədiklərinə baxmırlar. Onların bütün arzu və istəkləri var-dövlətini daha da artırmaq olur. Oğurluq, rüşvət, qəsbkarlıq, saxta sənəd düzəltmək, haram şeyləri satmaq, sələmçilik etmək, yetim malı yemək, yabançı musiqi ilə əylənmək, pozğunluq və falçılıq kimi işlər İslamda haramdır. Hz. Peyğəmbər(s) buyurur: "Haramla bəslənən bədən ancaq Cəhənnəm oduna layiqdir."

Cənnətdə Hz. Adəm (ə) və zövcəsinə qadağan edilmiş ağac. Təfsir alimləri Allahın (c.c.) "yalnız bu ağaca yaxın gəlməyin!" (Bəqərə 2/35) ayəsində deyilən ağacın hansı ağac olması barədə ixtilaf ediblər. Amma bu ixtilafın həlli asandır. Belə ki, Allah (c.c.) müqəddəs kitablarda ağacın adını çəkməyib. Əgər bunu deməyin bizə bir xeyri olsaydı deyilərdi. Quranda bizə açıqlanmayan bu kimi çox məqamlar da vardır. (Bu qayda Quranın təfsirində qoyulmuş bir qaydadır. Çünki bu bir qeybdir və bunu yalnız vəhy ilə bilmək mümkündür.

Qiyamət günü insanların müxtəlif dəstələrlə məhşərə daxil olması. "O gün ki, (qiyamət günü) surətlərə ruh üflənər, siz insan nəsli müxtəlif dəstələrlə, hər dəstə öz başçısı ilə məhşərə, Allah-təalanın hüzuruna varid olarsınız." (Nəbə 78/18). Hz. Peyğəmbər(s) buyurur: "Ümmətimdən olan asilər 10 dəstədə məhşərə girəcəklər. Onlar; söz gəzdirənlər-meymun sifətində, haram yeyənlər-donuz sifətində, sələmçilər-üzü üstə sürünən, tərəfkeş vəzifə sahibləri-kor, pis əməl sahibləri-lal və kar, sözləri ilə əməlləri tərs olanlar-dilləri sallanmış, qonşusuna əziyyət verənlər-əl və ayaqları kəsilmiş, şər və böhtançılar-oddan çarmıxa çəkilən, nəfslərinə tabe olanlar-bədənləri iylənmiş, təkəbbür və özündən razılar-qatrandan libası olanlardır."

"Nun" qabağı. (Cucurbita) Hz. Yunus (ə) Peyğəmbəri iki gün dənizdə balığın qarnında qaldıqdan sonra yediyi meyvə-tərəvəz. Birillik bitkinin meyvə toxumları qabıqlı halda yeyilir və içi boşaldılmış qabaqdan isə su qabı kimi istifadə edilir. Meyvələrinin tərkibində şəkər və vitlər, toxumunda isə bağırsaq qurdlarına qarşı karotinli yağ maddəsi vardır.

Müsəlmanın Əhli-beyt sevgisi. Əhli-beyt, Həzrəti Məhəmməd (s) Peyğəmbərin ailəsidir. Quranın Əhzab surəsində (33/33) Allah-təala buyurur: "... Ey əhli-beyt! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz etmək istər !" Bir gün Hz. Peyğəmbər (s) Əhli-beytini yanına çağıraraq və əbasının altına almışdır ki, möminlər buna "Ali- əba" (beş nəfər seçilmiş) deyərlər. Onlar, Hz. Rəsulillah(s), Hz. Əli (ə), xanım Fatimə (ə), Hz. Həsən (ə) və Hz. Hüseyn (ə) olmuşlar.

Hz. Məhəmməd (s) peyğəmbərin xanımları. Quranın Əhzab (33/52) surəsində Allah-təala buyurur: "(Ey Məhəmməd!), bu doqquz xanımdan sonra daha sənə kəbinlə arvad almaq halal deyildir..." İslam ümmətnə ədalət şərti ilə 4 qadın halal edildiyi kimi Peyğəmbərə 9 qadın halal edilmişdir. Onlar; 1) Ümmü Sələmə Bəni Ümeyyə qızı, 2) Sevda Zəma qızı, 3) Aişə Əbu Bəkir qızı, 4) Ümmü Həbibə Əbu Süfyan qızı, 5) Hafizə Ömər qızı, 6) Safiyə Huyey ibn Əxtab Xeybərinin qızı, 7) Meymunə Haris Hələlinin qızı, 8) Zeynəb Cəhş Əsədinin qızı və 9) Cuveyriyə Haris Mustəliqinin qızı. Bu 9 qadının hamısı həyatda ikən Allahın Rəsulu dünyadan köçdü. Həmin qadınların arasında Aişəni bakirə ikən almışdır, qalanları isə dul olmuşlar. Həzrəti Məhəmməd(s) peyğəmbərin ilk qadını isə xanım Xədicə Xuveylid qızı olmuşdur ki, Peyğəmbər ilk xanımı dünyadan köçəndən sonra həmin 9 qadınla nikahlanmışdır. Allah Rəsulunun(s) ilk qadını xanım Xədicədən 3 oğlu və 4 qızı olmuşdur. Oğlanları Teyyub, Tahir və Qasım idi ki, hər üçü Peyğəmbərin sağlığında vəfat etmişlər. Qızları Zeynəb, Rüqəyya, Ümmü Gülsüm və Fatimeyi-Zəhra idi. Zeynəb, Rüqəyya və Ümmü Gülsüm atasının sağlığında ikən, Fatimə isə atasının vəfatından sonra Mədinədə vəfat etmişlər.

İlk İslam azarxanaları. Xəlifə Harun ər-Rəşid(786-809), dövründə Bağdadda əhalinin sağlamlığına diqqət verilirdi. Belə ki, ərazidəki Dəclə çayından şəhərin bütün küçələrinə su arxları çəkilmişdir. Bağdadda azarxana (xəstəxana) tikdirmək üçün Sultan Adudövlə, münasib yer axtarıb tapmaq işini təbib ər-Raziyə tapşırır. O, əvvəl eyni yaş və cinsdən olan qoyunlar kəsdirir. Sonra ətin qabırğa hissəsini şəhərin müxtəlif məhəllələrində asdırır. Bir gündən sonra həmin qabırğalardan ən az qoxu gələn ərazidə Abudi azarxanasını tikirlər. (Sultan Səlahəddinin də dövründə şəhərin ən az qarışqalar olan məhəlləsində Nasiri azarxanası tikilmişdir).

Xurma faydalı meyvədir. Quranda xurma haqqında bir çox ayədə bəhs olunan, Cənnət nemətləri arasında "bənzərsiz xurma" (Rəhman 55/68) ifadəsi ilə qeyd edilən bir faydalı meyvədir. Xurma tərkibindəki 60-65% şəkərlə ən çox şirinliyə malik olan meyvələrdəndir. Hamilə qadınlara istər doğuşdan əvvəl və istərsə də sonra xurma yemək məsləhət görülür ki, ağrılar azalsın və körpəyə veriləcək süd yaransın. Xurmanın tərkibində həyat üçün əhəmiyyətli 10-dan çox element vardır. Bundan başqa A, B_1, B_2, B_3 və B_6 vitləri də bol miqdardadır. İnsan gün ərzində 15 ədəd xurma yeməklə bədəninin dəmirə olan ehtiyacını təmin edə bilər.

Diş fırçası ilə diş pastası. Müasir diş fırçalarının bir hissəsi tük (donuz tükü) və ya plastikdən hazırlanır. Tüklü diş fırçaları, mikrobların yaranması üçün uyğun şərait yaradır. Plastik başlıqlı fırçalarda da həmin təhlükə olduğundan ən azı 2-3 aydan bir dəyişdirilməlidir. Diş pastalarının tərkibində flüor və köpükləşdirici teksapon kimi iki mühüm maddə vardır. Flüor canlıda xərçəng xəstəliyi yaradaraq ölümlə nəticələnir. Teksapon maddəsi qan hüceyrələrində zəhərli təsirə, diş ətinin şişib xəstələnməsinə və dişlərin turşulara qarşı müqavimətin azaldılması nəticəsində çürümə və allergik reaksiyalara şərait yaradır.

Mişvaq.(Ərak ağacı) (Salvadora Persika). Bu ağacın kök və budaqlarından düzəldilən gözəl qoxulu diş fırçasıdır. Bitkinin tərkibində diş əti infeksiyalarına qarşı qoruyucu təsiri olan taninik turşusu ilə astrangen maddəsi, habelə dişlərin parlaq olması üçün natrium-bikarbonat maddəsi də vardır. Mişvaqın pH-1, ağız suyunun pH-1 ilə (7,1) eyni olduğundan, ağızda yad maddə reaksiyası yaranmır. İstifadədən əvvəl ucundakı 1-1,5 sm-lik qabığı soyulan mişvaq, 24 saat suyun içərisində saxlanılır. Fırçaya bənzər hissə dişlərə sürtülərək və diş əti ilə bərabər dil və damaq da təmizlənilir.

Tələsik yemək. Yapon alimlərinin tədqiqatına görə, tələsik yeməyi sevən adamlarda hüceyrələrə qlükozanın çatdırılma prosesinin iki dəfə artıq pozulması olur. Alimlərin fikrincə, yeməyi sürətlə yeyən insanların qanında şəkərin miqdarı qida qəbulundan dərhal sonra artır. Belə ki, hüceyrələrə qlükozanın çatdırılma prosesi pozulanda qanda qlükozanın norması həddindən çox olur. Əgər profilaktik tədbirlər görülməzsə, on ildən sonra belə insanlarda şəkərli diabet xəstəliyi yaranır.

Kəpənəklər (Lepidoptera) simmetrik formalı qanadlarındakı müxtəlif rəng çalarlarına görə insanı valeh etsə də, özünü müdafiə etməklə həşəratyeyən quşları qorxudur. Kəpənəklərin ömrü bir gün, bəziləri isə 1-2 aydır. Ən iri kəpənəyin qanadları 30 sm, və ən xırdası isə 3 mm-dir. Kəpənəklər çiçəkli bitkilərin tozlanmasında əvəzolunmaz qanadlı həşəratlardır.

V.İ.Leninin(1870-1924) milli mənşəyi Yəhudi olub. Moskva Dövlət Tarix Muzeyində sərgiyə qoyulmuş məxfi sənədlər arasında, Sovet İttifaqının qurucusu Vladimir Ulyanovun (Leninin) bacısı Anna Ulyanova(1864-1935) tərəfindən 1932-ci ildə İ.V.Stalinə(1879-1953) yazılmış məktubda deyilir: "...Yoxsul bir Yəhudi ailəsindən olan babamızın sertifikatına görə atası Jitomirdə yaşamış Moses Blank olmuşdur. ...Son illərdə kommunistlər arasında Yəhudilər əleyhinə yaradılmış təbliğatın yenidən güclənməsini eşitmişəm. Bildirirəm ki, bu həqiqəti kütlələrdən gizlətmək günah və səhv olar."

Sirli monax. 855-ci ildə Roma Papası IV Levin ölümündən sonra taxt-tac 2 il, 5 ay və 4 gün müddətində Papessa İohanna (Aqnessa) adı ilə qadının əlində olub. Papessa İohanna Vatikanın yüksək rütbəli məmurlarından biri ilə gizli izdivacda olduğundan, tezliklə hamilə qalır. 857-ci il noyabrın 20-də çarəsizlikdən Roma əhalisi ilə birlikdə dini şənlikdə iştirak edən Papessa İohanna, Kolizey kilsəsi yaxınlığında küçədə yıxılaraq hamiləlikdən azad olur. Qəzəblənmiş adamların daş-qalağı nəticəsində, Papessa ilə yeni doğulmuş çağası məhv edilmişdir.

Qədim Quran nüsxələri. "Şübhəsiz ki, Quranı Biz nazil etdik, Biz də onu (təhrif olmaqdan) hifz edəcəyik." (Hicr 15/9). Allah-təala (c.c.) Quran kitabını Qiyamətədək hifz edib saxlayacaqdır. 1400 il öncə İlahi vəhyin vasitəsilə nazil olunmuş bu Kitab, indiyə qədər təhrif olmadan qalmışdır. Ən qədim Quran nüsxəsi Miladi tarixi ilə 649-675-ci illər arasında yazılmış və Almaniyanın Tubingen Universitetinin kitabxanasında saxlanılır. Bundan başqa Hicri tarixi ilə 200-300 illər arasında yazılmış 536 səhifəlik Quran kitabı, Çindəki Çunq-Çinqda saxlanılır. Hicri tarixi ilə 200-600-cü illər arasında yazılmış Quran nüsxəsi də Çindəki "Tasye-çiye" məscidində saxlanılır. 1200 il öncə yazılmış Quran nüsxəsi isə Türkiyənin İzmir milli kitabxanasında saxlanılır. Türkiyənin "Tilyaşayaq" muzeyində saxlanılan 80 kq ağırlığında Quran nüsxəsi 1087 səhifədir. Hicri tarixi ilə VIII əsrdə Məkkədə yazılmış "Mail Quran"ı isə İngiltərənin "Britaniya muzeyi"ndə saxlanılır. 650-675-ci illər arasında qoyun dərisi üzərində yazılmış Quran nüsxəsi Fransanın milli kitabxanasında saxlanılır. Hicri tarixi ilə 200-cü illərdə yazılmış Quran nüsxəsi isə 2012-ci ildə Yəmənin əl-Dali şəhəri yaxınlığındakı mağarada tapılmışdır. 1972-ci ildə Yəmənin Səfa şəhər məscidində tapılmış Quran nüsxəsi isə Hicri tarixi ilə VIII əsrin əvvəllərində yazılmışdır.

Qurani-kərimdə Günəşin hərəkəti. "Günəş özü üçün müəyyən olunmuş yerdə axıb gedər..." (Yasin 36/38). Günəş "Solar Arex" adlanan orbit boyu Veqa ulduzuna doğru saatda 720.000 km sürətlə hərəkət edir. Günəşin gündə 17 milyon 280 min km yol gedir. Maraqlıdır ki, Günəşlə bərabər onun cazibə qüvvəsinə tabe olan bütün planetlər də eyni məsafədə "axıb gedirlər".

Qurani-kərimdə ilin hesablanması. "... İllərin sayını və hesabı biləsiniz deyə, Ay üçün mənzillər müəyyən edən məhz Odur." (Yunus 10/5). Qədim astronomlar aydan ötrü 28 mənzil qeyd edərək və onların hər birinə ad vermişlər. O mənzillərin adları belədir; 1) Şəratan (qoçun buynuzu), 2) Butayn (qoçun qarnı), 3) Sürəyya, 4) Dəbəran, 5) Haka (orionis), 6) Həna, 7) Zira (aslan pəncəsi), 8) Nəsrə (aslanın burun yarığı), 9) Tərf (aslanın gözü), 10) Cəbhə (aslanın başı), 11) Zübrə (aslanın quyruğu), 12) Sarfə (hava dəyişikliyi), 13) Əvva (hürənlər), 14) Simak (silahsız simak), 15) Qafr (örtü), 16) Zübana (əqrəb qısqacı), 17) İkli (tac), 18) Qəlb (əqrəb qəlbi), 19) Şəvlə (əqrəb quyruğu), 20) Nəaim (dəvəquşu), 21) Bəldə (şəhər), 22) Sədüz-zabih (qurban kəsənin səadəti), 23) Sədubula, 24) Sədüs-süud (ən yüksək səadət), 25) Sədül-ahbiyə (çadırlar səadəti), 26) Fərül-əvvəl (dolçanın ön dəliyi), 27) Fərüs-sani (dolçanın alt dəliyi), 28) Bətnül-hut (balığın qarnı). Bu 28 mənzilin hər birinə ay bir gecə nazil olar, elə ki 28-ci gecəsi keçdi, ondan sonra ay 2 gecə gizlənər. Əgər ay 30 gün tamam olarsa, onda bir gizlənər və əgər 29 gün olsa o zaman ayın bu halətinə "məhad" (son gecə) deyilər. Ayın Günəşlə işıqlanan tərəfi Yerdəki müşahidəyə görə forması dəyişilir. 1 ay 29 gün 12 saat, 44 dəqiqə hesabı ilə bir ay tamam olur. Buna "qəməri" hesabı deyilir ki, 1 il dediyimiz Miladi təqvimi ilə hər il 11 günlük fərq olur. "Onlar mağarada üç yüz il, üstəlik doqquz il də qaldılar." (Kəhf 18/25). Bu hesab Miladi təqvimində görə 300 il, Rum təqvimində görə isə 300+9 ildir.

Qurani-kərimdə Atmosferin qatları haqqında. "Yeddi göyü təbəqələr şəklində quran Odur..." (Mulk 67/3). Yer atmosferinin üst-üstə müxtəlif təbəqələri vardır ki, onlar 1) Troposfer, 2) Stratosfer, 3) Mezosfer, 4) Termosfer, 5) Ekzosfer, 6) İonosfer və 7) Maqnitosferdir. Bu təbəqələrin də özlərinə məxsus funksiyaları mövcuddur.

Qurani-kərimdə qorunan tavan. "Göyü qorunub saxlanılan bir tavan etdik..." (Ənbiya 21/32). Atmosferin müəyyən miqdarda keçirdiyi ultrabənövşəyi şüalar bitkilərin fotosintez prosesini həyata keçirməyə kömək edir. Yer kosmosun-270 ^{0} C dondurucu soyuğundan atmosfer sayəsində qorunur. Yeri zərərli təsirlərdən qoruyan atmosferlə yanaşı Yerə məxsus "Van Allen qurşaqları" deyilən təbəqə ilə Yerin özündəki maqnetik sahəsidir.

Qurani-kərimdə Yerin təbəqələri haqqında. "Yeddi göyü və yerdən də bir o qədərini yaradan Allahdır..." (Talaq 65/12). Yerdə müxtəlif təbəqələri vardır ki, onlar 1) Litosfer (su), 2) Litosfer (quru), 3) Astenosfer, 4) Üst mantiya, 5) Alt mantiya, 6) Xarici nüvə və 7) Daxili nüvə. Yer fırlandıqca 2200 km qalınlığında olan xarici nüvə Yerin maqnetik sahəsini əmələ gətirir.

Qurani-kərimdə qitələrin yaranması haqqında. "Sən dağlara baxıb onları hərəkətsiz durmuş güman edərsən... " (Nəml 27/88). Yer qabığı özündən daha sıx olan mantiya təbəqəsi üzərində sanki üzür. Yerin quru hissəsi 500 milyon il əvvəl bir-birinə bitişik olmaqla Pangeya adlanaraq və cənub qütbündə yerləşirdi. 180 milyon il əvvəl Pangeya iki yerə bölünərək biri Qondvana deyilən Afrika, Avstraliya, Antarktida və Hindistandır. İkincisi isə Lavrasiya deyilən Avropa, Şimali Amerika və Asiyadır. 150 milyon il ərzində müxtəlif zamanlarda Qondvana ilə Lavrasiya daha kiçik hissələrə bölünmüşlər. Pangeyanın bölünməsi ilə əmələ gələn bu qitələr daima quru və dəniz arasında ildə bir neçə santimetrlik sürətlə hərəkət edirlər.

Qurani-kərimdə dəmir haqqında. "... insanlara fayda verən dəmiri də yendirdik..." (Hədid 57/25). Dəmir Yer qabığının 5%-ni təşkil edir. Günəş sistemindəki dəmir kosmosdan gəlmişdir. Günəşin səthində 6000, nüvəsində isə 20 milyon dərəcə Selsi istilik vardır. Dəmir Günəşdən daha böyük olan Nova və ya Supernova adlandırılan ulduzlarda olub və müəyyən ölçünü keçərkən ulduz partlamaqla kosmosa yayılır. Quran ayəsinə görə dəmir Yerə kosmosdan endirilmişdir. Dünyada həyat üçün ən əhəmiyyətli filiz dəmirdir. Dəmir atomu olmadan kainatda karbon əsaslı həyat olmazdı və Supernovalar da meydana gəlməzdi. Müasir tibb elmində xərçəng xəstəliyinə qarşı dəmir oksidindən istifadə olunur.

Qurani-kərimdə neft haqqında. "O Rəbbin ki, (yerdən yamyaşıl) otlar göyərtdi. Sonra da onları qurudaraq qara suya döndərdi." (Əla 4/5). Neftin əmələ gəlməsi prosesi, milyonlarla il bundan əvvəl bitki və heyvan qalıqlarından zaman ötdükcə qara rəngli mayeyə çevrilməsidir. Neftin əmələ gəlməsi haqqında qədim insanların məlumatı olmasa da, şübhəsiz ki, Allahın (c.c.) Qurandakı vəhyinə bir dəlildir.

Qurani-kərimdə elektrikdən istifadə haqqında. "... Onun üçün ərimiş misi sel kimi axıtdıq..." (Səba 34/12). Allahın (c.c.) Hz. Süleyman (ə) Peyğəmbərin ixtiyarına verdiyi nemətlərdən biri də "ərimiş mis"dir. Quran ayəsinə görə ərimiş misdən istifadə olunması, həmin dövrlərdə elektrik enerjisindən istifadənin yüksək texnologiyasıdır. Belə ki, dünyada istehsal edilən misin bir hissəsi elektrik sənayesində istifadə olunur.

Qurani-kərimdə kainatın altı gündə yaradılışı. "Rəbbiniz göyləri və yeri altı gündə xəlq edən, sonra ərşi yaradıb hökmü altına alan Allahdır..." (Əraf 7/54). Kainatın yaşı 16 milyard ildir. Belə ki, zamanın nisbiliyinə görə Qurandakı 6 günlük müddəti 6 dövr kimi qəbul edə bilərik. Kainatın ilk dövrlərində zaman bugünkündən daha sürətlə keçmişdir. Yerdə milyon dəfə milyon dəqiqə keçdikdə sadəcə bir dəqiqə keçmiş olur. Yaradılışın 6 gününün hər biri bizim zaman anlayışımızla bir-birlərindən fərqli zamanlara uyğun gəlir. Çünki 6 trilyon gün təxminən 15427 milyarda uyğun gəlir. Big Bang-dən sonra kainatın böyüklüyü 2 dəfə artsa da zamanın axım sürəti isə azalmışdır. Yaradılışın 6 günü, yəni 6 dövrü Yerdəki zamana uyğun hesablanıb toplandıqda 15 milyard 750 milyon il edir.

Qurani-kərimdə Cəhənnəmin 7 qapısı haqqında. "Cəhənnəmin yeddi qapısı vardır. Hər bir qapıdan ötrü (cəhənnəmə girənlərə) qismət olunmuş bir hissə vardır." (Hicr 15/44). Allah (c.c.) Hz. Adəm (ə) peyğəmbəri torpaqdan yaradıb və onun ruhuna əmanət qoyulmuş bacarığına görə, mələklərə onun ağlına itaət etməyə əmr olundu. Mələklər insanın ağlına görə itaət edərək və ona səcdə etdilər. Təkcə İblis öz xəbisliyindən insan ağlına itaət etməkdən imtina etdi və Adəmə səcdə etmədiyi üçün Allah (c.c.) dərgahından qovuldu. İblis isə bunun əvəzində insanın 7 bədən üzvünü (qəlb, göz, qulaq, dil, burun, əl, ayaq) özünə meyl etdirməklə və Cəhənnəmin 7 qapısını insanın üzünə açdı.

Qurani-kərimdə göydəki 12 ulduz bürcləri haqqında. "Həqiqətən, biz səmada (on iki ulduz) bürcü yaratdıq və (səmaya ibrət gözüylə) baxanlardan ötrü onu (parlaq ulduzlarla) zinətləndirdik." (Hicr 15/16). 12 bürcün adları bunlardır; Həməl (qoç), Səvr (buğa), Cövza (əkizlər), Sərətan (xərçəng), Əsəd (aslan), Sünbülə (qız), Mizan (tərəzi), Əxrəb (əqrəb), Qövs (oxatan), Cədy (oğlaq), Dəlv (dolça) və Hut (balıq). Bu 12 bürc 12 şəmsi (günəş) aylarıdır. Bir ilimiz isə 12 günəş aylarından ibarətdir.

Qurani-kərimdə Həzrəti Mehdi (ə) (axırzaman) haqqında. "... və o gündə vaqe olan əcaib və qəribə işlərə, ya da ki, İslamı möhkəmləndirmək üçün dünyaya gələn bu (insana) və ondan zühur edən əcaib və qəribə işlərə." (Bürclər 85/3). Miladi təqvimi ilə 1979-cu ilin axırında (Hicri 1400) Həzrəti Mehdinin (ə) zühuru ilə əlaqədar Hz. Məhəmməd(s) peyğəmbərin söylədikləri hədislərə görə dünyanın bir çox yerində qəribəliklər olmuşdur. Onlardan biri də İrandakı haqsızlığa qarşı və İslam dinini möhkəmlətmək üçün aparılan xalq inqilabı idi və s. Ayədəki əcaib və qəribə işlər dünyadakı kompyuter texnologiyasının yaradılmasına işarətdir.

Qurani-kərimdə Əbabil (Microhirotera) quşlarının fil sahibi Əbrəhəyə qalib gəlməsi. "(Ey Məhəmməd) bəs agah olmursan ki, sənin rəbbin Allah-təala fil sahibinə və qoşununa əzab göndərərək və onları necə həlak etdi?" (Fil 105/1). Yəmən hakimi Əbrəhə ibn əs-Səbbah ibn əl-Əşrəm Həbəş hakimi Nəcaşinin tabeliyində idi. O, Səna şəhərində böyük kilsə tikdirərək istədi ki, ərəbləri Kəbə ziyarətindən çəkindirsin. Əbrəhə həmin kilsənin adını Qülleys qoyur. Ərəblərdən (Bəni-Kinanə tayfasından) Malik adlı bir nəfər həmin kilsəyə "ziyarətə" gəlir. Gecəni kilsədə qalan Malik divarlara nəcis sürtüb murdarlayır. Səhər bundan xəbər tutan Əbrəhə ərəblərin ziyarətgahı olan Kəbə evini dağıtmağa and içir. Hökmdar qoşun toplayaraq və Mahmud adında nəhəng fil üstündə Məkkəyə tərəf hücuma keçir. Yolda Ərəb əyanlarından Zunəfər adlı birisi öz silahlıları ilə Əbrəhənin qarşısına çıxıb savaşanda məğlub olaraq əsir düşür. Sonra Xasəm tayfasından Nüfeyl ibn Həbib adlı birisi Fil sahibinin qarşısına çıxanda o da məğlub olaraq əsir alınır. Sonra Taifin başçısı Məsud ibn Müğeys Əbrəhənin qarşısına çıxaraq və ona tərəf durur. O, öz adamlarından Əbu Riğal adlı bir nəfəri Əbrəhəyə bələdçi verərək onlara xeyir-dua edir. Bələdçi qoşunu gətirib Müğəmmis adlı bir yerə çatdıranda Allahın hökmü ilə qəflətən ölür. (Müsəlmanlar indi də Məkkə ilə Taif arasındakı həmin yerə çatanda Əbu Riğalın qəbrini daşlayırlar). Əbrəhə yola düşərək Əsvəd ibn Məsud adlı bir nəfəri qoşunun qabağında getməsini təyin edir. Əsvəd qoşunla bərabər Məkkə ərazisinə çatdıqda, əhalinin heyvanlarını əllərindən zorla alaraq qəsb edir. Bu zaman o, Məkkə tayfa başçısı Əbdülmütəllibin (Hz. Məhəmmədin(s) babası) 200 dəvəsini də əlindən alır. Zalım Əbrəhə Məkkə yaxınlığındakı Hərəm bölgəsində dayanaraq və Hünata adlı bir kişini Məkkənin başçısının yanına göndərib və belə deyir; "Get onlara de ki, gəlmişik Kəbəni dağıtmağa" Hünata gəlib Haşim oğulları tayfa başçısı Əbdülmütəlibi görüb və Əbrəhənin sözlərini ona deyir. Əbdülmütəllib ona belə cavab verir: "Biz ona qarşı savaşa çıxmırıq və Kəbənin arasını boşaldarıq. Kəbə Allahın evidir oranı Hz. İbrahim (ə) oğlu Hz. İsmayıl (ə) ilə birlikdə tikmiş. Əgər bu evi xarab etmək üçün gəlibsə, Allah öz evini qoruyar". Sonra Əbdülmütəllib Əbrəhənin hüzuruna gəldi. Əbrəhə ona hörmət üçün yanında yer göstərsə də onlar birlikdə yerdə əyləşdilər. Əbdülmütəllib dedi: "Ey Əbrəhə səndən istəyim budur ki, qəsb olunmuş 200 baş dəvəmi geri qaytarsınlar." Əbrəhə hirslənərək durub dedi: "Mən səni görəndə gözümdə böyüdün, lakin bu sözünə görə gözümdən düşdün." Əbdülmütəllib dedi: "Niyə və nədən ötrü?" Əbrəhə qeyzlənərək; "Mən gəlmişəm sizin müqəddəs saydığınız Kəbəni uçurub dağıdam, sən isə dəvələrini məndən istəyirsən." Əbdülmütəllib kefini pozmadan dedi: "Ey Əbrəhə mən dəvələrimin sahibiyəm, Kəbənin isə sahibi Allahdır ki, onu Özü qoruyar." Əbrəhə dəvələrin qaytarılmasına əmr verəndən sonra Əbdülmütəllib gedib Kəbə qapısını açaraq belə dedi: "Ey Allah, qul ailəsini qoruyar, Sən də evini qoru və zalımları öz evindən dəf et!" Bundan sonra Əbdülmütəllib camaatla bərabər yaxındakı Hira dağına qalxaraq və Məkkəni boşaltdılar. Filin üstündə oturmuş Mahmud qoşunun qarşısında gəlib Hərəmə çatanda fil dayandı. Bu zaman Yəmən tərəfdən uçan çoxlu quş peyda oldu. Gecəquşuna oxşayan həmin quşların dimdiklərində noxuddan kiçik daş parçalarını gətirib və Əbrəhənin qoşununun

üzərinə tökdülər. Daş parçaları kimə dəyirdisə onu yandıraraq həlak edirdi. Daşlardan biri də Əbrəhəyə dəyərək və o da Sinaya çatanda yolda öldü. Fil hadisəsindən iki ay sonra (Miladi 570-ci ildə) Allahın sevimli bəndəsi Hz. Məhəmməd(s) anadan oldu.

Amerika qitəsi öz adını İtaliya səyyahı Ameriqo Vespuççidən(1451-1512) deyil, Böyük Britaniyanın Bristol şəhər taciri Riçard Amerikdən(1448-1501) götürüb. O, 1497-ci ilin mayında "Metyu" gəmisi ilə Labrodora çataraq və Vespuççidən iki il əvvəl Amerika qitəsinə ayaq basmışdır.

Həyatda təsadüf varmı? Təsadüf demək dinimizin məntiqinə, daha doğrusu imanın sarsılmaz əsaslarından olan qəza və qədərə, yəni hər şeyin Allahdan (c.c.) gəlməsi həqiqətinə ziddir. 1898-ci ildə yazıçı Morqan Robertson "Titanikin batması" adlı bir roman yazır. Romanda İngilis gəmisi "Titanikin" Atlantik okeanında ABŞ-a gedərkən, bir aysberqlə toqquşmasından və gəmidəki qayıqların az olması səbəbindən sərnişinlərin faciəli surətdə suda batması göstərilmişdir. 14 il sonra isə okean sularında eyni adlı gəmi, üzən buzla toqquşma səbəbindən 2500 sərnişinin həlakına səbəb olmuşdur.

Avstraliya qitəsində yaşayan quru qurbağası (Rheodatrachus Silus). Növün dişisi dölləndikdən sonra öz yumurtalarını udur. Yumurtalardan çıxan balalar anasının mədəsində 6 həftə qalaraq və tədriclə orada böyüyürlər. Doğum zamanı çömçəquyruq balalar, ana qurbağanın genişlənmiş yemək borusundan sıçrayıb ağzından çıxırlar. Allah (c.c.) hər bir canlını nəslini artıracaq xüsusiyyətdə və instikdə yaratmışdır.

İndoneziya Hind və Sakit okeanları arasında yerləşmiş Cənub-Şərqi Asiyada dövlətdir. 13.766 adadan ibarət olan dünyanın ən iri arxipelaqının sahəsi 1904,3 min km^2 -dir. Əhalisinin 87%-i müsəlman olan 26 əyalətdən ibarət dövlətin (paytaxtı Cakatradır) ərazisində 150-dən çox xalq yaşayır.

Gəmi ilə dünyanı üç dəfə səyahətə çıxmış ingilis dəniz səyyahı Ceyms Kuk(1728-1779), Antarktidadan başqa bütün qitələrə ayaq basmışdır. Birinci səyahətində Sakit okeandakı adalarla Avstraliyanı, ikinci səyahətində Sakit okeandakı cənub qütb dairəsini keçərək bir sıra adaları və üçüncü səyahətində isə Atlantik okeandakı Havay adalarını kəşf etmişdir. Dünya xəritəsində 20-dən çox coğrafi yer adları səyyahla bağlıdır ki, məsələn; Kuk adaları (sahəsi 234 km^2), Kuk boğazı (uzun. 205 km, en. 25-150 km), Kuk dağı (hünd. 3.764 m), Kuk körfəzi (uzun. 370 km, en. 18-111 km) və s.

Ömrünün 36 ilini səyahətdə keçirən Hacı Zeynalabdin Şirvani (1779-1838), çətin keçilən dağlarda, susuz səhralarda, okean və dənizlərdə 60.000 km yol getmişdir. Səyyah və coğrafiyaşünas 1-ci səyahəti zamanı Orta Asiya, Hindistan yarım adası, Seylon adası və cənub-şərqi Asiya, 2-ci səyahəti zamanı İran körfəzi, Hind okeanı və Qırmızı dəniz boyu Ərəbistan yarım adası və 3-cü səyahəti zamanı Kiçik Asiya, Balkan yarım adası, Aralıq dənizi, Atlantik okeanındakı Kənar adaları və şimal-qərbi Afrika ərazilərində olmuşdur.

Balıq əhvalatı. Bir gün Bakı camaatı küçədə Hacı Zeynalabdin Tağıyevə(1838-1924) şikayətlənirlər ki; "Hacı, neçə gündür şəhərdə balıq tapılmır." Hacı gülərək cavab verir: "Səbirli olun, tezliklə bazara balıq gətirərlər". Ertəsi günü Hacı faytonla dəniz sahilinə gedir. Orada satılan təzə tutulmuş çapalayan bir balığı satın alır. Brilyant qaşlı qiymətli üzüyünü balığın quyruğuna bağlayaraq və adamların gözü qarşısında dənizə tullayır. Balıqçılar həmin balığı tutmaq niyyəti ilə dənizdə tor atırlar. Beləliklə iki gündən sonra bazarda satılan təzə balıq əti çoxalır...

Qartal (Aquila) Açılmış qanadını uzunluğu 2, 4 m, ağırlığı 6 kq olan qartalın gözü 300 dərəcəlik geniş görməyə malikdir. 4.500 m yüksəklikdə uçan qartal 30.000 hektar sahəni görə bilir. 1.500 m. yüksəklikdən ovunu asanlıqla müəyyən edən qartalın gözlərində "niktitant pərdə" deyilən göz qapağı vardır ki, gözlərini təmizləyir.

Hörümçəklər (Aqapey) Bədəninin uzunluğu 0,7 mm-dən 11 sm-dək olur. Yırtıcı buğumayaqlı həşərat, oturaq həyat keçirsə də, gecə-gündüz fəal olur. Hörümçəyin qarın boşluğunda 1000-dək yapışqanlı maye ifraz edən vəzi vardır. Təbiətdəki zərərli cücülərlə qidalansalar da, insan üçün təhlükəli olanı qaraqurd və tarantuldur. Ev, xaçlı, qaçağan və su hörümçəkləri isə zərərsizdir.

Göy qurşağı (Qövsi-qüzeh) Atmosferdə müxtəlif rəngli qövslər şəklində müşahidə olunan optik hadisə nəzəriyyəsini ilk dəfə Fransız Rene Dekart(1596-1650) "İşıq haqqında traktat" (1633) əsərində bildirmişdir. Adətən yağışdan sonra görünərək, qövsünün bucaq radiusu 42° olur. Onun rəngləri qırmızı, narıncı, sarı, yaşıl, mavi, indiqo və bənövşəyi olsa da, əslində 7-dən çox arasıkəsilməz rəng spektrləri vardır.

Göy gurultusu atmosferdə səs hadisəsidir ki, ildırım boşalması zamanı müşahidə olunur. İldırımın yolunda təzyiqin ani artması nəticəsində havanın rəqslərindən yaranır.

Bibərin (Piper) insan orqanizminə xeyri istiot fəsiləsindən olan bibər dünyanın hər iqlim şəraitində bitir. Acı bibər ürək üçün çox xeyirlidir, bədən istiliyini artırır və qan dövranını sürətləndirir. Acı bibər insandakı baş ağrısı və soyuqdəymə hallarını tənzimləyir. Qırmızı bibər ürək narahatçılığını azaldır bədəndə istiliyi artırır və oksigen ehtiyatı yaradır. Tərkibindəki A viti gözlərə və immunitet sisteminə yaxşı təsir edir, B viti beynin inkişafına əhəmiyyətlidir, E viti hüceyrə zədələnməsinə mane olur və S viti isə infarktın qarşısını alır.

Küsdüm otu (Mimoza) xalq təbabətində insan hafizəsi və sağlamlığı üçün qiymətli çoxillik bitkidir. Bitkinin dünyada 500-dək növü məlumdur ki, Qafqaz və Qara dəniz sahillərində bitən növü Utancaq küsdüm (Mimoza pudica) xarakterikdir. Belə ki, yarpaqları xarici təsir nəticəsində yumulub-açılır. Yağış zamanı bitkinin bir yarpağına su damılası düşəndə, dərhal onun bütün yarpaqları büzüşür. Yarpaqları ikiqat lələkvarı bölümlüdür. Xırda çiçəkləri başcıq və ya sümbülşəkilli çiçək qrupunda yerləşir. Meyvəsi nazikpərdəli və dərivari paxlalıdır.

Kürəkayaqlı xərçənglər (Copepoda) Onurğasız parazit həyat sürən heyvanın ölçüsü 0,1- 13 mm-dək olur. Xərçənglər dəniz, çay və göllərdə yayılaraq planktonların 90%-ni təşkil edir. Balıqlar tərəfindən udulduğundan, balıqların orqanizmində də parazit həyat sürürlər. İnsan orqanizminə düşdükdə, puşta (qurd) xəstəliyini törədir. Azərbaycanda belə parazit su heyvanlarının 52 növü yayılmışdır.

Elektrik ilan balığı (Electrohorus elektricus) Uzunluğu 2 m. 75 sm-ə çatan elektrik ilan balığı Amozon çayında yaşayır. Balıq bədənində yaratdığı elektriklə ovunu öldürür. Balığın elektrik yaradan mexanizmi saniyənin 1000-də 2 və ya 3-ü qədər qısa müddətdə işə düşür. Elektrik ilan balığının üç cüt elektrik orqanı vardır ki, balığın boyunun 4/5-ni təşkil edir. Balığın quyruğunda 70 sütun şəklində düzülmüş, 10.000 kiçik elektrik orqanı yerləşir.

Qatıqla balıq əti yemək olmaz. Balıq ətinin tərkibindəki "hist" proteini, qatığın (yoqrutun) da tərkibində olduğundan, birləşərək və orqanizmdəki "histin" miqdarı artır. Nəticədə allergiyaya həssas olan insanların bədənində qızartılarla qaşınmalar baş verdiyindən zəhərlənmə olur.

Suyun rəngi şəffaf deyil, solğun və mavi rəngdədir. Lakin okean və dəniz suları göy üzünü özündə əks etdirdiyi üçün suyun şəffaflığı dəyişilir.

Atlar (Equus) ayaq üstə yatdıqları kimi, həm də çox ağır yük daşıyan tək dırnaqlı heyvandır. Atların ayaqları təkcə ağır yük daşımaq üçün deyil, eyni zamanda, daha sürətlə qaçmaq üçün yaradılmışdır. Ayaq üstə yatan atları Allah, bu xüsusiyyətlərinə görə insana xidmət etmək üçün yaratmışdır. Yer üzərində təkcə Antarktida qitəsindən başqa hər yerdə müxtəlif at cinsləri yayılmışdır.

Tırtıllar Ölkəmizdəki 1000-dən artıq bitkilərlə qidalanan tırtıllar, İlahi proqramla kəpənəyin sürfə formasından pup mərhələsinə düşərək sonra isə qanadlı kəpənəyə çevrilirlər. Tut ipəkqurdu tırtılı xeyirli olaraq, barama sapından təbii ipək toxuyurlar.

Vanda gölü Yer kürəsinin ən soyuq qitəsi olan Antarktidada yerləşir. Sahəsi 13.975 min km^2 olan Antarktida, Yerin ən yüksək materikidir, üzərindəki buz qatının qalınlığı 1720 m-dir. Daimi qar və buzlaqlarla örtülü olan altıncı qitənin qərb hissəsindəki püskürməkdə olan Erebus (3794 m) vulkanı yaxınlığındakı Vanda gölü suyunun temperaturu +25 C° istidir.

Nil çayı Afrika qitəsində ən uzun çaylardan biridir. Qitənin cənub-şərqindən mənbəyini başlayan 6671 km uzunluğunda və beş yerə bölünmüş çay, qitənin şimal-şərqindəki delta şəkilində Aralıq dənizinə tökülür. Cənub yarımkürəsində və isti (tropik) qurşaqda yerləşən Nil çayı, IX və XI əsrdə başdan-başa buzla örtülmüş və 1979-cu il 18 fevralda isə əraziyə qar yağdığından, çayın deltasında su örtüyü donmuşdur.

Dünyada ən böyük ölçü rəqəmlərlə vahidi 1 000 000 000 000 000 millilleondur.

Dünyada ən uzun ad hindli Brəhmənidir ki, 1.478 hərfdən ibarətdir.

Dünyada ən uzun körpü Sarı dənizdəki ÇXR-ın Tsindao limanını Xuandao adası ilə birləşdirir. 5 min beton dirəklər üzərində 4 ilə tikilmiş 42 km uzunluğunda olan körpünün konstruksiyası, 8 ballıq zəlzələyə davamlıdır.

Ərəbistan yarımadası yenidən otlaqlara çevriləcək. Əbu Hureyrənin söylədiyi hədisdə Hz. Peyğəmbər(s) buyurmuşdur ki; "Ərəb torpaqları yenidən otlaqlara çevrilməsə Qiyamət qopmayacaq." Hədisə görə hal-hazırda quraq səhra iqliminin yenidən otlaqlara keçmə prosesi başlayıb.

Barens dənizi Kildin adasındakı gölün suyu beş qatdan ibarətdir. Gölün dibindəki birinci qat canlıları məhv edən hidrogen sulfidlidir. İkinci qatda bakteriyalar, dəniz kirpiləri və dəniz ulduzları yaşayır. Dördüncü qatın suyu duzlu olduğundan dəniz heyvanları yaşamır. Beşinci üst qatın suyu isə şirin və durudur.

Lut gölündə (Ölü dəniz) canlılar. Dəniz səviyyəsindən 392 m aşağıda, sahəsi 1050 km^2 , dərinliyi 356 m və duzluluğu 270% olan gölün suyunda, heç bir canlının yaşaması düşünülürdü. Alman elm adamları tərəfindən, Ölü dənizin 100 m dərinliyində mikroorqanizmlərin yeni növləri kəşf olunmuşdur.

Himalay dağlarındakı buzlar əriyir. Dünyanın ən hündür dağı olan Himalaydakı Everest (8848 m.) zirvəsindəki buzlaqlar sürətlə əriyir. Yapon elm adamlarının 40 illik araşdırmalarına görə, 1970-90-cı illər ərzində Himalaydakı 15 min buzlaq, 72 m. qalınlığında ərimişdir. Buzların əriməsinə səbəb atmosferdəki qlobal istiləşmə olmuşdur.

Qarışqalar meşə "həkimi"dirlər. "Terminator" (Formica) adlanan qırmızı qarışqalar, ağacların qabığı altında olan zərərvericiləri məhv edirlər. Onlar qabıq altındakı həşəratları ifraz etdikləri xüsusi maddə ilə iflic edərək yeyirlər. Ağacdələn (Picidae) kimi qarışqalar da, ağacların "həkimi" sayılaraq bağbanların köməkçiləridir.

Bal arısı (Apis millifera). Vətəni Cənubi Asiya sayılan bu həşəratlar, yarım kiloqram bal əldə etmək üçün 120.000 km məsafəni uçmalı və 3 min çiçəyə qonmalıdır. Bal arıları bir pətəyi doldurmaq üçün 100 milyon çiçəyin şirəsini sorub yığmalıdır. Ana arının bir gündə yumurtladığı yumurtaların ağırlığı öz çəkisindən 20 dəfə çoxdur. Arı özündən 330 dəfə ağır yük daşıya bilir.

Zəm-zəm suyu. Ümumdünya Səhiyyə Təşkilatının (WHO) hazırladığı hesabata görə, dünyanın insan səhhəti üçün ən əlverişli suyudur. Zəm-zəm suyunun tərkibində mikroorqanizm yoxdur. Zəm-zəm suyunun əsas mənbəyi Taif şəhərini əhatəsindəki dağlardır. Məkkə şəhərindən 110 km məsafədə yerləşən Taif dağlarına hər gün yağış yağır və qış vaxtı isə qar olur. Buna görə də zəvvarların ehtiyacını ödəyən "sirli su" azalmır.

Kəbə örtüyü. Təmiz ipəkdən olan Kəbə örtüyü, "Kəbeyi-şərif örtük fabriki"ndə ilmə-ilmə tikilir. İldə 3 ay işləyən fabrikdə yalnız "Kəbə örtüyü" toxunar. Həmin örtük hacıların Ərəfatdan qayıdarkən salınır. Ümumi sahəsi 658 kvadrat metr olan örtük uzunluğu 14, eni 1,1 metr olmaqla 47 hissədən ibarətdir. Örtük üzərində qızılı sapla dəzgahda toxunmuş "La İlahə İlləllah, Muhəmmədun Rəsulullah, Allahu cəllə-cələlahu, Subhanallah və bihamdihi, Subhanallahil-azim, Ya Hənnan, ya Mənnan" sözləri yazılmışdır. Beş hissədən ibarət olan örtük üçün 450 kq. ipək sapdan toxunmuş 658 m. parça (47 top) istifadə olunur.

"Gələcəyin kitabxanası"nda kitablara robotlar nəzarət edir. ABŞ-ın Çikaqo universitetində klassik kitab rəflərinin əvəzinə robot sistemlərinin nəzarət etdiyi kitabxana yaradılıb. "Gələcəyin kitabxanası" deyilən kitabxanada 3,5 milyondan çox kitab saxlanılır. Kitablar kompyuterlərin nəzarətindəki vinçlərlə qısa müddət ərzində oxucuya çatdırılır.

Dünyanın ilk ekoloji məscidi. Almaniyanın Hamburq şəhəri yaxınlığında minarələrində külək turbinləri olan, məscid tikilir. 1300 kvadratmetr sahəsindəki 22 metrlik 2 minarəli məscidin memarı Səlcuq Ünyılmazdır.

Şirniyyatdan olan məscid. İndoneziyanın Surabaya şəhərindəki ticarət mərkəzlərindən birində şirniyyatdan məscid hazırlanıb. 8 x 8 metr ölçüsündə olan yeməli "obyekt", Ramazan bayramı münasibətilə "tikilmişdir". 3 gün ərzində 5 nəfərin hazırladığı mini-məscid, 21 min tikə vaflidən düzəldilib.

Kəbənin içərisi qızılgül suyu ilə yuyulur. Hər il Ramazan ayına hazırlıq məqsədi ilə Kəbənin içərisi Zəm-zəm su qarşılıqlı qızılgül suyu ilə yuyularaq və döşəməsi də xurma yarpaqları ilə süpürülür. Həcc mövsümü ərəfəsində Kəbənin 658 kvadratmetr olan qara rəngli və üzərindəki qızılı naxışları olan örtüyü də təzəsi ilə əvəz olunur.

Müqəddəs Kəbənin açarı dəyişdirildi. Müsəlmanların qibləgahı olan Məkkə şəhərindəki Kəbənin qıfılı 60 ildən sonra dəyişdirilib. Yeni qıfıl təmiz qızıldan hazırlanıb. Yeni qıfılın açarı 1400 ildir ki, Kəbənin açarını mühafizə edən məkkəli əş-Şəybi ailəsindədir. Həmin açar Kəbə örtüyünün tikildiyi fabrikdə hazırlanan xüsusi bir kisədə saxlanılır.

Qədim xəttatlıq sənəti. Orta əsr müsəlman ölkələrində xəttatlıq sənəti inkişaf etmişdir; Kufi xətti- X əsrdə Kufə şəhərində yaradılaraq bu xətlə Quran kitabları yazılmışdır. Süls xətti- X əsrdə xəttat Əbu Əli Məhəmməd tərəfindən yaradılaraq buna, "xətlərin anası" adı verilmişdir. Nəsx xətti- XII əsrdə xəttat Muğlə Şirazi tərəfindən yaradılaraq buna, "kufini aradan çıxaran" adı verilmişdir. Nəstəliq xətti- XIV əsrin sonunda xəttat Mirəli Təbrizi tərəfindən yaradılaraq buna, "kitabə xətti" adı verilmişdir.

Qədim Mayya təqvimi. E.ə. 1000-ci ildə indiki Mərkəzi Amerikada yaşayan mayyalıların istifadə etdiyi "Haab təqvimi" 365 gündən ibarət idi. Habelə, mayyalılar bir ilin uzun olduğunu da göstəriblər. Onların hesablamalarına görə, bir il 365.242036 gündən ibarətdir. Hazırkı Qriqori təqvimi isə 365.2425 gündən ibarətdir. Beləliklə o dövrün təqvimi, indiki təqvimlə demək olar ki, eynidir.

Kainat genişlənir. 2011-ci ildə fizika sahəsində "Kainatın sürətlə genişlənməsi" sübut edilərək elm adamları (Saul Perlmutter və Adam Reiss) Nobel mükafatı almışlar. 14 milyard il əvvəl baş vermiş "Böyük Partlayış"dan (Big Bang) etibarən kainat genişlənir. Əgər bu belə davam edərsə, kainat buz kütləsinə çevrilə bilər. Allah (c.c.) Qurani-kərimin Zariyat (51/47) surəsində kainatın genişlənməsini belə bildirir; "Biz göyü qüdrətlə yaratdıq və Biz onu genişləndiririk."

Kainatdakı mükəmməl müvazinət. 200-300 milyard ulduz olan qalaktikalar bir-birinin içindən keçib gedirlər. Allahın (c.c.) qüdrəti ilə kainatdakı böyük nizamı pozan hər hansı bir toqquşma baş vermir. Yer saatda 1670 km sürətlə öz "oxu" ətrafında fırlanır. Günəş sisteminin qalaktika mərkəzi ətrafındakı fırlanma sürəti saatda 720.000 km-dir. 200 milyard ulduz olan Südyolu qalaktikasının kosmosdakı sürəti isə saatda 950.000 km-dir.

Qədim Yəsrib şəhəri. Mədinənin əvvəlki adı Yəsrib olmuşdur. Eramızdan əvvəl həmin yerdə məskunlaşmış Yəhudilərin Əmalikə tayfasından olan Yəsrib adlı bir nəfər qəbilə başçısının adı ilə adlanmışdır. Həzrəti Məhəmməd (s) Peyğəmbər Mədinəyə hicrət edəndən sonra şəhərə "Mədinətür-Rəsul" (peyğəmbər şəhəri) adı verildi. Sonradan isə "rəsul" sözü götürülərək və qədim şəhər Mədinə (şəhərlər anası) adlandırılır.

Qurani-kərimdə dünyada və Cənnətdəki rənglər haqqında. "... Rənglərin ən yaxşısı yaşıl rəngə çevriləndir." (Yasin 30/33). Allah-təala Quran kitabında dünyada olan və əbədi yaşayış məskəni sayılan Cənnət gözəlliklərindən biri kimi rənglərdən bəhs edərkən, yalnız yaşıl rəngə üstünlük verilmişdir. Elə buna görə də müsəlmanlar yaşıl rəngin simvolu kimi İslam bayrağını yalnız yaşıl rəngdə qəbul etmişlər.

Qurani-kərimdə yaşıl ağacdan od alınması haqqında. "Allah-təala elə qüdrət sahibidir ki, sizdən ötrü təptəzə yaşıl ağacdan od çıxardıb verib ki, o yaş ağacın odu ilə qızınıb özünüzdən soyuğu dəf edəsiniz..." (Yasin 30/80). Afrika və Ərəbistanda bitən Mərx və Afar ağaclarının nazik budaqlarını qırıb və qabığını soyduqdan sonra bir-birinə sürtməklə od alınır. Ərəblər mərxə "kişi" və afara isə "qadın" deyərlər.

Qurani-kərimdə Səba tayfalarının Ərim selindən sonra dağılması. "Onlara (sel) əzab göndərib xalqını pərən-pərən etdik, belə ki, hər tayfa bir başqa diyara gedib və daha onlardan ötrü bir məkana toplanmaq mümkün olmadı." (Səba 34/19). Ərim seli Səba camaatının bağlarını xarab edərək və çoxunu da həlak edir. Bundan sonra qalmış beş tayfa (Əzd, Xüzaə, Xüzeymə, Qəssan və Ləxm) hərəsi Ərəbistanın bir diyarına gedib məskunlaşırlar. Əzd tayfası Əmmanda, Xüzaə tayfası Bəkkə (Məkkə) ətrafındakı Tihamə deyilən yerdə, Xüzeymə tayfası Kufə ilə Bəsrə arasında, Qəssan tayfası Şam yaxınlığındakı Bəlqə və Həvranda və Ləxm tayfası isə İraqdakı Kufə yaxınlığında məskunlaşırlar.

Həzrəti İdris (ə) peyğəmbərin hikmətli sözləri. Allah-təala Yərd oğlu Hz. İdris (ə) Peyğəmbərə otuz səhifə hikmət vermiş, babası Hz. Adəm (ə) Peyğəmbərdən sonra cizgi ilə yazmağı öyrətmiş və iynə ilə paltar tikməyi bildirmişdir. Həmin hikmətli sözlərdən bir neçəsi bunlardır; 1) Səbirdən və Allaha imandan zəfər doğular. 2) Xoşbəxt o kəsdir ki, öz nəfsini qoruya bilsin. 3) İnsanın Qiyamət günü Allahdan şəfaət alması onun əməlinə bağlıdır. 4) Allaha ibadəti və duanı saf niyyətlə edin. 5) Yalançılarla oturub-durmayın, günahlarına da şərik olmayın. 6) Nadanlıq və cahillik elmin yolunu bağlar, nəcib əməlin də üstünə kölgə salar. 7) Dünyanı və Axirəti bir ürəkdə sevmək olmaz.

Qurani-kərimdə Günəş ətrafındakı mövcud 9 planetin dağılması. "Qiyamət günündə tövhid və axirəti təkzib edənlərə əzab və fəlakət olsun!" (Mürsəlat 77/19,24,28,34,37,40,45,47,49). Surədə 9 dəfə müşriklərə Allah-təala lənət edir. Həmin doqquz bəddua Günəş ətrafındakı öz orbitlərində fırlanan 9 planetə işarədir. Qiyamət günündə həmin planetlər parçalanacaq və yalnız bir naməlum planet qalacaq ki, onun üstü Cənnət və içərisi isə Cəhənnəmdir.

İslam mədəniyyəti paytaxtı. 2013-cü ildə Mədinə şəhəri İslam dünyasının mədəniyyət paytaxtı seçilib. Əvvəlki illərdə Rabat, İsfahan, Bakı, Dakar, İsgəndəriyyə və Məkkə şəhəri İslam mədəniyyətinin paytaxtı olub. Mədinədə İslam mədəniyyətinə həsr olunmuş konfrans, seminar müsabiqə və konsertlərin keçirilməsi və habelə Peyğəmbər məscidinin yenidən qurulması gözlənilir.

Piri-Rəis (1465-1554) "ili". Türk Osmanlı dəniz səyahətçisi və kartoqraf Piri-Rəis (Hacı Muxiddin Piri ibn Hacı Mehmet) Dünya Fiziki Xəritəsinin ilk müəllifidir. Belə ki, o, (500 il öncə) 1513-cü ildə çəkdiyi coğrafi xəritəsində Amerika qitəsi ilə Antarktida qitəsini də göstərmişdir. Buna görə UNESKO-un 36-cı sessiyasında 2013-cü il- Piri-Rəis ili kimi elan olunmuşdur.

Skelet-mühəndislik möcüzəsidir. Canlı orqanizmin dayaq sistemi olan skelet, eyni zamanda ürək, beyin və ağ ciyəri qorumaqla və daxili orqanlara dəstəkdir. Bu sümüklərdə orqanizm üçün lazım olan kalsium, fosfat və başqa mineral maddələr və habelə qırmızı qan hüceyrələri yerləşir. Skelet sümükləri elastikliyi, möhkəmliyi və yüngüllüyü ilə bərabər özü-özünü təmir-bərpa etmə xüsusiyyətinə də malikdir. Məsələn, hamiləliyin son ayında qadınlarda çanaq sümükləri yumşalaraq və bir-birindən bir az ayrılır. Oynaqlar hərəkət və gücə düşdükdə isə, sürüşkən təbəqə altındakı maye ilə "yağlanırlar".

Rus rəssın "günahı". Sankt Peterburq dövlət universitetinin Professoru İ.Froyanov, dini işlər üzrə məsləhətçi V.Boyko-Velikiy və başqaları Rusiya Mədəniyyət Naziri V.Medinskomu və Moskvadakı Tretyakov Qalereyası direktoru İ.Lebedevaya xahiş ediblər ki, rəssam İlya Repinin(1844-1930) 1885-ci ildə çəkdiyi "İvan Qroznı oğlu İvanı öldürür" adlı tablosunu ləğv etsinlər. Çünki belə tablo Rus tarixi və dininə qarşı çəkilmişdir. Belə ki, tarixdə Rus çarı İvan Qroznı (16 noyabr 1581-ci ildə) oğlu İvanı öldürməmiş. (Allah (c.c.) yalançı rəss cəzasını sağlığında verərək və fırça tutan əlini iflic etmişdir).

> *"Verdiyimiz kitabı layiqincə oxuyanlar həmin kitaba iman gətirənlərdir. Onu inkar edənlər isə özlərinə zərər yetirənlərdir."*
>
> **(Bəqərə surəsi, 121)**

"Əsil yetimlik qocanın qarısı öləndən sonra başlayır."

(Səhləb)

XX əsr Naxçıvan xalqının taleyi

Allah-təala (c.c.) dünya həyatında insanları bir ata (Həzrəti Adəm) və bir ana (xanım Həvva) izdivacından yaradaraq, onları bütün canlılardan "əfsəl", yəni üstün yaratmışdır. Bu yaradılmışla əlaqədar insanları Yaradandan qorxmaqla və bir-birləri ilə mehriban olmalarını istəmişdir. Lakin həmin törəmələrdən irqlər və xalqlar yaransa da, məlun Şeytanın yalan sözləri ilə bir-birlərinə qənim kəsilmişlər.

Həmin ədavət toxumları dünyanın sonunacan davam etsə də, insanlar bilməlidirlər ki, insan övladı Allaha (c.c.) o vaxt əməl edərlər ki, (yəni onun sözlərini sayarlar ki) bir-birlərinə mehriban olub və məlun Şeytanın sözlərinə baxmasınlar. Dünya həyatındakı mövcud millətlərdən biri də Yunan və Fars qarışıq törəməsindən yaranmış Erməni millətidir.

Bu millətin dünya xalqlarına qarşı həsəd və xainliyi həmişə onların qan damarlarındakı mikroskopik genlərindədir. Ermənilər həmişə çalışarlar ki, bütün xalqlardan üstün olsunlar. Lakin bu onların xam xəyallarıdır. Çünki Allah (c.c.) hər bir insana tale yazısı verməklə, hər bir xalqa isə mərhəmət və insanlığa məhəbbət bildirmişdir. Allahın (c.c.) dünya həyatındakı insanlara məlun Şeytana uymamaq üçün özlərindən seçilmiş nəbilər (peyğəmbərlər) və müqəddəs yazılar (kitablar) vardır.

Hər kəs qiyamətdən sonra, yəni bu müvəqqəti həyatdan sonra daimi və xoşbəxt yaşamaq istərsə o insan Allahın (c.c.) vəd etdiyi Cənnətə düşəcəkdir. Yox əgər hər kəs ki, Allahın (c.c.) vədinə məhəl qoymasa və məlun Şeytanın yolu ilə gedərsə (yəni kin-küdurət, xain, özündən razı olarsa) o zaman Şeytanla bərabər əbədi pis bir məkan olan-Cəhənnəmə sürüklənər.

Tarixi məlumatlara görə cənubi Qafqaza sonradan köçürülmüş Erməni xalqı, az bir vaxt ərzində Şeytana uyaraq və əzəli yurd yerləri olan müsəlmanlara qarşı ədalətsiz və xainliklə savaşa başladı. İyirminci əsrin əvvəlləri və axırlarında Naxçıvan xalqı çətinliklərlə üzləşdi və tarixi İrəvan xanlığında yaşayan müsəlmanlar yurd yerlərindən zorla çıxarılaraq didərgin düşdülər.

Ermənilər xarici havadarlarına arxalanaraq müsəlmanlara qarşı çıxdılar. Allahın (c.c.) köməyi ilə yalnız qonşu Türkiyə dövləti bütün bu işlərdə müsəlmanlara kömək əlini uzadaraq və siyasi-hərbi yolla bölgədə sülh yaratmaq məqsədilə tarixi müqavilələr hazırlayıb və həyata keçirdilər. Həmin müqavilələrdən biri də Qars müqaviləsidir.

Qars müqaviləsində öz ədalətli həllini tapan bir sıra məsələlər əvvəlki (Gümrü (Aleksandropol) və Moskva) müqavilələrdə də müzakirə olunaraq imzalarla təsdiq edilmişdir. Ermənilər "böyük Ermənistan" yaratmaq məqsədilə İrəvan və Naxçıvan, habelə Qarabağ xanlıqları olmuş müsəlman torpaqlarını ələ keçirmək istəyirlər. Bu işdə ermənilərə ABŞ, İngiltərə və Rusiya himayədarlıq edərək, Türkiyə və Azərbaycanla müharibəyə başlayır.

1920-ci il sentyabrın 24-də Türk ordusu erməni hücumlarına qarşı savaşda, (18 noyabr) ermənilər məğlub olur. Ermənilər dekabrın 2-də Türkiyə dövləti ilə (Gümrü (Aleksandropol) şəhərində) sülh müqaviləsi bağlamalı oldu. Müqavilənin 2-ci maddəsində tərəflər Naxçıvan bölgəsi ilə bağlı aşağıdakı kimi razılaşmışlar;

"Ermənistan Kükü dağı, Həməsür dağı, Qurdqulaq kəndi, Sayat dağı, Arpaçay evləri, Qəmərli dağı, Saray bulaq dağları, Ararat stansiyası, Araz çayı yaxınlığındakı Aşağı Qarasuyun töküldüyü yerdən keçən zolağın cənubundakı (Naxçıvan, Şahtaxtı, Şərur) əraziyə, daha sonra referendumla təyin olunacaq idarə formasına və bu idarənin əhatə edəcəyi torpaqlara qarışmayacaq və indiki ərazilər, Türkiyənin himayəsində olacaq."

Müqavilənin 12-ci maddəsinə əsasən Türkiyə hökuməti Şərur, Naxçıvan, Şahtaxtı və Culfa yolu ilə tranzit işlərinin sərbəstliyinin təminatını öz üzərinə götürmüşdü. (Müqaviləyə görə, Dəvəli və Arazdəyəndən başqa, bugünkü Naxçıvan sərhədləri, demək olar ki, müəyyənləşdirilmişdi).

Naməlum səbəblərdən (?) əzəli türk torpaq əraziləri olmuş Uluxanlı, Qəmərli və ən başlıcası isə 1920-ci ilə qədər Naxçıvanı erməni hücumlarından qoruyan Böyük Vedi və ətraf kənd əraziləri ermənilərə verilmişdir. Nəticədə isə Naxçıvanın şimal-qərb sərhəd bölgəsi yalnız Dəvəli olmuşdu.

Ermənilərin daşnak rəhbərliyi Naxçıvanı Azərbaycandan qoparmaq üçün bütün vasitələrdən istifadə edir. 1918-20-ci illərdə ermənilər Naxçıvanda qırğınlar törətmiş, lakin müsəlman əhalini özlərinə tabe edə bilməmişlər.

1920-ci ilin 28 oktyabr tarixdə Rus Sovet hökumət rəhbərliyi tərəfindən xalqının xəbəri olmadan Naxçıvan və Zəngəzur əraziləri Ermənistana verilir. Həmin ilin 29 noyabr tarixində Ermənistanda (İrəvanda) Rus bolşevik hökuməti yaradılaraq və dekabrın 1-də isə Ermənistan Hərbi İnqilab Komitəsinin bəyanatı olur.

Bəyanatda deyilir: "... Bundan sonra heç bir ərazi məsələsi əsrlər boyu qonşu olan iki xalqın qanının tökülməsinə səbəb ola bilməz. Zəngəzur və Naxçıvan qəzaları Sovet Ermənistanının ayrılmaz hissəsidir. Dağlıq Qarabağın zəhmətkeş kəndlilərinə isə öz müqəddəratını təyin etmək hüququ verilir. Zəngəzur ərazilərində bütün hərbi əməliyyatlar dayandırılır. Sovet Azərbaycanının bütün qoşunları oradan çıxarılır."

Bütün bu işlərə qarşı çıxan Naxçıvan xalqı, Bakıdan Naxçıvana gələn Behbud ağa Şahtaxtinskinin(1881-1924) sayəsində Türkiyə hökumətindən kömək istəmiş. Rusiya hökuməti naxçıvanlıların etirazı ilə hesablaşaraq və Türkiyənin Gümrü müqaviləsini nəzərə almaq məcburiyyətində qalır.

1921-ci ilin yanvarında keçirilən rəy sorğularına görə, əhalinin 90 faizi mahalın Muxtariyyət statusunda Azərbaycan tərkibində qalmasına səs verirlər. Azərbaycanın tərkibində Naxçıvanın qalması məhz Behbud ağa Şahtaxtinskinin fəaliyyəti ilədir. O, Rusiya XKS-nin sədri V.İ.Leninə həmin il martın 1-də teleqram göndərir.

Naxçıvan bölgəsi ilə bağlı faydalı təklifləri Lenin nəzərə alaraq və fevralın 26-da Türkiyə dövləti ilə Rusiya arasında 16 maddə və 2 əlavədən ibarət "Dostluq və qardaşlıq haqqında" Moskva müqaviləsi yaradılır. Müqavilənin üçüncü maddəsinə əsasən, Naxçıvan Azərbaycanın tərkibində Muxtariyyət hüququ qazanır.

Türkiyə nümayəndəliyinin (Bəkir Sami bəy və Yusif Kamal bəy) təkidi ilə qəbul edilmiş müqavilə, Naxçıvan ərazilərinin ermənilərə verilməsi qarşısını alır. Tarixi Moskva müqaviləsinə görə, Naxçıvanın sərhədləri 1C əlavəsində aşağıda göstərilən şəkildə müəyyən edilmişdir;

"Ararat stansiyası (8930-3080)-Saray bulaq dağı (8071)-Kömürlü dağ (8839)-Sayat dağı (7868)-Qurdqulaq kəndi-Həməsür dağı (8160)-yüksəklik (8022) Kükü dağı (10282) və keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədi."

Moskva müqaviləsi Azərbaycanın bütövlüyü və Naxçıvanın ərazi məsələsində böyük tarixi əhəmiyyət daşıyır. Sovet Rusiyası ilə Türkiyə arasındakı Moskva müqaviləsi, Cənubi Qafqazda yaranmış ərazi ziddiyyətlərinə son qoyur. 1920-21-ci illərdə Cənubi Qafqazın tam sovetləşməsi (Rusiyanın tərkibinə keçməsi) nəticəsində Türkiyə ilə Qafqaz respublikaları arasında yeni müqavilə şərtləri yaradılır.

1921-ci ilin 26 sentyabr tarixində Türkiyənin Qars şəhərində Cənubu Qafqaz respublikaları, Rusiya və Türkiyə dövlət nümayəndələri tərəfindən diplomatik danışıqlar aparılır. Həmin toplantıda Azərbaycan xalq fəhlə-kəndli nəzarət Komissarı Behbud ağa Şahtaxtinski də iştirak edir.

Azərbaycan KP-nın rəhbərliyində olan S.Danielyan, L.Mirzoyan, A.Mikoyan və S.Orconikidze Behbud ağa Şahtaxtinskini bu danışıqlardan uzaqlaşdırmaq istəyirlər. Lakin Xalq Komissarı Nəriman Nərimanovun təşəbbüsü ilə ermənilər bu işə nail ola bilmir. (Qars şəhərinə Naxçıvan SSR Xalq Komissarları Soveti nümayəndəliyindən Tağı Səfiyev də göndərilir).

Sentyabrın 26-dan oktyabrın 13-dək aparılmış danışıqlarda Kazım Qarabəkir paşa, Yakov Qanetski və Askanaz Mravyan öz mülahizə və təklifləri ilə çıxış etmişlər. Türkiyə nümayəndəsi Kazım Qarabəkir paşa təklifində demişdir: "Moskva hökuməti Güney Qafqaz respublikalarını müstəqil tanıdığını bildirir. Ona görə də biz onların hər biri ilə müstəqil dövlətlər kimi ayrıca müqavilə bağlamaq istəyirik."

Nəhayət ki, Qars şəhərində Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasındakı imzalanan müqavilə şərtləri 20 maddə və 3 əlavədən ibarət olur. (Həmin müqavilənin bir çox maddələri Moskva müqaviləsinin müvafiq maddələri ilə uyğun gəlirdi). Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın ərazi taleyi ilə bağlı idi. Müqavilə şərtlərinə görə Naxçıvan Azərbaycanın tərkibində olan Muxtar (sərbəst) dövlət idi.

Türkiyə, Azərbaycan və Ermənistan hökumət nümayəndələrinin təsdiqi ilə tarixi Qars müqaviləsinin 5-ci maddəsinin 3-cü əlavəsində Naxçıvan əraziləri aşağıdakı kimi təsdiq olmuşdur;

> *"(Naxçıvan ərazisi) Urmiya kəndindən (başlayır), oradan düz xətt ilə Arazdəyən stansiyasına (stansiya Ermənistanda qalmaq şərti ilə), sonra düz xətt ilə Daşburun dağının (3142) qərbinə, oradan Daşburun dağının suayırıcını (4108), Cəhənnəmdərəsi çayını, Bağırsaq dağının suayırıcını (6607 və ya 6587) keçərək, "Rodnik" (bulaq) yazısının cənubundan keçmiş İrəvan və Şərur-Dərələyəz qəzalarının inzibati sərhədləri ilə gedərək, 6629 yüksəkliyindən Kömürlüdağa (6839 və ya 6930), oradan 3080 yüksəkliyinə, Sayatdağa (7868), Qurdqulaq kəndinə, Həməsür dağına (8160), 8022 yüksəkliyinə, Küküdağa (10282) və (nəhayət) keçmiş Naxçıvan qəzasının şərq inzibati sərhədində (qurtarır)."*
>
> ***(Müddətsiz imzalanan tarixi Qars müqaviləsi 1922-ci ilin sentyabr ayının 11-dən qüvvədədir).***

Naxçıvan torpaqlarına göz dikən ermənilərin qanunsuz iddialarına tərəf duran Zaqafqaziya MİK-nin rəhbərliyi 1929-31-ci illərdə Naxçıvan MSSR ərazisinin bir hissəsini Ermənistana verir.

Həmin ərazilər; Şərur qəzasından Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsindən Ağbinə, Ağxaç, Aımalı, Dağ Almalı, İtqıran, Sultanbəy, kəndləri və Ordubad qəzasından Qərçivan, Mehri, Buğkər və Kilit kəndinin torpaq əraziləridir.

Ümumiyyətlə Rusiya hökumət rəhbərləri tərəfindən Naxçıvan MSSR ərazisinin 657 km^2 (15%-i) sahəsi keçən əsrin 20-90-cı illər arası qanunsuz olaraq ermənilərə verilmişdir.

Tarixi Qars müqaviləsində Muxtariyyət əsası qoyulmuş əvvəl Naxçıvan SSR (1923-cü il 16 iyun), sonra Naxçıvan MSSR (1924-cü il 9 fevral) və daha sonra isə Naxçıvan MR (1990-cı il 17 noyabr) adlandırılıb. 1926, 1937, 1978 və 1998-ci illərdə Naxçıvan Konstitusiyası qəbul edilmişdir.

Konstitusiyanın 134-cü maddəsində Naxçıvan MR Azərbaycan Respublikası tərkibində demokratik, hüquqi və dünyəvi Muxtar dövlət kimi təsbit edilmişdir. ("Şərq qapısı" qəzeti, 2013-cü il № 192).

> *"O kəslər ki, Allahla əhd bağladıqdan sonra onu pozur, Allahın qovuşdurulmasını əmr etdiyi (əlaqələri) kəsir və yer üzündə fitnə-fəsad törədirlər. Məhz onlar ziyana uğrayanlardır !"*
>
> **(Bəqərə surəsi, 27)**

"Çalışmayana Allah da yardım etməz."

(Sokrat)

Həyatın qəribəlikləri

"Aləmdə nə varsa gecə və gündüz, səni yada salıb etməkdə təqdis."

Bizim yaşadığımız həyatda tarix boyu hər şeyi yaradan Allahın (c.c.) əmri ilə qəribə anlar və gerçəkliklər mövcuddur. Təbiət vurğunu kimi həmin qəribəlikləri keçən əsrin səksəninci illərindən (meteoroloji cihazlarla) müşahidə edib və yaddaş dəftərimdə saxlamışam. Uzun-uzadı olan siyahını sadalamaq istəməsəm də qeyd etdiyim ən maraqlı təbiət hadisələrini aşağıda bildirirəm.

1964-cü il dekabrın ikinci yarısı; Naxçıvan şəhərində güclü şaxtalı soyuq hava oldu. Temperatur-40C°, qar örtüyü 35 sm, rütubət isə 80% olmuşdur. "Bazar çayı"nda donmuş buzun qalınlığı 60 sm idi.

1982-cü il fevralın birinci ongünlüyü; Naxçıvan MR ərazilərində şaxtalı soyuq hava müşahidə oldu. Temperatur-45C°, qar örtüyü 5-6 sm, rütubət isə 65% olmuşdur. (bax; "Qış lövhələri" (1982) sənədli filmi).

1995-ci il 22 avqust; Gündüz saat 16^{45} də 7 dəq. 08 san. ərzində Günəş tam tutulmuşdur. 2168-ci ilin avqustun 21-də həmin hadisə təkrar 7 dəqiqə 28 saniyəlik ehtimalında olmalıdır ki, bu isə Qiyam-qiyamətin başlanmasına bir işarədir. (Doğrusunu Allah (c.c.) bilir).

> *"Və (istehza ilə): "Qiyamət günü nə vaxt olacaqdır?"- deyə soruşar. Göz (heyrətdən) bərələcəyi; Ay tutulacağı; Günəşlə Ay birləşəcəyi zaman- məhz o gün insan: "Qaçıb can qurtarmağa yer haradadır?"- deyəcəkdir. Xeyir, (o gün) heç bir sığınacaq olmayacaqdır! O gün duracaq yer ancaq Rəbbinin hüzurudur! O gün insana öncə etdiyi və sonraya qoyduğu nə varsa xəbər veriləcəkdir! Doğrusu, insan özü-özünə şahiddir !"*
>
> **(Qiyamət surəsi, 6-14)**

1999-cu il 11 avqust; Gündüz saat 16^{45} də Günəş tutularaq yarım çevrə şəklində idi. Növbəti Günəş tutulma hadisəsi 2006-cı ildə baş verməlidir.

2002-ci il 10 dekabr; Səhər saat 5^{00} dən yağan qar, on gün ərzində 55 sm qalınlığında olmuşdur. Temperatur-5C°, təzyiq 665 mm civə sütunu və nisbi rütubət isə 75% olmuşdur.

2003-cü il 7 mart; Qalınlığı 20 sm qar yağmuru nəticəsində temperatur-1C°, təzyiq 650 mm civə sütunu və nisbi rütubət isə 85% olmuşdur.

2003-cü il 20 aprel; Gündüz saat 17^{35} də diametri 80-90 mm olan dolu yağmuru nəticəsində temperatur +14C°, təzyiq 650 mm civə sütunu və nisbi rütubət isə 85% olmuşdur.

2003-cü il 30 may; Gündüz saat 15^{20} də diametri 30 mm olan dolu yağmuru nəticəsində temperatur +14C°, təzyiq 650 mm civə sütunu və rütubət isə 85% olmuşdur.

2003-cü il 2 iyun; Axşam saat 19^{00} də diametri 30 mm olan dolu yağmuru nəticəsində temperatur +20C°, təzyiq 650 mm civə sütunu və rütubət isə 86% olmuşdur.

2003-cü il 12 avqust; Gecə saat 01^{12} də 3,5 bal gücündə (horizontal) zəlzələ oldu.

2003-cü il 28 avqust; Günəş sistemindəki doqquz planetdən biri olan Mars ulduzu Yerə yaxınlaşması nəticəsində havanın hərarəti normadan artıq qalxmışdır. Həmin hadisə 60 min ildən bir təkrarlanır. (Doğrusunu Allah bilir).

2004-cü il 30 mart; Gündüz saat 16^{45} də gücü saniyədə 28 san/m. çatan külək dağıntılar vuraraq havanın temperaturu normadan 10 dərəcə aşağa düşmüşdür.

2004-cü il 3-4 aprel; Sulu qar yağmuru nəticəsində havanın temperaturu +2C°, təzyiq 660 mm civə sütunu və rütubət isə 65% olmuşdur.

2004-cü il 11 may; Sutka ərzində dəyişən (cənub-şimal) istiqamətli gücü 80-100 san/m. olan tozlu külək əsmiş və təsərrüfatlara ciddi ziyan dəymişdir. Temperatur +32C°, təzyiq 665 mm civə sütunu və rütubət 20% olmuşdur.

2004-cü il 9-15 iyun; Günəş qarşısından Merkuri ulduzu keçdiyindən, Yerdə temperaturun aşağa düşməsi və güclü külək dağıntılarına səbəb yaranmışdır. Temperatur +13C°, təzyiq 665 mm civə sütunu və rütubət 70% olmuşdur.

2004-cü il 5 dekabr; Axşam saat 19^{00} dan qar yağmuru olmuşdur. Temperatur-1C°, təzyiq 700 mm civə sütunu və rütubət 70% olmuşdur.

2005-ci il 21-22 mart; "Xoruz ili"ndə sulu qar yağaraq çovğun oldu. Qarın qalınlığı 35 sm. olduğundan şəhərdəki "Novruz" şənliyi dayandı. Temperatur-3C°, təzyiq 700 mm civə sütunu və rütubət 60% olmuşdur.

2005-ci il 26 iyun; Axşam saat 19^{30} dan başlamış cənub-şərq istiqamətində 15 metr/san gücündə əsən küləklə leysan yağışı yağmışdır. Temperatur +20C°, təzyiq 600 mm civə sütunu və rütubət 60% olmuşdur.

2006-cı il 28 mart; Axşam saat 16^{15} də Günəş tutulmuşdur. Havanın temperaturu +18C°, təzyiq 665 mm civə sütunu və rütubət 50% olmuşdur.

2006-cı il 7 may; Axşam saat 17^{30} da şimal--cənub istiqamətində 80-100 metr/san gücündə küləkli yağış yağdı. Temperatur +25C°, təzyiq 600 mm civə sütunu və rütubət 60% olmuşdur.

2006-cı il 29 iyul; Axşam saat 16^{00} dan başlamış küləkli yağmur nəticəsində ağacların budaqları sınmışdır. Temperatur +10C°, təzyiq 600 mm civə sütunu və rütubət 80% olmuşdur.

2006-cı il 21 avqust; Havanın hərarəti normadan yuxarı olub gündüz temperatur +40C°, gecə isə +30C°-ə qalxmışdır. Təzyiq 650 mm civə sütunu, rütubət 45% olmuşdur.

2006-cı il 7 sentyabr; Gecə saat 22^{30} da Ay tutulma hadisəsi olmuşdur.

2007-ci il 19 aprel; Axşam saat 17^{10} dan başlayıb əsən gücü 20 m/san olan külək və diametri 20-25 mm olan dolu yağdı. Temperatur +12C°, təzyiq 600 mm civə sütunu, rütubət 80% olmuşdur.

2007-ci il 8 iyun; Axşam saat 16^{20} də yarım saat ərzində güclü dolu yağmuru oldu. Diametri 20 mm olan dolu örtüyü 8 sm idi.

2008-ci il 16 avqust; Gecə saat 24^{00} dən 1^{00} dək Ay tutulması hadisəsi olmuşdur.

2009-cu il 1 yanvar; Yağan qar örtüyünün qalınlığı 25 sm, temperatur-3C°, təzyiq 660 mm civə sütunu, rütubət 75% olmuşdur.

2009-cu il 13 aprel; 20 sm qalınlığında yağan qar ağacların çiçəklərinə ciddi zərər vermişdir. Temperatur-0C°, təzyiq 670 mm civə sütunu və rütubət 55% olmuşdur.

2009-cu il 13 aprel; Axşam saat 17^{00} də yağmur və dolu oldu. Gül şəkilli dolunun diametri 4 sm, ağırlığı isə 150 qr. idi. Temperatur +12C°, təzyiq 665 mm civə sütunu və rütubət 75% olmuşdur. (bax; "Dolu yağmuru" 2009, rəngli, sənədli-xronikal video film, 20 dəq.)

2010-cu il 19 mart; İki gün əsən güclü cənub-qərb küləyindən sonra, sulu qar yağmuru oldu. Qar örtüyünün qalınlığı 20 sm, temperatur-3C°, təzyiq 670 mm civə sütunu, rütubət 90% olmuşdur. (bax; "Novruzda qar" 2010 rəngli, "FB-film studiyası" xronikal film, 18 dəq.)

2010-cu il 27 avqust; Gecə saat 2^{00} də Mars (Mərrix) planeti Yerin yaxınlığından keçmişdir. Həmin hadisə bundan 60 min il əvvəl də olmuşdur. (Doğrusunu Allah bilir).

2010-cu il 30 oktyabr; Axşam saat 16^{00} dan bir saat ərzində güclü dolu yağmışdır. Temperaturu +8C°, təzyiq 670 mm civə sütunu, rütubət 85% olmuşdur.

2011-ci il 2 fevral; Səhərdən başlayıb narın yağan qar, axşama kimi davam etdi. Qar örtüyü 10 sm, temperatur-6C°, təzyiq 669 mm civə sütunu, rütubət 90% olmuşdur.

2011-ci il 15 iyun; Gecə saat 23^{05} dən 00^{25} dək Ay tutulması hadisəsi baş vermişdir.

2011-ci il 1-3 avqust; Günəşdə güclü partlama nəticəsində Yer üzərində istilik artmış, kölgədə hərarət 41-45 C°, təzyiq 600 mm civə sütunu, rütubət 11% olmuşdur.

2011-ci il 23 oktyabr; Gündüz saat 14^{36} da Türkiyənin Van əyalətində baş verən yeraltı silkələnmə nəticəsində, Naxçıvanda da 3,5 bal gücündə horizontal şəkilli zəlzələ olmuşdur.

2012-ci il 19 fevral; Gecə saat 4^{00} dən yağan qar səhər saat 6^{00} dək davam etdi. Qar örtüyü 25 sm, temperatur-6C°, təzyiq 665 mm civə sütunu, rütubət 80% və külək 12 m/san. olmuşdur.

2012-ci il 4 mart; Axşam saat 22^{00} dən yağan qar gecə saat 4^{00} dək davam etdi. Qar örtüyü 18 sm, temperatur-6C°, təzyiq 675 mm civə sütunu, rütubət 80% və külək 18 m/san. olmuşdur.

2012-ci il 11 avqust; Saat 17^{15} də və 17^{26} da zəlzələ olmuşdur. Yeraltı silkələnmənin gücü 3 bal (horizontal) idi. Havanın temperaturu +36C°, rütubət 45% idi.

2012-ci il 7 və 16 noyabr; Səhər saat 10^{00} da (7) və 7^{20} də (16) zəlzələ olmuşdur. Yeraltı silkələnmənin gücü 3,2 bal (horizontal) idi.

2013-cü il 01 yanvar; "İlan ili"ndə Səhər saat 10^{10} da zəlzələ olmuşdur. Yeraltı silkələnmənin gücü 3,5 bal (horizontal) idi.

2013-cü il 18 aprel; Gündüz saat 17^{00} də zəlzələ olmuşdur. Yeraltı silkələnmənin gücü 3,5 bal (horizontal) idi. Havanın temperaturu +16C°, rütubət 75% idi.

2013-cü il 10 iyun; Axşam saat 19^{00} da güclü tufan başlayaraq dolu yağmış. Dolunun iriliyi 18-20 mm, küləyin sürəti 10 m/san, temperatur +6C° və təzyiq isə 664 mm civə sütunu idi.

2014-cü il 17 iyul; Bu gün Ramazan ayının 19-da (H.1435) kölgədə havanın temperaturu + 41C°, rütubət 09% idi.

"Həqiqətən, göylərin və yerin yaradılmasında, ... ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə göndərilməsində əlamətlər vardır."

(Bəqərə surəsi, 164)

Ədəbiyyat

1) Ə.Musayev, Qurani-kərim (mənalı tərcümə) Bakı-2010.

2) Z.Bünyadov, V.Məmmədəliyev, Qurani-kərim Bakı-2004.

3) M.Bakuvi, Kəşfül-Həqayiq (3 cilddə) Tiflis-1904.

4) ASE (10 cilddə) VI cild; VII cild; X cild, Bakı-1982-1987.

5) Ə.Hacızadə, Azərbaycan əhalisi, məskunlaşması Bakı-1964.

6) Ə.Qədimov, Məhəmmədtağı Sidqinin həyatı... Bakı-2004.

7) İslam (qısa məlumat kitabı) Bakı-1989.

8) Ş.Göyçayski, Əhali coğrafiyası Bakı-1979.

9) Ərəb və Fars sözləri lüğəti Bakı-1985.

10) H.Yəhya, Quran möcüzələri İstanbul-2009.

11) H.Yəhya, Müsəlmanın 24 saatı İstanbul-2009.

12) H.Yəhya, Dinimizi öyrənək İstanbul-2009.

13) H.Yəhya, İmanın əsasları İstanbul-2006.

14) E.Məmmədli və başq., Qara zirə ilə müalicə Bakı-2009.

15) İbn Qayyim əl-Cəvziyyə, Ət-Tibbun- Nəbəvi, Beyrut-2000.

16) E.G.Bertels, Qabusnamə, (rusca) Moskva-1958.

17) A.Bakıxanov, Gülüstani-İrəm, Bakı-1951.

18) Adil Qasım Ordubadi Həyata baxış, Bakı-2009.

19) D.Karnegi, Dostu necə qazanmalı Bakı-1993.

20) R.Faybisoviç, K.Xromov, Maraqlı faktlar, Bakı-1970.

21) Allah yolunda fədakarlığın simvolu- Qurban, Bakı-2012.

22) A.Söhrəverdi, Məhəmmədin kəlamları Bakı-1990.

23) Peyğəmbərə 40 sual, Bakı-1993.

24) "Lev Tolstoyun faciəsi" Moskva sənədli filmlər studiyası-1997.

25) Ailəm jurnalı, 2010 № 57.

26) Düşünən insan jurnalı, 2011, № 3; 2012, № 5; № 7; № 15.

27) Sovet Naxçıvanı qəzeti, 1988, № 234.

28) Haqqın nuru qəzeti, 2012- № 48 51; 2013- № 2; 2014- № 36-37 48.

29) Şəhriyar qəzeti, 1997, № 32.

30) Zaman qəzeti, 2012, № 10.

31) Oxu qəzeti, № 35, 2011.

32) Şərq qapısı qəzeti, № 192, 2013.

33) Şərurun səsi qəzeti, № 90, 2013.

34) İnternet saytı; www.diyanet.gov.tr. www.Azerimuslims.com.



Feyruz Abdulla oğlu Bağırov

1946-cı ildə Naxçıvan şəhərində dindar ziyalı ailəsində anadan olmuşdur.

“Fars və Ərəb dilləri kursu”nu bitirən F. Bağırov uzun illərdir ki, ictimai əsaslarla Naxçıvan MR Nazirlər Kabineti yanında Dini İşlər Müvəkkilliyi və Muxtar Respublika Tarixi və Arxeoloji Abidələri Mühafizə Cəmiyyətinin fəal təbliğatçısıdır. O, 2012-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Əmək Veteranı fəxri adını almışdır.

Feyruz Bağırov “Ziyarətnamə” (1996), “Nuh yurdu-Naxçıvan” (1999), “Əzablı günlər” (2006), “Naxçıvanın təbii sərvətləri” (2007), “Nuh yurduna ziyarət” (2008), “Axirət fədaisi” (2009), “Tarixin yaddaşı” (2010), “Dünya həyatı” (2013), “Müsəlmanın maraq dünyası” (2014), “İslam mədəniyyəti” (2015), “Dərman bitkiləri” (2016) və “Yamanlığa yaxşılıq” (2016) adlı kitabların müəllifidir.

Müəllifin veb saytı: **www.nuhyurdu.com**
E-mail ünvanı: **info@nuhyurdu.com**